Xalqın qəzeti!

# Xalq qəzeti

№ 46 (30740) 1 mart 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## İkili standartlar daha işə keçmir



Səhifə ⇨ 3

## Rəsmi İrəvan sülh gündəmini “məhbuslar məsələsi”nə dəyişir

*Ölkənin diplomatik bəyanatı bunun anonsudur*



**Əminliklə deyə bilərik ki, haylar və onların havadarlarındakı isterik əhval-ruhiyyə yeni ab-hava yaradır. Artıq durumun bilavasitə katalizatoru qismində çıxış edən Ermənistan hakimiyyətidir. Ölkənin xarici işlər nazirliyinin yaydığı bəyanat da bunu söyləməyə əsas verir.**

Əvvəlcə onu bildirək ki, dünən Ermənistanın xarici siyasət idarəsinin binası önündə aksiya keçirilib. Aksiya iştirakçıları Qarabağdakı keçmiş separatçı rejimdə “dövlət naziri” kimi oyuncaq post tutmuş rusiyalı milyarder Ruben Vardanyanın şəklini əllərinə alaraq, ölkə rəhbərliyini beynəlxalq siyasətə görə məsuliyyətli davranmağa çağırıblar.

Bəli, Ermənistan və havadarlarındakı hazırkı isterik durumun özəyini Azərbaycanda məhkəməsi gedən ermənilərlə bağlı məsələ təşkil edir. Deyəsən, hayların “knopkaları basılıb”. “Knopkası basılmışlar” beynəlxalq aləmin diqqətini məhkəmə prosesinə cəlb etməyə çalışır, prosesin, guya, ədalətsiz və qanunsuz olduğunu, humanist dəyərlərə zidd mahiyyət daşıdığına dair cəfəngiyyatı tirajlayırlar. Onların sırasında kimlər yoxdur ki? Hətta futbolçu, İtaliyanın “İnter” klubunun üzvü Henrix Mxitaryan da ümumi axına qoşulub. Görünür, Şuşadakı villasının xiffətini çəkdiyindən belə edir. Nə isə Mxitaryan başını top yerinə divara vurmağında, hay sürüsünün təmsilçiləri isə vay-şivən qoparmaqda olsunlar, görək Ermənistan XİN bəyanatında nələri açıqlayıb.

**(ardı 4-cü səhifədə)**

## Real ermənidən “Real Ermənistan”a keçid

*Bəs SSRİ-dən “boşanmadan” sonra sahibinə qaytarılmalı “əmlak”?*



**Rusiya Prezidenti Vladimir Putin açıqlamalarının birində SSRİ-nin süqutundan sonrakı mənzərəni təsvir edərkən maraqlı məqama diqqət çəkmişdi. O, təxminən belə bir sual vermişdi: Nəyə görə hansısa müttəfiq respublika Sovetlər Birliyinin dağılmasından ərazi uduşu ilə çıxmalıdır?**

Əlbəttə, V.Putin Ukraynanı nəzərdə tutmuşdu. Ancaq o da məlumdur ki, son illərədək Kreml rəhbərinin Ukraynanın ərazi bütövlüyünü hansısa formada şübhələndirəcək fikri olmamışdı. Putindən əvvəlki Boris Yeltsin iqtidarının da həmçinin. Problem NATO-nun Şərqə doğru genişlənmə siyasətindən və Ukraynanın həmin siyasətdə alətə çevrilməsindən sonra çıxmışdı. Təbii, hazırkı Ukrayna iqtidarı məsələyə fərqli prizmadan yanaşa bilər. Məsələn, bildirə bilər ki, NATO-da təmsilçilik, yaxud Avropa İttifaqına qoşulma ölkənin suveren hüququdur.

**(ardı 4-cü səhifədə)**

## Sumqayıt – erməni məkrinin günahsız ünvanı



Səhifə ⇨ 12

# Zəfərdən Böyük Qayıdışa



**2020-ci ildə 44 günlük müharibəsi Zəfərlə başa çatdıqdan, Qarabağ Ermənistan işğalından azad edildikdən və respublikanın ərazi bütövlüyü tam bərpa olunduqdan sonra ölkə qarşısında geniş miqyaslı vəzifə – dağıdılmış infrastrukturun bərpası, məcburi köçkünlərin öz yurdlarına qayıtması, Qarabağın və Şərqi Zəngəzurun firavan və xoş güzəranının bərqərar olduğu mərkəzə çevrilməsi kimi mühüm vəzifələr dururdu. Müzəffər Ordumuzun İkinci Qarabağ müharibəsində qazandığı Zəfərdən az müddət sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində dedi: “Böyük Qayıdış başlayır, bütün bərpa işlərinə başlanılıb. Əminəm ki, biz düşməni cəmi 44 gündə öz torpaqlarımızdan qovduğumuz kimi, tarixi torpağımızı – Qarabağımızı da ən qısa müddətdə bərpa edəcəyik”.**

Tarixin arxada qoyduğu 4 ildə həyat göstərdi ki, Azərbaycan xalqının lideri İlham Əliyevin bu sözləri sadəcə bir vəd olaraq qalmadı. Biləvasitə ölkə başçısının rəhbərliyi ilə xırdalıqlarına qədər işlənib hazırlanmış “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın qəbulundan sonra Qarabağ və Şərqi Zəngəzurda, ərazilər mina və partlamamış hərbi sursatlardan təmizlənməyə, şəhər və kəndlər yenidən tikilməyə, infrastruktur layihələr reallaşmağa, yollar inşa edilməyə, yeni elektrik stansiyaları istifadəyə verilməyə, istehsal müəssisələri yaradılmağa, məcburi köçkünlər mərhələli şəkildə yenidən doğma yurdlarında məskunlaşmağa başladı. Əlbəttə, bütün bu proseslər – böyük miqyas almış tikinti və quruculuq işləri regionun müasirləşməsində əsas rol oynayan Azərbaycan Prezidentinin şəxsi nəzarəti altında həyata keçirilir.

Etiraf edilməlidir ki, Azərbaycanın 30 il işğal altında qalmış torpaqları bu illər ərzində “vəhşi tayfalar” – haylar tərəfindən amansızcasına tarimar edilmiş, şəhər və kəndlərdəki evlərin, müəssisə və obyektlərin daş divarları belə dağıdılmış, talan edilib aparılmışdı. Bir çox şəhər və kəndlər tamamilə viran qoyulmuşdu. Tarixi abidələr, yollar, məktəblər, xəstəxanalar, yaşayış binaları xarabalığa çevrilmişdi. Şübhəsiz, Ermənistan işğalının ürək dağlayan amansız izlərinin silinməsi üçün uzun illər və çox böyük maliyyə vəsaiti lazım idi. Ən ciddi sual isə bundan ibarət idi ki, görəsən Azərbaycanın bu ağır missiyanı yerinə yetirməyə gücü çatacaqmı?



**(ardı 7-ci səhifədə)**

## Azərbaycan Respublikası Prezidentinin “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” 2019-cu il 27 iyun tarixli 759 nömrəli və “Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında” 2021-ci il 7 oktyabr tarixli 1455 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

*Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1356) ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”nın 3.8.2-ci yarımbəndində “2025-ci” sözləri “2027-ci” sözləri ilə əvəz edilsin.

**2.** “Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 oktyabr tarixli 1455 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2021, № 10, maddə 1099 (Cild I) 2.1-ci bəndində “2025-ci” sözləri “2027-ci” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 fevral 2025-ci il**

## Azərbaycan Respublikasında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının 7 şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının 1.12.4.4.12-ci (Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) abzasında nəzərdə tutulmuş vəsaitdən 9.940,0 (doqquz milyon doqquz yüz qırx) min manatı bu Sərəncama əlavə edilmiş siyahıya uyğun olaraq şəhər və rayon icra hakimiyyətlərinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 fevral 2025-ci il**

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 fevral tarixli Sərəncamına Əlavə*

### Lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulmuş doqquzmərtəbəli binaların şəhərlər üzrə bölgüsünə dair siyahı

| № | Şəhərin adı | Quraşdırılacaq liftlərin sayı | Ayrılmış vəsaitin məbləği (min manat) |
|---|---|---|---|
| | **7 şəhər üzrə cəmi:** | **200** | **9.940,0** |
| | o cümlədən: | | |
| 1. | Bakı | 141 | 7.007,7 |
| 2. | Sumqayıt | 30 | 1.491,0 |
| 3. | Naxçıvan | 11 | 546,7 |
| 4. | Gəncə | 10 | 497,0 |
| 5. | Xırdalan | 5 | 248,5 |
| 6. | Qazax | 2 | 99,4 |
| 7. | Bərdə | 1 | 49,7 |

# Fövqəladə hallar nazirinin qəbulu



**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov fevralın 28-də Lənkəran şəhərində nazirliyin Cənub Regional Mərkəzinin binasında Lənkəran və Astara rayonları sakinlərinin müraciətlərini dinləyib.**

Lənkəran və Astara rayonları sakinlərinin nazirə edilən müraciətlərinin əksəriyyəti yerindəcə həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə FHN-in aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq struktur bölmə və qurumlarının rəhbərləri də vətəndaşların müraciətini dinləyiblər.

Vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

**XQ**

# Qvineya-Bisau Prezidentinin Azərbaycana səfəri başa çatıb

**Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalonun Azərbaycan Respublikasına rəsmi səfəri fevralın 28-də başa çatıb.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qvineya-Bisau Prezidentini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər yola saldılar.

# Ceyhun Bayramovun həmkarları ilə telefon danışığı

**Fevralın 28-də xarici işlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas arasında telefon danışığı aparılıb.**






Telefon danışığı zamanı Azərbaycan və Aİ münasibətlərinin hazırkı durumu və perspektivləri nəzərdən keçirilib, regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Tərəflər ikitərəfli əməkdaşlıq münasibətlərinin geniş potensiala malik olduğunu, gündəlikdə duran məsələlərin irəlilədilməsi məqsədilə qarşılıqlı səfərlərin həyata keçirilməsi də daxil olmaqla, siyasi dialoqun intensivləşdirilməsinin əhəmiyyətini vurğulayıblar.

*

**Fevralın 28-də nazir Ceyhun Bayramovun Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar ilə telefon danışığı baş tutub.**

Azərbaycan XİN-dən verilən məlumata görə, nazirlər iki dost və qardaş ölkə arasında mövcud olan strateji əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirərək, bir çox istiqamətdə əməkdaşlığın daha da dərinləşməsinin zəruriliyini vurğulayıblar.

Bununla yanaşı, iki ölkə liderləri arasında yüksəksəviyyəli təmaslar, habelə Pakistan Baş nazirinin ölkəmizə sonuncu səfəri zamanı əldə olunmuş razılıqların icrası məsələləri, o cümlədən gələcək planlar müzakirə edilib.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Konstitusiya Məhkəməsinin sədri Tiranada



**Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti Albaniya Konstitusiya Məhkəməsinin sədri Holta Zaçayın dəvəti ilə fevralın 28-də Avropa Konstitusiya Məhkəmələri Konfransına (Təşkilatına) üzv olan konstitusiya ədalət mühakiməsi orqanlarının sədrlərinin iclasında iştirak etmək üçün Tirana şəhərində səfərdə olub.**

İclas çərçivəsində Avropa Konstitusiya Məhkəmələri Konfransının XX Konqresinin keçirilmə tarixi və mövzusu, milli hesabatların təqdim edilməsi, müşahidəçilərin Konqresə dəvət edilməsi və digər praktiki məsələlərə baxılıb.

Səfər zamanı bir sıra Avropa ölkələrinin Konstitusiya məhkəmələrinin sədr və hakimləri ilə məhkəmə-hüquq məsələləri müzakirə edilib.

**XQ**

# Azərbaycan–Xorvatiya əməkdaşlığı



**İqtisadiyyat naziri Mikayıl Cabbarovun Xorvatiyaya səfəri çərçivəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə bu ölkənin bir sıra rəsmiləri və şirkət rəhbəri ilə görüşlər keçirilib.**

Nazirlikdən bildirilib ki, Xorvatiyanın iqtisadiyyat naziri, Azərbaycan və Xorvatiya arasında iqtisadi əməkdaşlığı təşviq etmək məqsədilə Birgə Komissiyanın həmsədri Ante Şuşnyar ilə işgüzar nahar formatında görüşdə ölkələrimiz arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi, özəl sektor, sərmayələrin təşviqi, enerji, turizm, əczaçılıq, tranzit daşımaları sahələri üzrə birgə fəaliyyətin perspektivləri barədə müzakirə aparılıb.

Xorvatiyanın ətraf mühitin mühafizəsi və yaşıl keçid naziri Mariya Vuçkoviç ilə görüşdə ölkələrimizin mühüm tərəfdaşlıq istiqaməti olan energetika sahəsində birgə fəaliyyətin şaxələndirilməsi barədə fikir mübadiləsi aparılıb. Yaşıl enerjiyə keçidi və səmərəli iqlim fəaliyyətini dəstəkləyən təşəbbüslər üzrə əməkdaşlıq imkanları dəyərləndirilib.

Xorvatiyanın “Prvo Plinarsko Društvo” (PPD) şirkətinin rəhbəri Pavao Vuynovak ilə görüş zamanı şirkətin Azərbaycanla əməkdaşlıq potensialı, enerji və qida sənayesi sahələrində fəaliyyətin əlaqələndirilməsi imkanları haqqında fikir mübadiləsi aparılıb.

**XQ**

## XİN düşmən iddialarını rədd edir

**Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycanda erməni məhbuslarla və hərbi cinayətlərdə ittiham olunan şəxslərlə pis rəftar, o cümlədən onların davam edən məhkəmə prosesi ilə bağlı əsassız iddiaların qeyd olunduğu 28 fevral tarixli bəyanatını qətiyyətlə pisləyir və rədd edirik.**

Bu barədə XİN-in mətbuat katibi Ayxan Hacızadənin məsələ ilə bağlı şərhində bildirilib. A.Hacızadə qeyd edib ki, Ermənistanın 30 ilə yaxın müddətdə qayğısına qaldığı separatçı liderlər və saxlanılan digər ermənəsilli şəxslər ya müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərdə ittiham olunur, ya da artıq bu cinayətlərə görə məhkum ediliblər. Cenevrə konvensiyalarına, habelə ümumilikdə beynəlxalq və milli qanunvericiliyə uyğun olaraq Azərbaycan bu kimi cinayətlərin araşdırılması, həmçinin mühakiməsi üzrə hüquq və öhdəliklərə malikdir. Bu kimi həbslərin tam hüquqi əsası var və bu, saxlanılan şəxslərin hüquqlarına xələl gətirmir.

“Təqsirləndirilən şəxslərin bütün hüquq və vəzifələri lazımi qaydada təmin olunub və izah edilib, bütün məhkəmə prosesi və ifadələri qeydə alınıb. Azərbaycanda məhbuslara qarşı qəddar rəftarla bağlı iddialar müstəqil şəkildə araşdırılıb və bu iddialar yalandır.

Yaxşı məlumdur ki, Azərbaycan 2020-ci il müharibəsindən sonra humanitar jest olaraq, habelə beynəlxalq humanitar hüquq üzrə öhdəliklərinə uyğun şəkildə hərbi əsir statusu olan və ya saxlanılan şəxs hesab edilən 200 nəfərdən çox ermənini azadlığa buraxıb və repatriasiya edib. Ermənistan XİN-ə onu da xatırlatmaq istərdik ki, Azərbaycan, həmçinin 2023-cü ildə həyata keçirdiyi antiterror tədbirlərindən sonra 10 mindən çox şəxsi heyətə malik qeyri-qanuni erməni silahlı qüvvələrinə silahı yerə qoymağa və Azərbaycan ərazilərini tərk etməyə icazə verməklə böyük jest edib.

Görünən odur ki, Ermənistan tərəfindən belə bir bəyanatın verilməsi bu ölkənin siyasi rəhbərliyinin bir zamanlar Azərbaycana qarşı təcavüz aktı və siyasətini davam etdirmək naminə bütün vasitələrlə açıq şəkildə dəstəklədikləri şəxslərin hazırda müharibə cinayətləri törətməkdə ittiham edilməsi ilə əlaqədar məhkəmə prosesi ilə bağlı nə qədər narahat olduqlarını nümayiş etdirir. Ermənistanın işğalçı və təcavüzkar ölkə kimi dövlət məsuliyyəti və bir sıra qanunsuz əməlləri danılması mümkün olmayan faktdır. Beləliklə, bu əməllərdə təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb olunmaları siyasi manipulyasiya ilə xələl gətirilə bilinməyəcək qədər haqq işidir.

Bu kritik dönəmdə Azərbaycan tərəfi Ermənistan tərəfinin hərbi cinayətləri törədənlərin məsuliyyətə cəlb edilməsi də daxil olmaqla, regionda sülh səylərinə xələl gətirən əsassız bəyanatlardan çəkinəcəyini gözləyir”, – deyə A.Hacızadə bildirib.

*

**Azərbaycan XİN-in mətbuat katibi Ayxan Hacızadə Fransanın dənizaşırı ərazilər naziri Manuel Valsın iddialarına dair yerli mətbuatın suallarını da cavablandırıb.**

O bildirib ki, Azərbaycanı “etnik təmizləmə”də ittiham edən Fransa tərəfi, keçmiş münaqişənin həllinə məsul olan Minsk prosesinin həmsədrlərindən biri olması və bu ölkənin heç zaman Ermənistanın işğal siyasəti nəticəsində 1 milyona yaxın azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsini qınamaması fonunda, könüllü surətdə Azərbaycanın Qarabağ bölgəsini tərk edən insanların guya “etnik təmizləməyə” məruz qalmasını iddia etməsi riyakarlıqdan və öz maraqları naminə faktların təhrifindən başqa bir şey deyil.

Fransa tərəfindən ölkəmizə qarşı bu əsassız yalan kampaniyasını dayandırmağı tələb edirik.

# İkili standartlar daha işə keçmir

## *Qarabağda beynəlxalq humanitar hüququ kim pozub?*



**Avropa Parlamentinin uzun müddətdir ki, Avropa İttifaqının ən korrupsiyalaşmış strukturlarından birinə çevrildiyi, erməni lobbisinin böyük həcmli “maliyyə sərmayələri” sayəsində mütəmadi olaraq Azərbaycan əleyhinə qətnamələr qəbul etdiyi, bəyanatlar verdiyi məlumdur.**

Son vaxtlar Ermənistanla Aİ arasında münasibətlərin “istiləşməsi”, yaxınlaşma meyillərinin artması müşahidə olunmaqdadır ki, bu da təsadüfi deyil. Axı, bu ilin əvvəlində Ermənistan baş naziri Nikol Paşinyan ölkəsinin Aİ-yə üzv olması prosesinə başlamaq qərarına gəldiyini bəyan etdi və bunun ardınca parlamentə müvafiq qanun layihəsi göndərildi. Bununla yanaşı, tərəflər viza rejiminin liberallaşdırılması, İrəvanın “Avropa sülh aləti” proqramına daxil edilməsi ilə bağlı Ermənistan–Aİ dialoqunu da tam sürətlə davam etdirirlər. Aydın görünən odur ki, Avropa Parlamenti erməni lobbisinin və ikili standartların tələsinə düşüb. Yəni, Ermənistan hakimiyyəti sülhə hazır olduqları barədə gurultulu bəyanatlara baxmayaraq, bütün fürsət və imkanlardan istifadə edərək, təxribat xarakterli anti-Azərbaycan siyasətindən də əl çəkmir.

*

Ermənistan milli assambleyasının sədri Alen Simonyan İrəvanda Ermənistan–Avropa İttifaqı Parlament Tərəfdaşlığı Komitəsinin həmsədri Nil Uşakovun rəhbərlik etdiyi avropalı deputatlarla görüşüb. Erməni mediasının həmin görüşün icmalında Qarabağla bağlı verdiyi bir incə məqam diqqəti cəlb edir. Hayların spikeri Avroparlamentarilərlə danışıqlarda “Dağlıq Qarabağda beynəlxalq humanitar hüququn itirildiyini” bəyan edib. Aydın məsələdir ki, onun bu açıqlamasının altında Qarabağı könüllü tərk etmiş ermənilərin, guya, pozulmuş hüquqları nəzərdə tutulur.

Oxuculara xatırladaq ki, 2024-cü il seçkilərindən sonra Avropa Parlamenti Cənubi Qafqaz ölkələri ilə əlaqələr üzrə nümayəndə heyətinin sədrini və onun iki müavinini seçib. Sədr postuna Latviyadan olan deputat Nil Uşakov layiq görülüb. Müavinlər isə Fransadan olan deputat, məşhur azərbaycanofob Natali Luazo və polşalı deputat Mixal Şterbadır. Azərbaycana qarşı daim qərəzli mövqedən çıxış edən madam Luazo bu təyinata qədər Ermənistanın AP-dəki güclü müdafiəçisi kimi tanınırdı. Onu da yada salaq ki, 2020-ci il 44 günlük Vətən müharibəsində, eləcə də ondan sonrakı dövrdə anti–Azərbaycan kampaniyaların fəal iştirakçısı sayılan fransalı deputat Hayastanın məğlubiyyətini, ermənilərin könüllü surətdə Qarabağı tərk etmələrini “göz yaşları” içində izləmişdi.

Avropa Parlamentinin ermənipərəst üzvləri ilə görüşündə Azərbaycana qarşı saxta ittihamlar irəli sürən Alen Simonyan Avropa təşkilatlarını “Azərbaycana daha çox təzyiq göstərməyə” səsləyib. “Beynəlxalq humanitar hüquq Qarabağda ayaqlar altına atıldı” kimi böhtan dolu avantürist bəyanat verən Simonyan “Avropa Parlamentinin Azərbaycanın hərəkətlərini pisləyən bir neçə hesabatının və beynəlxalq strukturların reaksiyasının kifayət etmədiyini” qonaqların nəzərinə çatdırıb. Yəni, rəsmi İrəvanın Simonyanın dili ilə Avropa Parlamentindən incikliyini bu formada bildirməsi, yumşaq desək, ironik gülüş doğurur.

*

Əslində, Avropa Parlamentinin davranışında bizim üçün təzə heç nə yoxdur. Bu qurumun rəhbər heyəti dəyişsə də, Cənubi Qafqaza yönəlik “ənənəvi prinsip” dəyişməyib. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Avropa İttifaqının ölkəmizə qarşı açıq-aşkar düşmən mövqeyi ilə seçilən məhz bu strukturudur. Bunun əyani misalı kimi Avroparlamentin Bakının evsahibliyi etdiyi COP29 ərəfəsində qəbul etdiyi “Azərbaycandakı vəziyyət, insan haqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər” adlı qətnaməsini göstərmək olar. Onu da yada salaq ki, həmin bədnam qətnamədə Avropa İttifaqından Bakıya hərbi potensialının güclənməsinə kömək edə biləcək istənilən xarakterli texniki və maliyyə yardımını dayandırmağa çağırış da yer alıb. Üstəlik, Aİ-yə üzv dövlətlərdən Azərbaycana bütün hərbi texnika ixracını dondurmaq tələb olunurdu.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu**



mövzu ilə bağlı XQ-yə açıqlamasında avropalı deputatların Ermənistana səfərini belə şərh etdi: “Onlar Ermənistan hökumətinə və cəmiyyətinə xoş gəlməkdən ötrü vaxraşırı Qarabağla bağlı Azərbaycan əleyhinə açıqlamalar verirlər. Avroparlamentarilərin bu mənasız və məntiqsiz bəyanatları yalnız özlərinin ziyanına işləyir. Çünki ortada böyük layihələr var və Avropa İttifaqı Azərbaycanla əməkdaşlıqda maraqlı tərəf olmalıdır. Amma Avropa Parlamentinin bəzi deputatlaı Ermənistana səfər edirlər və bu zaman anti-Azərbaycan açıqlamaları ilə, guya, İrəvanı Aİ-yə cəlb etməyə, Rusiyadan daha çox ayırmağa nail olacaqlar. Bu, onların daxili problemidir. Onsuz da Avropa Parlamenti məhz Azərbaycan əleyhinə qəbul etdiyi qətnamələri ilə yadda qalıb. Amma Brüsselin özü, Avropanın əksər icra strukturları, əslində, Azərbaycanla yaxın əməkdaşlıqda maraqlıdırlar. Bu mənada Avroparlamentin gərəksiz açıqlamalarına reaksiya verməyin yeri yoxdur. Ən azı, ona görə ki, bunlar vəziyyəti dəyişə biləcək açıqlamalar deyil.

Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini tam təmin edib və Avropanın bütün dövlətləri bunu tanıyıblar. Humanitar hüququn pozulmasına gəldikdə isə Azərbaycanın mövqeyi birmənalıdır. Rəsmi Bakı Qarabağ ermənilərinin Azərbaycan qanunları ilə yaşamağı qəbul edəcəkləri təqdirdə geri qayıda biləcəklərini bildirib. Amma, aydın məsələdir ki, bunu etməyənlər burada yaşaya bilməzlər. Heç Avropanın özündə də buna imkan verməzlər. Əgər kimsə gəlib desə ki, mən Fransanın qanunlarını qəbul etmirəm, amma burada yaşamaq istəyirəm, onu ölkəyə buraxarlarmı? Azərbaycan beynəlxalq hüquqa uyğun olaraq, ərazisində yaşayan vətəndaşlardan qanunlarına hörmətlə yanaşmağı tələb edir. Buna əməl etmək istəməyən ermənilər də Qarabağda yaşaya bilməzlər”.

*

İrəvanda “səmimi dostluq şəraitində” keçən görüşdə AP-nin nümayəndə heyətinin başçısı Nil Uşakov Ermənistan silahlı qüvvələrinə Avropa Sülh Fondu tərəfindən göstərilən yardımı alqışladığını bildirib. O, bununla da kifayətlənməyib, həmçinin Ermənistana qarşı istənilən hərbi təcavüzü, gücdən istifadəni və ya hibrid təhdidləri pislədiyini açıqlayıb. N.Uşakov Azərbaycanı “ermənilərin Qarabağa maneəsiz və sürətlə qayıtmasını təmin etməyə” çağırıb.

“Avropa institutlarından Azərbaycana qarşı ən qərəzli mövqe nümayiş etdirən Avropa Parlamentidir”. Bunu qəzetimizə açıqlamasında **Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, politoloq Fərhad Məmmədov** bildirdi. O, hesab edir ki, İrəvandakı məlum toplantı Ermənistanın Avropaya inteqrasiyasına dəstək məqsədini güdürdü: “İrəvan görüşündə iştirak edən həm Ermənistan parlamentinin spikeri, həm də xarici işlər nazirinin müavini, əslində, ölkələrinin Avropa ilə münasibətlərindən kənara çıxaraq, Azərbaycana qarşı



bəyanatlar səsləndiriblər. Onlar Bakıda məhkəməsi davam edən keçmiş “dqr”in separatçı liderlərinin azadlığa buraxılması ilə bağlı fikirlər bildiriblər. Ümumiyyətlə, rəsmi İrəvan Avropa Parlamentini bu məsələdə daha fəal olmağa çağırıb. Bu onu göstərir ki, Ermənistan hakimiyyəti Avropanın bu institutunu Azərbaycana qarşı istifadə etməyə çalışır. Əgər onlar avrointeqrasiya ilə məşğul olmaq istəyirlərsə bu məsələni ikitərəfli qaydada həyata keçirə bilərlər. Amma bu prosesin özünü Azərbaycana qarşı təzyiq mexanizmi kim istifadə etmək yolverilməzdir. Bu fakt Ermənistanın Azərbaycanla münasibətlərin normallaşdırılması prosesinə, sülhün əldə olunmasına o qədər də səmimi yanaşmadığının göstəricisidir”.

Erməni lobbisinin yemlədiyi avroparlamentarilərindən soruşmaq lazımdır ki, onlar nə üçün otuz illik erməni işğalı zamanı azərbaycanlıların qovulduqları Qarabağa və deportasiya edildikləri Ermənistandakı yurdlarına qaytarılmasının zəruriliyi ilə bağlı bir dəfə də olsun bəyanat səsləndirməyiblər. Ölkəmizə qarşı ikili standartlara söykənən bu cür qərəzli münasibət təkcə Avropa Parlamentində deyil, AŞPA, AİHM və digər strukturlarda beynəlxalq hüquqa, insan haqlarına barmaqarası yanaşmanın təzahürüdür.

*

Nil Uşakov “Avropa Parlamenti Ermənistanla əlaqələri daha da dərinləşdirməyi öhdəsinə götürüb” deyəndə bu qurum üçün gələcəkdə də hayların maraqlarının prioritet olaraq qalacağını təsdiqləmiş oldu. “Mən bu müsbət işi davam etdirməyə hazıram. Ümidvaram ki, siz nəticələri görəcəksiniz. Avropa Parlamenti Ermənistanla əlaqələri daha da dərinləşdirmək öhdəliyi götürüb”, – deyə Uşakov İrəvanı buna əmin edib.

Amma Uşakov və yanındakılara onu xatırladaq ki, Avropa Parlamenti Azərbaycanın daxili işlərinə qarışmağa dözməyəcəyinə və heç kimdən çəkinmədən suveren hüquqlarını müdafiə etmək iqtidarında olduğuna əmin olsunlar. Ermənistanın avropalı “azarkeşləri” heç bir halda bu vacib məqamı nəzərdən qaçırmasınlar. Azərbaycana qarşı böhtan dolu çıxışını davam etdirən A.Simonyan daha sonra deyib: “Azərbaycan tərəfi Ermənistanda revanşizmdən danışır, lakin ən böyük revanşizm onların indi etdikləridir. Onlar Ermənistana nə isə sırımağa çalışırlar. İctimai rəyə bu gün erməni xalqında olmayan revanşizmi aşılayırlar”.

Bəlkə Simonyan bu sözləri deyərkən Marseldə, Kaliforniyada, rəhbərlik etdiyi parlamentdə, İrəvanın küçələrində daşnak-revanşistlərin yeni müharibəyə çağırışlarından xəbərsiz olduğunu bildirmək istəyib?

Ritorik olmayan sualı verək: Qarabağda beynəlxalq humanitar hüququ kim pozub? Azərbaycan, yoxsa Ermənistan? Populizmin, demaqogiyanın da bir həddi var. 30 illik işğal dönəmində hayların öz torpaqlarımızda biz azərbaycanlılara qarşı hansı vəhşilikləri törətdiyini simonyanlara, uşakovlara xatırlatmağa ehtiyacmı var? Belə çıxır ki, haypərəst “kollektiv Qərb” üçün əsas dəyər heç də xalqların sülh və əmin-amanlıq şəraitində yaşaması deyil. Avropa Parlamenti rəsmilərinin İrəvana son səfəri bunu bir daha təsdiqlədi.

***İmran BƏDİRXANLI***
***XQ***

# VURNUXMA

## *Ermənistan hara gedəcəyini, nə edəcəyini anlamayan ölkədir*

**Yenə başlayıblar üzlərinə məzlum, əzabkeş maskasını taxıb hamıdan və hər kəsdən şikayətlənməyə. Hayların əsrlərlə formalaşmış və “daşlaşmış” bu vərdişlərini nə vaxtsa tərgidəcəklərinə ümid bəsləmək yersizdir. Son vaxtlar rəsmi İrəvan şikayətnamələrini “paket” şəklində, demək olar ki, müxtəlif müstəvilərdə və bütün məqamlar üzrə dünyaya faş etmək qərarına gəlib. İndi bu missiya Ermənistan xarici işlər nazirinin müavini Paruyr Hovannisyana həvalə edilib. Onun fikrincə, “Bakı İrəvanın sülh müqaviləsi ilə bağlı təkliflərinə cavab verməyə tələsmir, eyni zamanda, ermənilərin “Dünyanın kəsişməsi” layihəsinə də, nədənsə, soyuq yanaşır”.**

Rəsmi İrəvanın reallığı və faktları təhrif edən açıqlamasından aydın olur ki, Paşinyan komandası sülh danışıqları prosesində vasitəçi kimi hələ də Avropa İttifaqına arxalanır. Üstəlik, “kollektiv Qərb”in bu prosesdə iştirak etmədiyi üçün dərin təəssüf hissi keçirir.

Türkiyə ilə danışıqlara gəlincə isə İrəvan bu müstəvidə də “kədərlidir”. “Xarici işlər nazirləri, prezidentlər və baş nazirlər səviyyəsində Ankara ilə siyasi dialoq aparılır, amma razılaşmalar hələ də həyata keçirilməyib”. Bunu acı təəssüf ilə bildirən Hovannisyan hesab edir ki, Azərbaycanın şərti sərhədin Ermənistan tərəfində Aİ-nin casus missiyasının fəaliyyətinə mənfi münasibət bəsləməsinə baxmayaraq, onun yerləşdirilməsi bölgədə “eskalasiya ehtimalını azaldır”.



Aşkar riyakarlığın hiss olunduğu bu tip bəyanatlarla Ermənistanın nəyə nail olmağa çalışdığı bizə məlumdur. İrəvanın indi miskin və çarəsiz şəkildə danışıqlar prosesinin ləngiməsində qarşı tərəfin günahkar olduğunu sübut etməyə çalışması da təzə tezis deyil. Bu, sadəcə, hayların danışıqlar prosesini, ümumiyyətlə, inkişaf etdirmək niyyətində olmadıqlarının əlamətidir.

*

Beləliklə, hansı tərəfdən baxmağımızdan asılı olmayaraq, görünən odur ki, Ermənistan özünü geosiyasi dalana dirəyib. Onun ifrat “siyasi utancaqlığı” dünənki müttəfiqləri ilə də münasibətlərinin buzlaşmasına gətirib çıxarıb. Belə bir vəziyyətdə Paşinyan hakimiyyətinin arxalana biləcəyi qərbli “dostları” da vədlərinə xilaf çıxırlar. Avropalı “səlibçi” haypərəstlərin başı hazırda daxili problemlərinin həllinə qarışdığından İrəvana vaxt ayırmadıqları aydın görünməkdədir. Onlar nəinki Cənubi Qafqazda, heç qulaqlarının dibindəki Ukraynada “sülhməramlı missiya”larını düz-əməlli yerinə yetirməkdən məhrum olublar. Eyni vaxtda Rusiya, Çin və ABŞ ilə qarşıdurma vəziyyətinə salınmış Avropa “gücləri” üçün Nikol Paşinyanın onlara bəslədiyi ümidlər sadəlövh uşağın ucuz kanfetlə aldadılmasını xatırladır. Bundan əlavə, hazırda Aİ-nin Cənubi Qafqazdakı fəaliyyəti sönmək üzrədir. Axı, nə Ermənistan, nə Azərbaycan, nə də Gürcüstan Aİ-nin üzvüdür. “Qoca qitə”nin bu qurumunda onların real səlahiyyətləri də yoxdur. Digər vacib amil Aİ-nin regional proseslərə müdaxilə cəhdləri, ən azı, Rusiya və İran kimi “oyunçular” arasında ehtiyatlı davranmağa vadar edir. Əks-təqdirdə, nəticə təkcə onlar üçün deyil, Ermənistanın özü üçün də acınacaqlı ola bilər.

**Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** mövzu ilə bağlı



XQ-yə açıqlamasında bildirdi ki, Ermənistan xarici işlər nazirinin müavininin bəzi reallıqlardan xəbəri yoxdur: “Ya da, o, bu reallıqları görməzliyə qoyur. O, yəqin müharibə qurtarandan dərhal sonra ilk sülh təklifinin Bakıdan səsləndiyini yadından çıxarıb. Azərbaycan bu gün də özünün sülhpərvər addımlarını atmaqdadır. Eyni zamanda, sülh sazişi ilə bağlı Bakı əsaslandırılmamış heç bir tələb irəli sürmür. Əgər hər hansı bir dövlətin əsas qanununda qonşulara qarşı ərazi iddiaları yer alırsa, qarşı tərəf buna necə reaksiya verməlidir? Yəni, Ermənistan konstitusiyasında bizə qarşı ərazi iddialarının olması faktına Azərbaycan susmalıdır? Yaxud, Qərbi azərbaycanlıların onlara hücum edəcəkləri ilə bağlı hay-küy qaldırıblar. Guya, soydaşlarımız tanklarla, təyyarələrlə basqın edəcəklər. Doğrusu, bütün bunlar uşaq söhbətlərinə bənzəyir. Dövlət rəsmilərinə yaraşmayan, diplomatik səviyyəyə qəti uyğun gəlməyən bəyanatlardır.

Hazırda iki ölkənin hökumətləri səviyyəsində delimitasiya komissiyaları işləyir. Dövlət başçıları görüşürlər, Bakının sülh sazişinə bir sıra təklifləri qəbul olunub. Çünki onlar özündə reallığı əks etdirən təkliflərdir. Sadəcə olaraq, Ermənistan qoyulan problemləri həll etdikdən sonra Azərbaycan sülh müqaviləsini imzalamağa hazır olacaq. Hayların nazir müavini onu da unutmasın ki, onlar Azərbaycan torpaqlarını 30 il işğal altında saxlayıblar. Yəni, indi bizim onlara inanmağımız üçün əlimizdə heç bir əsas yoxdur. Azərbaycanın üzləşdiyi vəziyyət, təbii ki, indi qonşusu ilə onu daha ehtiyatlı davranmağa vadar edir”.

*

İrəvanın sağa-sola, Qərbə–Şərq arasında vurnuxmaya çevrilmiş “siyasi səyahətləri”nin nə qədər vaxt aparacağı hələlik bəlli deyil. 2018-ci ildə hakimiyyətə gəldikdən sonra Nikol Paşinyan müxtəlif geosiyasi istiqamətlər arasında siyasi manevr etməyə çalışsa da, indi onun hərəkətlərinin arxasında Qərb qlobalistlərinin maraqlarının dayandığı məlumdur. Artıq ABŞ-da məğlubiyyətə uğrayan bu qüvvələr hələ də sabitliyi pozmaq üçün Cənubi Qafqazdan “katalizator kartı” kimi istifadə etməyə çalışırlar. Nəticədə Paşinyanın “qurbanlıq keçi”yə çevrilmək ehtimalı reallaşa bilər. Hayların baş naziri münaqişə ilə heç bir əlaqəsi olmayan kənar oyunçuları ikitərəfli dialoqa cəlb etməklə məsələni sülhlə yoluna qoymaq arzusunda olmadığını nümayiş etdirir. Əslində, bu, prosesi gecikdirmək və istənilən real sülh təşəbbüslərini pozmaq üçün klassik hay taktikasıdır. Bu prizmadan baxanda “nə sülh, nə də müharibə” prinsipi ilə hərəkət edən Paşinyanı əks-inqilabçı Trotskiyə bənzədə bilərik. O, hesab edir ki, Ermənistandakı Avropa missiyasının mandatının uzadılması İrəvanın siyasi asılılığının daha bir sübutudur. Maraqlıdır ki, İrəvan BMT-yə və ya digər bitərəf təşkilatlara üz tutmaq əvəzinə, öz ərazilərinin ixtiyarını “dosyesi mübahisəli qüvvə”yə – Rusiya və İranla qarşıdurmada olan Aİ-yə verib. Bu, əlbəttə ki, Ermənistana qonşuların – Azərbaycanın, Türkiyənin, İranın, Rusiyanın və hətta Gürcüstanın etimad səviyyəsini azaldır.

Beləliklə, Paşinyanın ikiüzlü siyasəti sülh razılaşmasına deyil, münaqişənin uzanmasına gətirib çıxara bilər. Aİ missiyasının Ermənistanda qalması isə dağıdıcı nəticələrdən başqa heç nə vəd etmir. Əsas mesaj ondan ibarətdir ki, Ermənistan, guya, İkinci Qarabağ müharibəsi şəraitinin qurbanı olub. Bəli, bu, faktdır və İrəvan indi Bakının tələblərinə əməl etməyə məcburdur. Bu zaman beynəlxalq hüquqdan dəm vuran hayların nazir müavini BMT Təhlükəsizlik Şurasının 32 il bundan əvvəlki, Ermənistanın silahlı qüvvələrinin Qarabağdan çıxarılmasını tələb edən dörd qətnaməsinə məhəl qoymadan Azərbaycan ərazilərini işğal etməsi faktını da qulağında sırğa etməlidir.

Erməni nazir müavininin çıxışının digər mühüm məqamı “Dünyanın kəsişməsi” təşəbbüsünü xatırlatması oldu. Kənardan adı cəlbedici görünsə də, əslində, Paşinyanın ortaya atdığı bu avantürist ideya Zəngəzur dəhlizi ilə bağlı artıq əldə edilmiş real razılaşmaları dondurmağa yönəlib. Bundan əlavə, Türkiyənin Ermənistanla münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyini ortaya qoyduğunu nəzərə almaq lazımdır. İlk addım Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi olmalıdır, çünki bunsuz ölkələr arasında tam ticari-iqtisadi əməkdaşlıq və etimad mümkün deyil.

*

Kənar müşahidəçidə belə şübhə doğuran, erməni nazirin qeyd etdiyi, Azərbaycanla sərhəddə “Aİ missiyasının məqsədəuyğunluğu” məsələsidir. Əgər Azərbaycan təcavüzkar ölkə olsaydı, İrəvanın bu mövqeyi məntiqi sayılardı. Amma hamı Bakının belə bir niyyətinin olmadığını bilir. Azərbaycan Ermənistanın işğalı altında olan əraziləri üzərində nəzarəti və konstitusiya quruluşunu bərpa edib.

Odur ki, Ermənistan xarici işlər naziri müavininin çıxışının təhlilini ümumiləşdirərək, nəticədə danışıqlar prosesinin təxirə salınması istiqamətində iş aparıldığını deməyə əsas verir. Bu, Bakı üçün heç də təəccüblü sayılmamalıdır. Çünki zatlarına çoxdan bələd olduğumuz hayların hansı durumda necə hərəkət edəcəklərini artıq əvvəlcədən proqnozlaşdırmaq bizə çətin deyil...

***İ.HƏSƏNQALA***
***XQ***

# Real ermənidən "Real Ermənistan"a keçid

(əvvəli 1-ci səhifədə)

Ancaq nəzərə alaq və reallıq da budur ki, Rusiya dünyanın nəhəng güclərindəndir və ölkə öz sərhədlərinə yaxın hansısa digər gücün və ya qruplaşmanın olmasını istəməz. Onu da nəzərə alaq ki, Qərbin, loru dildə desək, Rusiyanın həndəvərinə yaxın düşməməklə bağlı öhdəliyi də olub. Lakin öhdəliyə əməl edilməyib və hazırda davam edən Rusiya – Ukrayna müharibəsi bunun nəticəsidir. Mövcud durumda Ukraynanın ərazi bütövlüyü və suverenliyi tezisi, ölkənin müstəqil siyasət yürüdərək, istədiyi kursu götürməsinə dair məsələ, istər-istəməz, təfərrüat kimi meydana çıxır. Axı daha böyük və incə mətləblər də var.

Məqsədimiz Rusiyaya haqq qazandırmaq deyil. Moskvanın da böyük səhvləri var və şübhəsiz, indi yaşananların bir çoxu bunun cəzasıdır. Digər tərəfdən, Azərbaycan Ukraynanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Ancaq V.Putin əvvəldə diqqətə çatdırdığımız fikrini məhz həmin böyük mətləblərin olması səbəbindən dilə gətirmişdi. Daha doğrusu, onun fikri Rusiyaya əks çıxan ictimai-siyasi ab-havanın önünə daha böyük həqiqəti çıxarmaq əzmindən qaynaqlanmışdı. Bu mənada Kreml rəhbəri haqlıdır. Axı böyük dövlətlərin haqq məsələsinə baxışı fərqlidir. Kiçiklər yalnız öz haqlarını qoruyaraq, hansısa kənar meyillərin təsirinə düşməyərək böyüklərin qarşısında duruş gətirirlər. Rasional yanaşma və praqmatizm elə budur.

Hazırda belə təsəvvür var ki, Ukraynadakı Volodimir Zelenski iqtidarı praqmatik və rasional yanaşmanı nümayiş etdirməyi bacarmadı. Bəlkə, buna "bacarmamaq" demək düzgün deyil. Hər halda, Ukraynanın fəlakətin astanasında dayandığını söyləmək mümkündür. Hətta, bəzi ehtimallar ölkənin parçalanma təhlükəsinin mövcudluğuna da söykənir. Bəs belə bir durum yaranmaya bilməzdimi? Fikrimizcə, hər şey başqa cür də ola bilərdi və elə başa düşülməməlidir ki, Rusiyanın dediyi ilə oturub-durmaq şərtdir. Belə bir şərt yoxdur və ola bilməz. Sadəcə, milli maraq və mənafelər amilinə fərqli, konkret desək, sərfəli pəncərədən baxılmasına ehtiyac duyulurdu. Deməli, hazırda Ukraynada yaşanan proseslərə Zelenski iqtidarının bacarıqsızlığının nəticəsi və səhvi prizmasından münasibət bildirmək olar. Soyuq reallıqlar şəraitində hər səhv və bacarıqsız davranma itki deməkdir. İtkidən qaçmaq isə demək olar, mümkünsüzdür.

**

Yazımızın ikinci hissəsinə keçərkən, ilk növbədə bildirək ki, Ermənistanı da ikinci Ukrayna kimi qələmə verən baxışlar çox və aktualdır. 2018-ci ildə Ermənistanda inqilab oldu və Qərbpərəst Nikol Paşinyan hakimiyyətə gəldi. Onun iqtidara yiyələnməsi xalqın Rusiyameyilli Qarabağ klanına nifrətinin nəticəsi idi. Yəni, proseslə katalizator rolunu məhz bu amil oynadı. Bəs Paşinyan baş nazir postunu tutduqdan sonra nə etdi? Nikolun və komanda üzvlərinin Azərbaycanı müharibəyə təhrik edən açıqlamalarının detallarından söz açmağa ehtiyac yoxdur. Ancaq bir məqam var ki, onu vurğulayacağıq.

Bəli, Ermənistanın baş naziri N.Paşinyan ötən həftə "Real Ermənistan" ideyasını, öz aləmində, sistemli şəkildə cəmiyyətə təqdim etmişdi. Nikol bu günlərdə yenə həmin ideyadan söz açıb. Daha doğrusu, özünün sosial şəbəkə hesabında paylaşım edərək sadə erməniləri "Real Ermənistan" barədə müzakirə aparmağa dəvət edib. O bildirib ki, insanlar 20-30 nəfərlik qruplar şəklində ölkənin Nazirlər Kabinetinə müraciət edə və müzakirə üçün icazə ala bilərlər. Əgər qrupların sayı 70 nəfərdən çox olsa, onlarla müzakirəyə şəxsən özü qatılacaq.

Qeyd edək ki, yarı fəlsəfi, yarı romantik, yarı xəyalpərəst motivli "Real Ermənistan" ideyasının nüvəsini Sovet Ermənistanı təşkil edir. Yəni, N.Paşinyan erməni xalqını məhz Sovet Ermənistanı ilə kifayətlənməyə çağırır. Daha doğrusu, insanları bununla yetinməyə inandırmaq niyyəti güdür. Elə isə görək, Paşinyan iqtidarı həmin "Real Ermənistan" üçün nə isə etmişdimi, yaxud indi bu istiqamətdə hansısa tədbirlər görür?

Sualın bilavasitə birinci hissəsinə cavab tapmaq üçün yuxarıda anonsunu verdiyimiz mühüm məqamın üzərinə gələk. Yada salaq ki, Paşinyan hakimiyyətə gəldikdən sonra Azərbaycandan iqtidar kürsüsündə möhkəmlənmək üçün vaxt istəmişdi. O, möhkəmlənərək Qarabağla bağlı konstruktiv danışıqlara başlayacağına dair görüntü formalaşdırmışdı. Nikol kreslosunda yaxşı oturmağına oturdu, amma tamamilə qeyri-konstruktiv mövqe tutdu ki, bunun savaş reallığı formalaşdırdığını bildirdik. Paşinyan və komandasının üzvləri, eyni zamanda, "yeni ərazilər naminə yeni müharibələr" şüarını da irəli sürdülər. Yəni ki, Azərbaycanın digər bölgələrini də işğal etməklə hədələdilər. Bu idimi "Real Ermənistan"a xidmət?

Paşinyan deyə bilməz ki, "Real Ermənistan" ideyası onun ağlına indi gəlib. Hər halda, dövlət idarəçiliyi uşaq oyunu deyil. Onu da nəzərə alaq ki, Nikolu hakimiyyətə gətirən, xalq kütlələri içərisində nüfuzlu edən, faktiki olaraq, "Real Ermənistan" ideyasının özü olmuşdu. Bunu niyə düşünmədi? Axı baş nazir irəli sürdüyü ideyaya qarşı ən böyük təhlükə sayılan Qarabağ avantürasından daşınmanın vacibliyini əvvəldən dilə gətirmişdi. O demişdi ki, Qarabağ Ermənstanın çiyinlərindəki ağır yükdür və bu yükün atılması lazımdır. Suallar yaranır: Yükün atılması üçün minlərlə insan həyatını itirməli idi? Olmazdımı ki, onlar "Real Ermənistan" yolunda quruculuğu düşünə, Nikolun "Qarabağ Ermənistandır və nöqtə" sərsəmləməsindən vəcdə gəlib silaha sarılmayaydılar? Ən önəmlisi, Sovetlər Birliyinin dağılmasından sonrakı



Ermənistanın, əslində, hədiyyə olduğunu anlamaq beləmi çətin idi?

N.Paşinyan iqtidarının təmsilçiləri deyə bilməzlər ki, vaxtilə sərsəm mövqe tutanların onlara heç bir dəxli yoxdur. Məsələ ondadır ki, birincilər də qanmaz davrandılar. Hətta daha pis erməni qiyafəsində özlərini təsdiqləməyə girişdilər, Azərbaycana qarşı demarş xətti tutdular. Sipərləri demokratiya oldu. Hansı demokratiya başqasının torpağını zəbt etməyi, yüz minlərlə insanı adi yaşam hüquqlarından məhrum duruma salmağı təlqin edir? Belə bir demokratiya yoxdur!

Bəli, 44 günlük müharibə Ermənistan üçün acınacaqlı sonluqla bitdi. Ancaq Paşinyan və komandası nəticə çıxarmadı. Çalışdı ki, Qarabağ avantürası saxlanılsın, bölgədəki separatçı rejim qorunsun. Bəlkə bu idi "Real Ermənistan" uğrunda mübarizə?!

Separatçı rejim də tarixin arxivinə gömüldü, amma Paşinyan və tərəfdarları yenə dərs götürmədilər. Onlar xaricdəki havadarlarına arxalanaraq, Azərbaycana qarşı avantürist niyyətlərini davam etdirdilər. Çalışdılar ki, həmin havadarlarının Cənubi Qafqaz müstəvisində oynadıqları qlobal oyunların iştirakçısına çevrilməklə siyasi, mənəvi və hərbi dividend götürsünlər. İstəklərinə çata bilmədilər. İndi də səmimi deyillər, yenə ölkəmizə qarşı oyun quruculuğundadırlar. Obrazlı desək, illüziya bataqlığında Ermənistana məxsus gəmi üzdürməyə cəhd göstərirlər. Axı yoxdur belə bir dünya! O zaman "Real Ermənistan" varmı? Əlbəttə ki, ola bilməz!

*

Əvvəldə Rusiya lideri V.Putinin fikirlərini elə-belədən diqqətə çatdırmadıq. Kreml rəhbəri söylədikləri ilə bir növ, səhvləri və bacarıqsızlığı başa vurur, Ukraynaya minnət qoyurdu. Bu gün heç kəs Krımın tarixən kimə məxsusluğu üzərinə gəlib onun qədim türk torpağı olduğunu söyləmir. Ancaq Krımın keçmiş SSRİ liderі Nikita Xruşşov tərəfindən Ukraynaya hədiyyə edildiyini bildirənlər var və bu fikir heç şübhəsiz, Kremlin kluarlarının məhsuludur. Özü də söhbət təkcə Krımdan getmir, başqa ərazilər də var. Əslində, Putinin dediklərində də bu məqam duyulur. O sual edir ki, SSRİ-yə qoşulma, SSRİ-də təmsilçilik müqabilində qazanılmış ərazilər həmin ittifaqdan çıxdıqdan sonra niyə sahibinə qaytarılmamalı idi?

Nəzərə alaq ki, NATO Şərqə doğru genişlənmək istəməsəydi, Ukrayna da bu planda yer almağa razılıq verməsəydi, Putinin dilindən belə bir kəlmə çıxmayacaqdı. Erməni millətçiləri də 1988-ci ildə "Miatsum" avantürası ilə Qarabağı Ermənistana birləşdirməyə cəhd göstərməsəydilər, 1991-ci ildə yaranmış müstəqil Ermənistan Azərbaycan torpaqlarını işğala məruz qoymasaydı, Azərbaycan və erməni xalqı dinc birgə yaşayış sürsəydilər, bu gün Qərbi Azərbaycan və Zəngəzur həqiqətləri açıqlanmayacaqdı. Axı insanlara nə lazımdır? Rifah şəraitində yaşamaq. Xeyr, bu yaşam heç də kosmopolit düşüncədən və tarixi unutmaqdan qaynaqlanmır. Nəzərə alaq ki, tarixdə böyük proseslər yaşanıb, dövlətlər bir-birini əvəzləyiblər. Hanı dünyanın böyük bir hissəsinə nəzarət edən Osmanlı dövləti? Hanı Avstriya-Macarıstan imperiyası? Hanı Roma? Hanı Bizans? Hanı bir ucu İraqa qədər gedib çıxan Səfəvilər dövləti?

Sözümüz odur ki, tarix yalnız ziddiyyətlər fonunda həmin ziddiyyətlərin haqq və ya nahaq tərəflərini müəyyənləşdirmək üçün yada düşür. Çünki tarix həm də ideologiya məzmunu daşıyır. Ermənilərin timsalında xəstə qövm özü üçün "dənizdən – dənizə böyük Ermənistan" uyduracaqsa, azərbaycanlıları Kür çayınadək qovmaqdan dəm vuracaqsa, işğalçılıq edib günahsız insanları qanlarına qəltan edəcəksə, əlbəttə, tarixi bu qövmün yadına salanlar da tapılmalıdır və tapılır. Hər cür hoqqabazlıq elə, sonra da "Real Ermənistan"dan danış! Axı belə bir dünya da yoxdur!

Yaxşı olar ki, N.Paşinyan qrup şəklində görüşmək istədiyi ermənilərə yazdıqlarımızı anlatsın. Əlbəttə, onun təklifinə reaksiya verib görüşə gələnlər tapılacaqsa. Böyük ehtimalla, belələrinin sayı çox azdır. Çünki xəstə erməni cəmiyyəti avantürizmin təsiri altındadır və prosesdə həlledici rolu yenə Paşinyan iqtidarı oynayır.

Bu gün Ermənistan rəsmiləri müxtəlif platformalarda "Azərbaycanda saxlanılan erməni məhbuslar" məsələsini qaldırıb anti-Azərbaycan təbliğatına girişirlər. Nəzərə almırlar ki, Bakıda məhkəməsi gedənlər, mahiyyətcə, "Real Ermənistan"la razılaşmayanlar, daha çoxuna iddia edənlərdir. Görəsən, erməni iqtidarı onların müdafiəsinə qalxmaqla cəmiyyətə hansı mesajı vermək istəyir? Paşinyan və komandası, faktiki olaraq, başqasının ərazisinə qənim kəsilməyi həyat normasına çevirir, paralel olaraq isə özünü demokrat, plüralizmə meydan verən siyasi xadim kimi göstərməyə çalışan baş nazir erməniləri "Real Ermənistan"la bağlı diskussiya aparmağa dəvət edir. Bu, nə dərəcədə düzgün, nə dərəcədə məntiqidir? Məntiqi və düzgün deyil, çünki ortada dərin ziddiyyət var.

Sonda onu da deyək ki, "Real Ermənistan" Sovet Ermənistanı idisə və Ermənistan dövləti onun mövcudluğu ilə kifayətlənməyib qəsbkarlıq yolu tutmuşdusa, işğalı otuz ilə yaxın davam etdirmişdisə, bu gün də səmimi mövqe tutmursa, ortaya çox böyük və haqlı sual çıxır: Ermənistan nə üçün SSRİ-dən "boşanarkən" "birgə nigah" dövründə əldə etdiyi "əmlakı" geri qaytarmamalıdır? Axı "əmlakın" həqiqi sahibi var. Paşinyan xalqının və beynəlxalq aləmin başını "Real Ermənistan"la qatmağında olsun. Onsuz da həm öz səhvinin, həm də özündən əvvəlkilərin səhvlərinin cəzasını çəkmək məcburiyyətində qalacaq. Boş yerə vurnuxmasın. Güman edirik, əlavə şərhə ehtiyac yoxdur.

*Əvəz CAHANGİROĞLU*
*XQ*

# Rəsmi İrəvan sülh gündəmini "məhbuslar məsələsi"nə dəyişir

(əvvəli 1-ci səhifədə)

Beləliklə, sənəddə bildirilib ki, nazirlik beynəlxalq ictimaiyyətin, xüsusən regionda sülhün qərarlaşmasında maraqlı olan və humanitar dəyərlərə önəm verən tərəfdaşların diqqətini Azərbaycanda saxlanılan hərbi əsirlərin, girovların və digər erməni əsilli şəxslərin azad edilməsi məsələsinə, habelə onların bəzilərinə qarşı, guya, kobud prosessual pozuntulara, açıq-aşkar işgəncə əlamətləri ilə keçirilən mərhələli məhkəmə proseslərinə çəkməkdə davam edir. Çünki "23 erməni hərbi əsir, girov və digər məhbusların məhkəmələrinin videoyazılarını, fotoşəkillərini özündə əks etdirən nəşrlər, o cümlədən yuxarıda adları çəkilən şəxslərin, aclıq aksiyası keçirən Ruben Vardanyanın vəkillərinin məhbuslara işgəncələr verilməsi və onların saxlanmalarının səhhətlərinə təsiri barədə ictimaiyyətə açıqladığı məlumatlar dərin narahatlıq doğurur".

Ermənistan XİN-in bəyanatında, eyni zamanda, bildirilib ki, rəsmi İrəvan hərbi əsirlərə, girovlara və erməni əsilli digər məhbuslara qarşı qadağan olunmuş tədbirlərin tətbiqi barədə məlumatlar almaqda davam edir. "Öz üzərinə götürdüyü təminatlara və beynəlxalq öhdəliklərə baxmayaraq, hərbi əsirlər, girovlar və erməni əsilli digər məhbuslar Azərbaycanda qanunsuz saxlanılır. Onların həbsi və mühakiməsi beynəlxalq humanitar hüququn və fundamental insan haqlarının kobud şəkildə pozulmasıdır" fikirlərinin yer aldığı bəyanatda aşkar duyulan bir həyasızlıq da var.

Heç şübhəsiz, diqqətli oxucularımız ayının min oyununun bir armudun başında olduğu qənaətinə gəldilər. Dəfələrlə bildirmişik ki, Qarabağ ermənilərinin taleyi baş nazir Nikol Paşinyan iqtidarını qətiyyən narahat etmir. Onların taleyinə biganəlik varsa, Qarabağdakı sabiq separatçı rejimin təmsilçilərinə münasibətdə canıyananlıq mümkündürmü? Əsla yox! Bəlkə Nikolun komandasında R.Vardanyanın halına acıyan var? Qətiyyən ola bilməz! Çünki Ru-



ben İrəvanda dövlət çevrilişi reallaşdırmaq eşqinə düşmüş, Paşinyan haqqında aşağılayıcı fikirlər səsləndirmişdi.

Digər tərəfdən, düşünək görək, "Azərbaycanda saxlanılan erməni məhbuslar" məsələsi nə üçün məhz indi isterik hal alıb? Axı mövzu çoxdandır gündəmdədir. Üstəlik, Bakı həbsxanalarında olan ermənilər dünən, ya srağagün ələ keçməyiblər. Nəyə görə rəsmi İrəvan indiyədək onlarla əlaqədar canfəşanlıq etmirdi? Suala sadə cavab var. Baxın, Ermənistan XİN çox açıq formada bildirir ki, Azərbaycan məsələni Ermənistana qarşı təzyiq vasitəsi kimi nəzərdə tutur və erməni cəmiyyətini manipulyasiya etmək istəyir. Elə bu ifadə də hər şeyi deyir. Gəlişigözəl cümlələr məhz qeyd etdiyimiz məqamı vurğulamaq üçündür.

El dili ilə desək, Ermənistanın quyruğu qapı arasında qalıb. ABŞ-da Donald Trampın hakimiyyətə gəlişindən sonra Amerika – Avropa münasibətlərinin pisləşməsi rəsmi İrəvanın "kürkünə birə salıb". Rəsmi Vaşinqtonun da ayrıca "erməni məsələsi" naminə qol çırmayacağı xeyli şübhəlidir. Çox güman ki, ölkənin "Köhnə qitə"dəki havadarları Paşinyan iqtidarına öz başına çarə qılmağı məsləhət görüblər. Ənənəvi ermənisayağı çarə isə qara-qışqırıq salmaqdır. Axı Nikol və tərəfdarları hakimiyyətlərini itirməkdən qorxurlar. Onlar hesab edirlər ki, revanşist və şovinistlərin Bakıda məhkəmələri davam edən ermənilərlə əlaqədar apardıqları və gücləndirdikləri təbliğatın qarşısında duruş gətirə bilməyəcəklər. "Azərbaycan məhkəmə ilə erməni cəmiyyətinə təsir göstərmək istəyir" məntiqinin arxasında dayanan məhz budur.

Başqa bir məqama nəzər salaq. Ermənistanın sülhdən yayındığı danılmaz faktdır. Rəsmi İrəvan bunun üçün "arsenalında" olan bütün həyasızlıq metodlarını istifadə edib və yenilərini tapmaqda çətinlik çəkir. Vurğuladıq ki, beynəlxalq vəziyyət onun xeyrinə deyil. Sülh məsələsinə gəlincə, hər ötən gün bıçağı sümüyə dirəyir. Paşinyan iqtidarı isə özünə sərfəli heç bir situasiyanın yaranmadığını gördüyündən, qara-qışqırığa keçir ki, bəlkə xaricdə kimlərsə Ermənistana diqqət yetirdilər.

Əlbəttə, Paşinyan iqtidarının qaldırdığı "tozanaq" son dərəcə aciz gedişdir. Hələ bu acizliyin məhkəmə proseslərinin, guya, Azərbaycan mediasında ermənilərə qarşı etnik ədavətin davam edən təbliğatı kontekstində getməsinə dair daha bir uydurulmuş motivi var. Birincisi, Azərbaycanda otuz mindən çox erməni yaşayır. Görəsən, hazırda Ermənistanda azərbaycanlı varmı? Sual ritorikdir. İkincisi, ümumən, ölkəmizin kütləvi informasiya vasitələrində düşmənçilik təbliğatı aparılmır. Yəni, sadə ermənilərə qarşı qəzəb aşılanmır, əksinə, bildirilir ki, onlar erməni avantürizminin təsirinə yoluxublar. Belə xəstəlik daşıyıcılarına isə nifrət bəsləmək yox, onların hallarına acımaq lazımdır.

Bəli, azərbaycanlılar erməni xalqının halına acıyır. Ona görə ki, bu xalqa otuz ilə yaxın müddətdə xunta rejimi rəhbərlik etdi. Xalq inqilab gerçəkləşdirib demokrat libası geyinmiş Paşinyanı hakimiyyətə gətirdi. Nikol isə ümidləri puça çıxardı. Birincisi, təhrikedici bəyanatlarla Azərbaycanla danışıqlardan uzaqlaşaraq müharibə səbəbkarına çevrildi. Nəticədə minlərlə erməni gənci özgə torpağında həyatını itirdi. Görəsən, XXI əsrin dünyasında elə bir xalq varmı ki, özünün övladlarını başqasının ərazisində qurban versin? Belə xalqın halına necə acımayasan?

Bildirdiyimiz kimi, Ermənistan sülhdən yayınmaq üçün vasitələr axtarışındadır və "Azərbaycanda saxlanılan erməni məhbuslar" məsələsinin bu baxımdan cəlbediciliyi ölkə XİN-nin yaydığı bəyanatda açıq ifadəsini də tapır. Diqqət yetirək, sənəddə bildirilir ki, hər hansı münaqişənin hərtərəfli həlli xalqların sülhə hazırlanmasını nəzərdə tutur, aradan qaldırılmamış humanitar məsələlərin əlavə və süni şəkildə gecikdirilməsi sülhə xidmət etmir, barış ehtimalını azaldır və bu, Azərbaycanla müxtəlif beynəlxalq platformalarda aparılan müzakirələrdə dəfələrlə vurğulanıb. "Biz gözləyirik ki, Azərbaycan hakimiyyətinin təsəvvüründə, bu, həm də düşmənçiliyin davamlı alovlanmasından və qısamüddətli hesablamalardan üstün olacaq" kimi fikirlərin yer aldığı bəyanatda rəsmi İrəvanın "Azərbaycanda saxlanılan erməni məhbuslar" məsələsi ilə bağlı laqeyd qalmayacağı, həll yolları və müsbət irəliləyişlər gözləyəcəyi, habelə "problemi" müxtəlif səviyyələrdə və formatlarda qaldırmağa davam edəcəyi açıqlanıb.

Sonda belə qənaətə gəlirik ki, Ermənistan dövləti Azərbaycanla sülh gündəmini "Azərbaycanda saxlanılan erməni məhbuslar" məsələsinə dəyişir. Erməni XİN-nin yaydığı bəyanat da bunu söyləməyə əsas verir. Belə bir gedişin rəsmi İrəvana heç bir fayda verməyəcəyi, ancaq ziyan vuracağı isə gün kimi aydındır. Başqa məqamları bir kənara qoyuruq, həm belə bəyanatlar, həm də ümumən vay-şivən ritorikası, ən azı, Azərbaycanla Ermənistan arasında onsuz da kövrək durumda olan etimad mühitinin formalaşmasına ciddi zərbədir.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Milli Məclisin plenar iclası






**Fevralın 28-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib.**

Sahibə Qafarova fevralın 18-dən 20-dək Bakıda keçirilən Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası və digər tədbirlər barədə danışıb, ötən dövrdə təşkilatın institusional inkişafı istiqamətində Milli Məclis tərəfindən irəli sürülmüş təşəbbüslərdən söz açıb. Sahibə Qafarova onu da deyib ki, Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasında Bakı Bəyannaməsi və müxtəlif mövzularda 29 qətnamə qəbul edilib.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Çıxışlarda müasir dünyada baş verən mürəkkəb hadisələr fonunda Azərbaycanın milli maraqlar və praqmatizm üzərində qurulmuş siyasəti ilə seçildiyi bildirilib. Vurğulanıb ki, məhz belə bir dövrdə Prezidentin müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi xalqımızın öz dövlətçiliyinə, Konstitusiyasına və müstəqilliyinə verdiyi önəmin ifadəsidir.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova gündəliyə 16 məsələnin daxil edildiyini və ilk 6 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu diqqətə çatdırıb.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi (üçüncü oxunuş) barədə danışıb. İnsan hüquqları komitəsinin sədri Zahid Oruc məsələ barədə bu komitənin rəyini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova xatırladıb ki, Konstitusiya qanunları Milli Məclisdə iki dəfə səsə qoyulur. Bu gün birinci səsvermə keçirilib, altı aydan sonra bu Konstitusiya Qanununun ikinci səsverməsi olacaq.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Aviasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən söz açıb. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Əmək və sosial siyasət komitəsinin üzvü Nigar Məmmədova "Sosial sığorta haqqında" Qanunda və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən danışıb və sənədin səsə qoyulmasını xahiş edib.

Azər Əmiraslanov sənəd haqqında rəhbərlik etdiyi komitənin müsbət rəyini açıqladıqdan sonra qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

İclasda Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova növbəti məsələnin "Məhkəmələr və hakimlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə" 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsi olduğunu nəzərə çatdırıb. O, sənədin uyğunlaşdırma xarakteri daşıdığını deyib və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılaraq qəbul ediləcəyini söyləyib. Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məsələyə dair məlumat verib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin sədri növbəti 5 məsələnin ikinci oxunuşda qanun layihələri olduğunu deyib. Sonra Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib, onun səsə qoyulmasını xahiş edib. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov İnzibati Xətalar Məcəlləsində və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib və səsə qoyulmasını xahiş edib. Arzu Nağıyev sənədlə bağlı bu komitənin rəyini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə Cinayət Məcəlləsində və "Xidməti və mülki silah haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsindən danışıb. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Azər Əmiraslanov "Mühasibat uçotu haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini təqdim edib. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Milli Məclisin sədri Sahibə Qafarova qalan 4 məsələnin birinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Azər Əmiraslanov "Nəqliyyat haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Gündəliyin on dördüncü məsələsi olan "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov məlumat verib. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Növbəti qanun layihəsi - "Feldyeger rabitəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Elşən Musayev məlumat verib. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan "Konstitusiya Məhkəməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məlumat verib. Deputatlar Qüdrət Həsənquliyevin və Rəşad Mahmudovun dəyişikliklər barədə fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

# NDU-nun Vaşinqton Universiteti ilə ikili diplom əməkdaşlığı

**Naxçıvan Dövlət Universitetində ABŞ-ın Corc Vaşinqton Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.**

NDU-nun rektoru Elbrus İsayev və Corc Vaşinqton Universitetinin təhsil və insan inkişafı fakültəsinin dekanı Maykl Foyer iki ali məktəb arasında magistratura təhsil pilləsi üzrə müzakirə aparıblar. "Səhiyyənin idarə edilməsi" və digər ixtisaslara dair ikili diplom proqramları, peşəkar inkişaf proqramları, tələbə-müəllim mübadiləsi, ortaq tədqiqatlar, kitabxana bazalarına inteqrasiya, professional təlim proqramları, ortaq seminar və konfransların təşkili və başqa prioritet əməkdaşlıq sahələrinə dair yol xəritəsi barədə ilkin razılığa gəlinib.

Universitetlər arasındakı əməkdaşlıq akademik əlaqələrin inkişafı, təhsil sahəsində mübadilə, tərəfdaşlıq imkanlarının genişləndirilməsi və gələcəkdə təhsil liderlərini hazırlamaq məqsədinə hədəflənib.



Görüşdə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan "Naxçıvan Dövlət Universiteti ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili" tədbirinin icrası məqsədilə Amerika Birləşmiş Ştatlarının Corc Vaşinqton Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında ikili diplom barədə ilkin razılıq əldə edilib, Əməkdaşlıq Memorandumu imzalanıb.

Əməkdaşlığın icrası və gələcək layihələrin reallaşdırılması məqsədilə hər iki ali təhsil müəssisəsi nəzdində icraya məsul işçi qrupların yaradılmasına qərar verilib.

***XQ***

# Ortaq dəyərlər Türk dünyasını birləşdirir

**Fevralın 28-də Milli Məclisin sədri Sahibə Qafarova Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti, xanım Aktotı Raimkulova ilə görüşüb.**



Qonağı salamlayan Sahibə Qafarova Türk Mədəniyyəti və İrsi Fondunun əhəmiyyətindən danışıb. O bildirib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış bu fond türk xalqlarının bir-birinin mədəniyyətini, irsini daha da yaxından tanımasına, qardaş xalqlarımızın yaxınlaşmasına imkan yaradır.

Səmimi görüş üçün təşəkkürünü bildirən Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti xanım Aktotı Raimkulova fondun yaradılmasının düzgün və çox uzaqgörən qərar olduğunu diqqətə çatdırıb. O, Prezident İlham Əliyevin "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır" sözlərini özləri üçün deviz seçdikllərini və fəaliyyətlərini də bu istiqamətdə qurduqlarını diqqətə çatdırıb.

# AHİK şəhid övladları üçün təlim keçirib

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası 44 günlük Vətən müharibəsinin şəhid qəhrəmanlarının övladları üçün "Texno Qəhrəmanlar" master-klası təşkil edib.**



Sonra yaş kateqoriyası üzrə bölünmüş qruplar şəklində yarışlara start verilib, iştirakçılar kiçik mühərriklər, ötürücülər və mikrokontrollerlər vasitəsilə robotlar hazırlayıblar. Uşaqlar böyük həvəslə qatıldığı yarışda alqoritm və komandada işləmək bacarıqlarını inkişaf etdiriblər.

Maraqlı və rəqabət şəraitində keçən yarışın qalibləri mükafatlandırılıb. AHİK-in sədr müavinləri - Musa Mirzəyev, Hikmət Osmanov və Qəzənfər Abdullayev uşaqları təbrik edib, onlara sertifikat və hədiyyələr təqdim olunub.




AHİK-in "Abşeron" sanatoriyasında keçirilən əyləncəli və maarifləndirici tədbir özəl sektorla əməkdaşlıq çərçivəsində baş tutub.

Əvvəlcə master-klasda 5-14 yaş aralığında şəhid övladlarına informasiya texnologiyaları mütəxəssisləri robotların yığılması və idarə olunması üzrə təlim keçiblər.

Qeyd edək ki, AHİK könüllüləri də tədbirin təşkilində yaxından iştirak edib, uşaqların asudə vaxtının səmərəli keçməsinə, bilik və bacarıqlarının artırılmasına dəstək olublar.

# "Azərişıq" sədri Qubada qəbul keçirib



**"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov Qubada Heydər Əliyev mərkəzində Quba və Qusar rayonlarından olan vətəndaşlarla görüşüb.**

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb. Həlli araşdırma tələb edən məsələlərlə əlaqədar yazılı müraciət qeydə alınaraq aidiyyəti şöbələrin icraatına göndərilib.

"Azərişıq" ASC-nin həyata keçirdiyi yenidənqurma və maarifləndirmə tədbirləri ilə yanaşı regionlarda vətəndaşlarla təşkil olunan görüşlər də abonentlərin dayanıqlı, fasiləsiz elektrik enerjisi ilə təmin olunmasına, həmçinin elektrik enerjisi itkilərinin minimuma endirilməsinə hədəflənib.

***XQ***

# İsmayıllıda zəlzələ

**Fevralın 28-də İsmayıllı rayonunda zəlzələ baş verib.**

Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb.

Zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, İsmayıllı stansiyasından 46 km şimal-şərqdə, İsmayıllı rayonunda zəlzələ qeydə alınıb. Zəlzələ hiss olunmayıb. Yerli vaxtla saat 07.49-da baş verən yeraltı təkanların maqnitudası 3 olub. Zəlzələ ocağı Yerin 3 kilometr dərinliyində yerləşib.



# Müstəqil dövlətçilik və dövlət dili



III MƏQALƏ

## Azərbaycanda hüquq, qanun və dil vəhdəti

Maraqlı və bir qədər qeyri-adidir, deyilmi? Çünki son əsrlər Azərbaycan və azərbaycanlılar haqqında danışan yadlar daha çox hüquqsuzluq, qanunsuzluq və dil zəifliyindən dəm vurmuşlar. Bunun fonunda isə özlərinin dəyərlərini "göylərə qaldırmışlar": guya, onlar mədənidirlər, dövlətçidirlər, hüququ anlayırlar, qanunlara əməl edirlər... və sair və ilaxır.

Ancaq dünyanın öz gedişatı var. İndi bütün aləm görür ki, fransızı, almanı, rusu və digər "güclülər"i hansı səviyyədə hüquqa, qanuna və özgə mədəniyyətinin dəyərlərinə əməl etmirlər. Onlar açıqca deyirlər ki, "dünya mənin dilimdə danışmalı, mənim mədəniyyətimi əxz etməli və mən necə yaşayıramsa, dünyanı necə görürəmsə, elə yaşamalı, görməlidir"! Məhz bu cür ədalətsizliyin nəticəsidir ki, qlobal miqyasda bəşəriyyət silkələnir. Ukraynada həlak olan milyonlarla insanın taleyindən çox kimə hansı torpaq, kimə hansı miqdarda vəsait çatacağı üstündə bir-birini didirlər.

Deməli, gerçək hüquq, qanuna əməl etmək və mədəniyyət bəyanatlarda, rəsmi sənədlərdə, beynəlxalq təşkilatlara külli miqdarda maliyyə atmaqda deyil, toplumun mənəvi, əxlaqi, mədəni, psixoloji və dövlətçi ənənəsində, onun kimliyində, tarixinin əngəlliklərindədir. Bu prizmada Azərbaycana yeni baxış gərəkdir, əsrlərdir ört-basdır edilən həqiqətlərin üstü açılmalıdır. Həmin sırada bizim öncəliyimiz hüquq, qanun, mədəniyyət (onun tərkibi kimi, dil) və dövlətçilik ənənəsi xüsusi yer tutur. Faktsız bir fikir belə irəli sürməyəcəyəm.

Mənbələr götərir ki, türklər qədimdən hüquq, qanun və toplumun var olmasını vəhdətdə görmüşlər. Dil burada maraqlı tərzdə ifadəedici və tənzimləyici rol oynamışdır. Məsələn, "el" "dövlət"in sinonimi kimi işlənmişdir. Ünsiyyətdə müxtəlif kontekstlərdə məcazi olaraq, el – dövlət anlamı ifadə edilmişdir. Məsələn, "palaza bürün – elnən sürün", "hökmdar gücünü eldən alır", "hökmdar ədalətli olmalıdır" və s. Bu sırada hüququn qanunla sinonim kimi dərk edilməsi türklərin tarixi töhfəsidir. Bununla türklər insan haqlarını ontolojiləşdirmiş, yəni onu cəmiyyətin özünün yaratdığı deyil, təbiətin (Tanrının) insan mövcudluğunun fundamentinə "yerləşdirdiyini" ifadə etmişlər. Məhz həmin səbəbdən türk toplumlarında "Hökmdar qanunu" həm də hökmdar hüququdur, "Divan qanunu" həm də divan hüququdur, "Yosun qanunu" həm də "yosun hüququdur". Bu anlayışıların hər birinin ayrıca fəlsəfi tədqiqinə ciddi ehtiyac vardır. Burada biz dil kontekstində "Yosun qanunu" (və ya "Yosun hüququ") üzərində dayanaq.

## "Yosun qanunu"nda dil və varolma

Anlayıram ki, məsələnin qoyuluşu absurd görünə bilər. Ancaq Azərbaycanın mənəvi, tarixi, mədəni və bütövlükdə varolma fəlsəfəsi çox dərindir. Bu toplum və məmləkətin kökləri zamanın və dünyanın sosial-mədəni həyatının çox dərinliklərinə işləmişdir.

Azərbaycanlılar həm fərdiyyətçi, həm də inanılmaz dərəcədə bəşəridirlər. Azərbaycanlılar yad mühitdə özlərini kölə kimi aparmazlar. Öz mühitlərində isə çox mərhəmətli və anlayışlıdırlar. Bütün bunları qədimdən gələn "Yosun qanunu" məhz təbii hüquq anlamında işlədildiyinə görə tərbiyə etmişdir.

Azərbaycanlılar tarixin əngəlliklərində dünya ilə vəhdətlərini ruhda, duyğuda., sözdə və əməldə qanun işığında içdən yaşamışlar. Bu baxımdan onlar dünyanın ən qanunpərəst və hüquqa hörmət edən qövmüdürlər! Əsrlərdir bundan kənara çıxmamışlar və heç bir yadellinin də buna gücü çatmamışdır!

Sosial həyatda sənədə yazılmış qanunlara bəzən əməl etmək istəyinin olmamasının kökündə də özlərinə qarşı sayğısızlıq və ədalətsizlik dayanır. Azərbaycanlılar belə hal olanda çılğınlaşırlar.

Azərbaycanlı qəlbini ancaq ilahi ədalət və sayğı fəth edə bilər! Azərbaycanlı üçün cəmiyyətin qanunu və hüququ bundan qaynaqlanmalıdır. İlahi ədalət, haqq, hüquq, qanun olmayan yerdə əsl azərbaycanlı yoxdur! Bunu bizə "Yosun qanunu" anladır. İndi detallara baxaq.

"Yosun qanunu" təbiətdə mövcud olan yosun (Azərbaycanda ona "mamır" da deyirlər) bitkisinin linqvistik məcazıdır. Qanun və ya hüquq kimi əsas mənası fərdin və toplumun mövcudluğu və özünüyaratmasının köklü birlikdən və harmoniyadan (ahəngdarlıqdan) qaynaqlanması ilə bağlıdır. Yəni türk kimliyi, ailəsi, qəbiləsi, tayfası, tayfalar birliyi "Yosun qanunu" üzrə baş verir. Türklər ancaq kök səviyyəsindən gələn qaydalar üzrə mövcud ola və özlərini təkrar-təkrar yarada bilərlər ("ot kökü üstündə bitər" deyimini xatırlayaq). Deməli, "Yosun qanunu" türklərin fərdidən kollektivə keçidini tənzimləyən elə bir fəlsəfədir ki, yalnız daxili faktorlara (törəyə) əsaslanır. Buna sinergetik terminlə "etnosun özünütəşkili qanunu" deyə bilərik.

Burada əsas əlamət "Yosun birgəyaşam qaydası"nın qaynağının, ümumiyyətlə, mövcudolmanın (təbiətdə, Kainatda, İlahi məkanda və s.) təbiətində olduğunu qəbul etməkdən ibarətdir. Bu mənada türk anlamında qanun həm də təbii haqdır, hüquqdur. Burada hər hansı qondarma, şəxsi maraqlara görə nəyisə dəyişmə doğru sayılmır. Səbəbi isə insanın əməl etməli olduğu hər bir qanun və ya hüququn kökünün İlahidən olması ilə bağlıdır. Deməli, "Yosun qanunu" həm də insanın əməl etməli olduğu İlahi hüququn yer üzündə fundamental təcəssümü kimi təhtəlşüurumuzda yer almışdır.

Başqa bir özəllik ondan ibarətdir ki, dil (ünsiyyət, qonşuolma, qonuşma qaydası kimi) insanın fərdi və kollektiv mövcudolmasının əsas müəyyənedici keyfiyyəti rolunu oynayır. Yəni azərbaycanlı üçün dil yalnız kiminləsə danışmaq vasitəsi deyildir – o, bizim kökdən kimliyimizi, yaşam şərtlərimizi və qövm olaraq mövcudolma məkanımızı (arealımızı, "həyat ekologiyamızı") müəyyən edir. Buna görədir ki, Azərbaycanda söz bütövlükdə adamlığın, insanlığın, bütün emosional keyfiyyətlərin təməli kimi qəbul edilmişdir. Söz həm haqdır, həm hüquqdur, həm də qanun.

Azərbaycanlı üçün söz demək asan məsələ deyildir. Onlarla nümunə vardır ki, sözün bizim həyatımızda fundamental rol oynadığı ifadəsini tapır. "Söz ağzından çıxdı, onun köləsisən", "söz verdin, əməl etməlisən", "kişinin sözü bir olar"...və hər bir oxucu bu siyahını uzada bilər.

O da tam başadüşüləndir ki, Azərbaycanda sözlərin metaforası, obrazlı ifadəsi, dəqiq ifadə özəlliyi və s. kimi xüsusiyyətlərinə böyük önəm verilir. Deməli, sözü necə və hansı dildə deməyin azərbaycanlı üçün əhəmiyyəti həyati, varolma məsələsidir. Azərbaycanlı kimliyi dildə yaranmışdır! Bu prizmada "Yosun qanunu"nda dilin rolunu anlamaq olar.

İlk yanaşma Azərbaycan dilinin dillər qrupunda elmi xarakteristikasıdır. Məlumdur ki, bizim dili "sinharmoniya" qrupuna aid edirlər. Bu təsnifin fəlsəfəsini, sosiologiyasını, kulturologiyasını və psixologiyasını öyrənmişikmi? Mən bu suala müsbət cavab verə bilmirəm. Səbəbini də qabartmaq fikrində deyiləm. Burada yalnız öz interpretasiyamı təqdim etmək istərdim.

## Dildə sinharmoniya

Ümumiyyətlə, şərqli üçün "sin" sözünün nəyi ifadə etdiyini aydınlaşdırmaq maraqlıdır. Qısa araşdırma göstərmişdir ki, məsələn, Çin fəlsəfəsinsdə "sin" yaradılışın universallığının başlanğıcı anlamını verir. Yəni "sin" ən dərin qatlarda, bütövlükdə dünyəvi, kosmik, bəşəri, qalaktik (Samanyolu) varolmanın təməlində dayanan başlanğıcdır, məfhumdur (konkretliyi yoxdur – universal yaradıcı anlayışıdır). Onda "sinharmoniya" ümumiyyətlə yaradılışın fundamentinin bütövlüyün, tamlığını ifadə edir. Dilə tətbiqdə isə sinharmoniya varolmanın fundamentinin ifadəçisi kimi dərk edilə bilər. Yəni bununla dil özünü dünyanın təzahürlərindən, ifadəçilərindən biri kimi "ontolijiləşdirir". O halda hansı dildə danışmaq şəxsi tələbat deyildir, fərdi yaşam şərti, qaydası və ontologiyasıdır! Sözü hansı dildə deməsi faktiki olaraq insanın kimliyini ifadə etməsidir. Bu mənada insanın kimliyi dildə formalaşır. Bu tezisin işığında azərbaycanlı kmiliyinə baxaq.

## Azərbaycanlı kimliyi

Bir kəs Azərbaycan dilində danışırsa, özündən asılı olmayaraq mütləq surətdə dünya haqqında sinharmonik düşüncələr və təsəvvürlər məkanına düşür. Sinharmoniya bu mənada bizim təhtəlşüuri "cazibə sahəmiz¸varoluşumuzun təməl məkanıdır"! Bu "məkanda böyüməyən və düşünməyən insan əsl azərbaycanlı deyildir (bu tezisi mütləqləşdirmirəm, ümumiyyətlə, prinsip kimi deyirəm). Lakin başqa dildə danışanlar, öz aləmində isə azərbaycanca danışanlar da əsl azərbaycanlılardır. Onların dilini daxili aləmləri müəyyən edir. Bu, kökdən, ailə tərbiyəsindən və əldə edilən dərin biliklərdən qaynaqlanır. Təəssüf ki, bu qaydanı hər bir yad dildə danışana aid etmək olmur. Və həm də eyni dərəcədə, təəssüf ki, Azərbaycan dilində danışan, təhsil alan, Azərbaycan ailəsində böyüyən heç də hər kəs ifadə etdiyimiz anlamda "əsl azərbaycanlı" olmaya bilir. Məsələnin bu tərəfi ayrıca müzakirə mövzusudur. Qayıdaq dilin sinharmoniyasına.

Linqvistlər Azərbaycan dilinin sinharmoniyası ilə bağlı yazırlar ki, əsas sözün köküdür. Azərbaycan dilində sözlər kök üzərində vahid formada, əlavələr edilməklə yaradılır. Məsələn, "əl" sözündən "əllərim", "əllərimdə" və s. yaranır. Bu, sinharmoniyadır. Bir kök söz çoxlu sayda sözlərə, yəni dünyaduyumuna, dünyagörüşünə, ifadə tərzinə, düşüncə məkanına, danışıq sahəsinə yol açır. Dünya bu səbəbdən azərbaycanlı şüurunda vahiddir, bütövdür. Onun bütün tərəfləri bir-biri ilə vəhdətdədir, yəni elmi terminlə "dünya holistikdir".

Sinharmoniya dilin ontolojidə dünyanın vahidliyi və bütövlüyünü ifadə etdiyinin əlamətidir. Bu cür dil kökdən dünyaya hörmətli və bütöv yanaşma münasibəti formalaşdırır, insanın və qövmün psixologiyası digərlərindən fərqlənir. Necə fərqlənir?

Dili sinhamronik olan fərdlər və onların birgəyaşamlarının əyaniləşmiş forması olan xalq, millət, cəmiyyət dünyaya bütöv baxır və onu vahid görür. Dünyanın bütövlüyündən müxtəlif fərqliliklərə nəzər salır, lakin onları ayırmır, əksinə elə bir "çələngdə birləşdirir" ki, dünya çəmənzar obrazını alır. Sinharmoniya dili olan kəsin şüuru dünyanı öncədən ayırmır, seçmir, təcrid etmir. Öncədən mənzərəyə vahid, bütöv bir tam kimi baxır və onun fərqliliklərini həmin tamın naxışları kimi mənalandırır. Bu mənada sinharmoniya bölücü adam yetişdirmir.

Sinhamronik olmayan dillər isə fərqli linqvistik sahə yaradır. Məsələn, rus və alman dilləri sinharmonik deyil. Məsələn, rus dilində "ruka" var. "Əllərimdə" demək üçün rus üç dil elementi işlətməlidir. Yəni "v moix rukax". Alman da elədir. Yəni "in meine hande" və s. Deməli, rus və ya almanın şüuru təkdən cəmə keçmək üçün öncə bölməlidir, sonra o böldüklərini birləşdirməlidir (Avropa fəlsəfəsində Dekartın analizi və sintezi). Bu, ümumiyyətlə. Qərb təfəkkürünün fundamental prinsipi halına gəlmişdir – birləşdirmək üçün öncə ayırmalı, fərqləndirməli və sonra fərqlənənləri yenidən fərqləndirməklə onları birləşdirməli.

Bu qısa və səthi müqayisə belə göstərir ki, sinharmoniya linqvistik sahəsinin formaşdırdığı sosial, siyasi, ideoloji, mədəni, mənəvi-əxlaqi və kommunikativ kimlik başqalarından fərqlənir. Onların "həyat ekologiyalar"ının məzmunu, sərhədləri və məqsədləri fərqlidir. Bu o deməkdir ki, sinharmoniya linqvistik sahəsində formalaşmış cəmiyyətdə qeyri-sinharmonik linqvistik sahəsi inteqrativ, yəni birləşdirici rol oynaya bilməz. Toplum isə yalnız birləşmə sayəsində mövcud olur və bununla özünü təsdiq edir. Cəmiyyətin kimliyini birliyində tapır.

Bunun əksi də doğrudur. Yad dil məkanında toplumun mövcud olması onu tədrici özgələşməyə və sonucda məhvə məhkum etmək deməkdir. Yəni, güllə atmadan bir qövmü kökündən dəyişirsən, özününküləşdirirsən!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Böyük manipulyator"

***Mark ENDEVELD***

***(əvvəli ötən saylarımızda)***

Bununla belə, jurnalistlərin nəzərinə çatdırılır ki, indiyə qədər prezidentin çıxışlarına cavabdeh olan Silvan Fort Yelisey sarayının mətbuat xidmətinin rəhbəri təyin olunur. Bu yerdəyişməyə baxmayaraq, sarayda ümumi gərginlik azalmır. İndi hamıya elə gəlir ki, prezident artıq heç kimə qulaq asmır, hətta ona ən yaxın olanlara da...

Milad bayramı ərəfəsində Benalla məsələsinin ikinci seriyası başlayır. Bu dəfə söhbət onun diplomatik pasportlarından və prezidentlə SMS vasitəsi ilə yazışmalarından gedir. Bu dəfə artıq canı boğazına yığılan Silvan Fort, yanvar ayının əvvəlində ərizə yazıb könüllü olaraq vəzifəsini tərk edir. Emmanuel Makron dostları ilə söhbətlərinin birində gileylənir ki: "Onsuz da, bu Fort "sadiq adam deyildi" və onun ətrafında həmişə "məqsədləri nə olduğu bilinməyən şübhəli adamlar" dolaşırdı". (!) Bu o deməkdir Fort artıq onun gözündə lütfdən düşüb. Biabırçılıq!..




Çoxdan gözlənilən Nazirlər Kabinetindəki dəyişikliyin elanından əvvəl, Makron oktyabrın 16-da gözlənilmədən televiziya ilə çıxış etmək qərarına gəlir. Sibet Ndiay ilə Silvan Fort prezidentin bu təşəbbüsünə etiraz edirlər. Onlar artıq telekanallarla danışıqlar aparıblar, hər şeyi hazırlayıblar ki, prezident bir həftədən sonra xalqa müraciət etsin. Amma Makron iki ayağını bir başmağa dirəyib israr edir ki, o, mütləq bu axşam efirə çıxmalıdır. Benalla məsələsi ilə bağlı skandal başlayandan, prezident rəsmi olaraq efirə çıxıb xalqa müraciət etməyib. İndi onun birdənbirə belə qərara gəlməsində məqsəd, fransızlara göstərməkdir ki, dövləti idarə edən odur – Baş nazir Eduard Filip deyil. Amma texniki cəhətdən heç nə hazır deyil. Çünki nə Silvan Fort, nə də Sibet Ndiay əvvəlcədən heç nəyi planlaşdırmayıb. Ona görə də televiziyanın çəkiliş qrupunu, eləcə də texniki komandanı Yelisey sarayına çağırmaq mümkün deyil. Artıq gecdir. Ona görə də Silvan Fort ilə Sibet Ndiay məcbur olub improvizasiya edirlər. Nəticədə, TF1 telekanalından bir operator tapırlar. 18:30-da başlayacaq çəkilişdən cəmisi ikicə saat əvvəl, operator özünü Yelisey sarayına çatdırıb təkbaşına işıq qurmağa başlayır. Ancaq bu payız ayında gün tez batdığından və qaranlıq tez düşdüyündən operatorun qurduğu işıqlar və kameraların yerləşdiyi nöqtələr o qədər də qənaətbəxş olmur. Bundan başqa, hər şey tez-tələsik, əlimyandıda qurulduğundan, çıxış vaxtı dövlət başçısının sifəti normal işıqlandırılmır. Hələ bu harasıdır? Çəkilmiş material telekanala satellitlə yox, avtomobillə göndərilir. TF1 telekanalının prezidenti Terri Tüyyiye çəkilmiş materiala baxanda, daş atıb başını tutur. O, ətrafındakılara etiraf edir ki, bu yayımdan sonra kanalın reputasiyası aşağı düşəcək. Ancaq hamı yaxşı bilir ki, bu biabırçılıq onlarlıq deyil, hamısı Yelisey sarayının, daha doğrusu, prezidentin günahıdır. Ertəsi gün mətbuat xalqa müraciəti zamanı sifəti normal işıqlandırılmayan dövlət başçısını lağa qoyur...

Təəccüblü burasındadır ki, Nazirlər Kabinetindəki dəyişikliklərə üç gün qalmış, İsmael Emelien Bordo şəhərindən bir neçə kilometr aralıda yerləşən Jiskur qalasında özünə böyük, təmtəraqlı bir toy edir. Toyda deputat Qabriel Attali, siyasi müşavir Stefan Sejurne, Aleksi Kohler, nazir Jülien Denormandi, eləcə də Jil Finşelşteyn iştirak edirlər.

Şən toy mərasiminə baxmayaraq, onların hamısının fikri başqa yerdədir. İsmael isə tamamilə ayrı şey düşünür. O, üç həftəlik bal ayına getməyi planlaşdırıb – Yelisey sarayından uzaqlara... Xüsusi müşavir respublika prezidentindən uzaq qaçmağa çalışır... O da prezidentin gözündən düşüb, görəsən?

Noyabr ayında "sarı jiletlilər" hərəkatı Fransanın, demək olar ki, hər yerinə yayılır. Parisdə onların nümayişləri ara vermir. Sarı jiletlilər tərəfindən mühasirəyə alınmış Yelisey sarayında hamı panika içindədir. Bundan sonra Makron daha çox özünə qapılır. Makronistlərin arasında dövlət başçısını və onun klanını məzəmmət edənlərin sayı artır. LREM (Respublika hərəkətdə partiyası) partiyasından olan deputatlar, İsmael Emelieni və Aleksi Kohleri daha açıq şəkildə tənqid etməyə başlayırlar. Prezidentin mətbuat xidməti bir neçə dəfə "quş buraxandan" sonra Silvan Fort da şələ-şüləsini yığışdırmağa başlayır. Emmanuel Makronun Petan haqqında mübahisəli bəyanatlarından sonra ölkədə yenidən çaxnaşma düşür. (Petan – 1940-1944 illərdə Fransanın dövlət başçısı. Hərbiçi, diplomat və siyasi xadim. 1918-ci ildə Fransa marşalı rütbəsi alıb, 1945-ci ildə Hitlerin çaldığı ilə oynamaqda ittiham olunub və bütün hərbi rütbələrindən məhrum edilib.)

Prezidentin "sarı jiletlilər"lə bağlı anonsu gərginliyi daha da artırır. Bütün bu işlərdən cana yığılan Mişel Şaras (Fransa Konstitusiya Şurasının üzvü) telefonu götürüb Makrona zəng vurur və onun nümayişçilər qarşısında "təslim olan" klanını kəskin tənqid edir.

Benalla da öz növbəsində Mediapart jurnalistlərinə Yelisey sarayının "texnokratlarından" danışır və açıq-aşkar deyir ki: "... onlar mafi yadan da betərdirlər. Hər biri karyerası üçün başqasına borcludur. Onlar heç kəsə kömək etməyən (Makronu nəzərdə tutur) insanların arxetipləridir.

Onlar axmaq məsləhətləri ilə onu (Makronu) pis qərarlar verməyə məcbur edirlər...". Bu sözlərlə o, təbii ki, Patrik Strzodanı və Aleksi Kohleri nəzərdə tutur.

"Amma onu düz deyir", – deyə makronistlərin bəziləri üzdə olmasa da, arxada onu dəstəkləyirlər. Beləliklə, Yelisey sarayında qanqren başlayır. Bir neçə müşavir, o cümlədən İsmael Emelien president aparatını tərk etməyə hazırlaşır. Hələ bu harasıdır, Makron yaya qədər Aleksi Kohleri də özündən uzaqlaşdırmağı planlaşdırır. Artıq president bayquş kimi tamamilə təkdir və bunun da günahı yalnız özündədir.

## Vəzifə paylanışı

"Bir neçə gündən sonra hər şey istədiyim kimi də olacaq...", Fransanın müdafiə naziri Jan-İv Lö Drian tamamilə əmindir ki, Emmanuel Makronun prezident seçkilərində qələbəsindən sonra da o, öz vəzifəsində qalacaq. Siyasi həyata başlayandan, Lorian şəhərinin bu keçmiş meri bütün enerjisini müdafiə məsələlərinə həsr edib. Hollandın prezidentliyi dövründə düz 5 dəfə müdafiə naziri vəzifəsində qalan, əsli Broton olan Jan-İv Lö Drian tamamilə əmindir ki, yeni prezident Makron da onu bu vəzifəsində saxlayacaq. Kampaniya zamanı Makron dişlərini ağarda-ağarda ona söz vermişdi ki, prezident seçilsə, ona dəyməyəcək. 2017-ci ilin martından Makronu dəstəkləyən Lö Drian, yəqin, öz-özünə deyir ki, bu ədalətli və məntiqi bir mükafatdır. Otuz ildən çoxdur Sosialist Partiyasının sütunlarından biri olan bu adamın qəti şübhəsi yoxdur ki, yeni prezidentin dövründə də Müdafiə Nazirliyində işini davam etdirəcək.

Makronun prezidentlik dövrünün ilk parlamentinə nazirlərin təyin olunmasından iki gün əvvəl, daha dəqiq desək, bazar ertəsi 15 may 2017-ci ildə Lö Driana yeni prezidentdən zəng gəlir: "Jan-İv, ortaya bir problem çıxıb. Natali Kosiysko-Morizet iki ayağını bir başmağa dirəyib ki, mən Müdafiə Nazirliyini istəyirəm. Sabah gəl yanıma görək neynəyirik...". Fransua Hollandın keçmiş naziri baş üstə deyib dəstəyi asır. Tərbiyəli və əlaçı bir şagird müəlliminə tabe olduğu kimi, o da prezidentin 206 səlahiyyətinə tabedir. V Respublikanın üzünə də, astarına da yaxşı bələd olan Lö Drian, yeni və cavan respublikaçı monarxın qarşısında özünü üzüyola uşaq kimi aparmaqda çətinlik çəkmir. Ancaq Yelisey sarayına daxil olandan sonra səbrini basıb xeyli gözləməyə məcbur olur. Saatlar keçir, ancaq prezidentdən səs-soraq çıxmır. Gözləmə otağındakı narahat skamyanın üstündə neçə saatdan bəri oturub gözləyən Lö Drian öz-özünə dəfələrlə eyni sualı verir: məni burda saatlarla gözlətməklə yeni prezident nə demək istəyir, görəsən?

Qapı birdən-birə, cırıltı ilə açılır. Hələ də qələbəsinin havası başından çıxmamış Makron təntənə ilə içəri soxulur. Lö Drian onu salamlamaq üçün ayağa qalxır, ancaq ağzını açmağa macal tapmamış, prezident onun gözlərinin içinə baxıb: "Xarici İşlər Nazirliyi necədir sənin üçün?", – deyə sual verir. Gözləmədiyi təklifdən özünü itirən Lö Drian nə deyəcəyini bilmədən yüngülcə başını tərpədir, nəsə demək istəyir, ancaq Makron tez çönüb gəldiyi kimi gurultu ilə otaqdan çıxır. Bir müddət sonra Lö Drianın yaxın dostlarından biri Fransis Russeli acı-acı deyəcək ki, onun dostu "bir qarın yemək üçün özünü Makrona satdı". Holland da onun haqqında eyni fikirdədir.

***(ardı var)***



# Zəfərdən Böyük Qayıdışa

(əvvəli 1-ci səhifədə)

Bu gün gördüklərimizdən – Azərbaycan Prezidenti İlham Əliyevin strateji düşüncəsinin Qarabağda bələdlədiyi hədəflər, möhtəşəm layihələr və onların həlli sürətlə gerçəkləşdikcə belə nəticəyə gəlirsən ki, nə qədər böyük maliyyə vəsaiti lazım gəlsə də, uzun vaxta ehtiyac olmayacaq, Azərbaycan öz liderinin dərin zəkası, iradəsi və qətiyyəti sayəsində buna təkbaşına belə nail olacaq. Bu mənada içimizdə bir damcı olsa belə şübhə qalmır.

Dövlət başçımız bu ilin əvvəlində müsahibələrinin birində böyük qürur hissi ilə qeyd etdi ki, "Azərbaycan 2021-ci ildən Qarabağın və Şərqi Zəngəzurun bərpasına 19 milyard manatdan çox vəsait ayırıb". Görülən işlər o qədər böyük miqyası əhatə edir ki, hətta Azərbaycana bərpa işlərində əl uzatmaq marağında olmayan Qərbin media resursları belə, Qarabağda və Şərqi Zəngəzurda gedən tikinti-quruculuq işlərindən heyranlıqla söz açırlar. Məsələn, ötən il Qarabağın və Şərqi Zəngəzurun bərpası mövzusuna böyük məqalə həsr etmiş Avropa resursu "EU Reporter" yazırdı ki, "Qarabağ sürətlə beynəlxalq investisiya, turizm və mədəniyyət mərkəzinə çevrilir. Azərbaycanın bu bölgəsində təkcə müasir infrastrukturun formalaşdırılması və sənayenin inkişafı layihələrinə ayrılan investisiyaların həcmi 6 milyard dolları ötüb". Bəli, təkcə infrastruktur və sənaye layihələrinə 6 milyard dollar, region üçün çox böyük məbləğdir.

Deməli ki, Azərbaycanı ermənilərin viran qoyduğu şəhər və kəndlərlə baş-başa qoyub kənardan müşahidə edən Qərb Qarabağda və Şərqi Zəngəzurda görülən işlərdən nə qədər heyranlıqla danışsa da, təcavüzkar Ermənistanın bu ərazilərdə törətdiyi vandalizmi, insanı dəhşətə gətirən dağıntıları dilinə belə gətirmir. Amma hər fürsət düşəndə dövlət başçısı Azərbaycana ayaq qoyan ya Qərb, ya Şərq media nümayəndələrinin, siyasətçilərin, diplomatların və dünya səyyahlarının üzünü "vəhşi tayfaların" keçib xarabazara çevirdiyi işğaldan azad edilmiş torpaqlarımıza döndərir, ermənilərin, guya, hüquqlarının taptalandığını deyərək, vay-şivən qoparan dünyaya bu vəhşi qövmün mundar xislətini göstərir...

Əlbəttə, regionun bərpası ilk vaxtlardan başlayaraq təkcə əhəmiyyətli maliyyə investisiyaları deyil, həm də şəhərsalma, ekologiya və infrastruktura innovativ yanaşmalar tələb edirdi. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyev təkcə Qarabağın və Şərqi Zəngəzur rayonunun bərpasının genişmiqyaslı islahatlarının təşəbbüskarı olaraq qalmır, həm də onların icrasına şəxsən nəzarət edir. O, mütəmadi olaraq işğaldan azad edilmiş ərazilərə səfərlər edir, yeni obyektlərin tikintisini, işlərin gedişatını diqqətdə saxlayır və beynəlxalq investorları bu layihələrin reallaşdırılmasına cəlb edir.

Qarabağın dirçəlişinə aparan Böyük Qayıdış proqramının əsas bəndlərindən biri, bəlkə də birincisi, əlbəttə, nəqliyyat infrastrukturunun bərpası və inkişafı layihələridir. Müasir yolların, dəmir yolu xətlərinin və hava limanlarının tikintisi prioritetlərdən biri kimi dövlət başçısının xüsusi nəzarətindədir. Məhz ona görə də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda erməni vandalizminə məruz qalan ərazilərdə təkcə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən icra edilən layihələrin sayı 44, ümumi uzunluğu isə 3 min 40 kilometr təşkil edir. Ötən illərdə artıq bu layihələrdən 6 avtomobil yolunun tikintisi başa çatdırılıb. Tikintisi davam edən 38 layihənin isə 2025-2026-cı illərdə başa çatdırılması nəzərdə tutulub.

Yol-nəqliyyat infrastrukturu ilə yanaşı, digər layihələr də Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi əhəmiyyət verdiyi və prioritet olaraq həyata keçirilən quruculuq işlərində önəmli yer alır. Məhz bundan çıxış edərək dövlət başçısı bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində dedi: "Biz əsas infrastruktur layihələrini yəqin ki, bir-iki ilə başa çatdıracağıq. Ən çox vəsait bu layihələrə gedir. Çünki 60 kilometrdən çox tunellər, körpülər, elektrik stansiyaları, su anbarları inşa edilir. Biz artıq orada 30-dan çox su elektrik stansiyasını işə salmışıq, dəmir yolları çəkmişik. Yəni, bütün bunlar əsas maliyyə yükü götürür. Təqribən 2-3 ildən sonra əsas infrastruktur layihələri başa çatacaq və ondan sonra yaşayış fondunun yaranmasına istiqamətləndiriləcək məbləğ daha böyük olacaq".

Həqiqətən də, son illərdə istifadəyə verilmiş aşağıdakı obyektlərin qısa siyahısına nəzər salanda aydın olur ki, Böyük Qayıdış proqramı çərçivəsində qısa müddətdə hansı hədəflər dəf olunub. Qarabağ və Şərqi Zəngəzurun nəqliyyat sektorunda müstəsna əhəmiyyət daşıyan 2 hava limanı, demək olar ki, tam fəaliyyətə başlayıb: 2021-ci ildə istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı, 2022-ci ildə prezidentin açılışını etdiyi Zəngilan Beynəlxalq Hava Limanı. Daha biri – Laçın Beynəlxalq Hava Limanı da bu il ölkənin nəqliyyat infrastrukturuna qoşulacaq. Təkcə Füzuli Beynəlxalq Hava Limanı 1 saatda 8 təyyarə və 200 sərnişin qəbul edə bilir. Uçuş zolağının eni 60 metr, uzunluğu 3 kilometrdir. Yəni bu hava limanı bütün növ hava gəmilərini qəbul etmək gücündə olan və beynəlxalq standartlara cavab verən müasir aeroportdur.

Bunlarla yanaşı, regionda bərpa edilməkdə olan dəmir yolu infrastrukturu da mühüm əhəmiyyətli layihələr sırasındadır. Horadiz – Ağbənd dəmir yolu xətti ilə bağlı bütün layihə işləri başa çatıb və hazırda tikinti işləri davam etdirilir. Bərdə – Ağdam dəmir yolu xəttinin çəkilişi başa çatıb. Ağdam avtovağzal və dəmir yolu vağzalı kompleksinin tikintisi sürətlə davam edir.

Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzurda bütün layihələrin həyata keçirilməsində şəhərsalma, ekologiya və infrastruktura innovativ yanaşmalarla bağlı tələblərinə çox ciddi şəkildə əməl edilir. Ona görə də bu 4 ildə dayanıqlı inkişaf konsepsiyası çərçivəsində "yaşıl" enerji və rəqəmsal texnologiyalar prinsiplərinə əsaslanan "ağıllı şəhərlər" və "ağıllı kəndlər"in tikintisi ön plana çəkilib. İlk belə layihələr sırasında Zəngilan rayonunda, artıq sakinlərin məskunlaşdığı Ağalı "ağıllı kənd" pilot layihəsini göstərmək olar.

Bu layihələrin bir qolunu da regionun enerji müstəqilliyinin təminatı və "yaşıl zona"ya çevirilməsidir. Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf kursunda Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi də bundan irəli gəlir. Həyata vəsiqə alan layihələr biləvasitə alternativ enerjinin inkişafını nəzərdə tutur. Dövlət başçısının tapşırığına əsasən indi regionu təmiz enerji ilə təmin edə biləcək Günəş, külək və su elektrik stansiyaları tikilir. Ümumilikdə 4 il ərzində regionda 270 MVt gücündə 32 su elektrik stansiyası istismara verilib. 2025-ci ildə isə daha 11 su elektrik stansiyasının açılışı planlaşdırılır. Bu da son deyil və növbəti illərdə əlavə olaraq daha 200 MVt-lıq su elektrik stansiyalarının tikintisi nəzərdə tutulur.

Təkcə ötən il Qarabağ və Şərqi Zəngəzurda Azərbaycan Prezidentinin iştirakı ilə 7 su elektrik stansiyasının açılışı olub. Son dörd ildə isə işğaldan azad edilən ərazilərdə tikilən ən böyük su elektrik stansiyası Kəlbəcər rayonunda - 22,5 MVt-lıq "Yuxarı Vəng", 4,3 MVt-lıq "Zar", Laçın rayonunda 2,8 MVt-lıq "Zabux", 4,6 MVt-lıq "Qarıqışlaq", Zəngilan rayonunda isə hər birinin gücü 10,5 MVt olmaqla "Şayıflı", "Zəngilan" və "Sarıqışlaq" SES-lərdir

Qarabağ və Şərqi Zəngəzurda istismara verələn 32 su elektrik stansiyasında bütövlükdə 550 milyon kilovat-saatadək ekoloji cəhətdən təmiz yaşıl enerji istehsal olunub. Bu enerjinin üçdə biri, yəni 200 milyon kilovat-saata yaxını işğaldan azad edilən ərazilərin enerji tələbatını yönəldilib, qalan üçdə iki hissəsi isə respublika enerji sisteminə ötürülərək ölkənin digər yerlərinin tələbatına sərf edilib. Mütəxəssislər qeyd edirlər ki, istehsal edilən bu elektrik enerjisi sayəsində 120 milyon kubmetr təbii qaza qənaət edilib, 225 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb.

İnfrastruktur layihələrinin sürətlə həyata keçirilməsinə paralel olaraq, uzun illər qaçqın həyatı yaşamış və yurd yerlərindən uzaq düşmüş insanların işğaldan azad edilmiş şəhər və kəndlərinə qayıdışı üçün də çox sürətli tikinti-quruculuq işləri aparılıb. 2022-ci ildə "ağıllı kənd" pilot layihəsinin gerçəkləşdiyi Zəngilanın Ağalı kəndindən start verilən köç karvanları 2023-2024-cü illərdə daha böyük miqyas almağa başlayıb. Artıq Ağdərə rayonunun Talış kəndində, Füzuli şəhərində, Şuşa şəhərində, Laçın şəhərində və rayonun Sus, Zabux kəndlərində, Cəbrayıl şəhərində, Xocalı şəhərində və rayonun Ballıca kəndində on mindən çox vətəndaşımız məcburi köçkün adını üstündən ataraq doğma yurd yerlərində isti ocaqlarında məskunlaşıb. Bu ərazilərə köçürülən yerli sakinlərlə yanaşı, bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 mindən çox insan artıq azad Qarabağ və Şərqi Zəngəzurun sakininə çevrilib.

Bu rəqəmlərə diqqət yetirdikcə 2023-cü ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyevin telekanallara müsahibəsi zamanı bəyan etdiyi bir fikir yadıma düşdü. Dövlət başçısı onda bildirmişdi ki, 2026-cı ilə qədər 140 min insanın Qarabağ və Zəngəzura qayıdışı planlaşdırılır. Bu vaxta qədər də Azərbaycanın işğaldan azad edilmiş əraziləri sənaye cəhətdən inkişaf etmiş müasir reigona çevriləcək. Reallıq isə ondan ibarətdir ki, dövlət başçısının planlaşdırdığı müddətə 2 il vaxt qalmasına baxmayaraq, Böyük Qayıdış proqramının prioritetlərinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərin bərpası, regionun sənaye potensialının reallaşdırılması, ölkə iqtisadiyyatına reinteqrasiyası, əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə Prezidentin müvafiq fərmanları ilə artıq Ağdam şəhərində Ağdam Sənaye Parkı, Cəbrayıl rayonunda isə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Sumqayıt Kimya Sənaye Parkından sonra ölkədə ikinci böyük park hesab edilən Ağdam Sənaye Parkında ümumi investisiyaların həcmini 271 milyon manata çatdırmaq planlaşdırılır. Bu sənaye parkında ümumilikdə, 2400-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Artıq Sənaye Parkında görülmüş işlərə rezidentlər tərəfindən 97 milyon manata yaxın investisiya yatırılıb və 380 nəfərlik daimi iş yeri yaradılıb.

Bütün bunlar onu göstərir ki, Prezident İlham Əliyev azad olunmuş ərazilərin iqtisadi reinteqrasiyasını daim diqqətdə saxlayır. Nəticədə regionda biznesin inkişafı üçün yaradılan şərait, dövlət-sahibkar işbirliyi müstəvisində yeni layihələr reallığa çevrilir. Dövlət başçısının tapşırığı ilə özəl təşəbbüsləri hərtərəfli təşviq etmək və dövlət-özəl sektor tərəfdaşlığını inkişaf etdirməklə regiona investisiya qoyuluşunun artırılması xüsusi önəm daşıyır. Bölgədə biznes qurmaq istəyən sahibkarların maliyyə imkanlarına çıxışı Azərbaycan hökumətinin müvafiq qurumları tərəfindən təmin edilir.



Böyük Qayıdış proqramının reallaşmağa başladığı ilk gündən Azərbaycan dövlətinin əsas prioritetlərdən biri 1990-cı illərdə Qarabağı tərk etməyə məcbur olmuş yüz minlərlə azərbaycanlının geri qayıtmasına şərait yaratmaqdır. Buna nail olmaq üçün yeni evlər, məktəblər, tibb müəssisələri, iş yerləri tikilir.

Bu istiqamətdə layihələrə ilk start nöqtəsi Şuşa şəhəri oldu. Şəhər 2020-ci ildən etibarən aylar bir-birini əvəzlədikcə yenidən öz əsl simasını tapmağa başladı. Şuşanın zəngin tarixini nişan verən maddi-mədəniyyət abidələri – qədim məscidlər, qalalar, evlər və digər memarlıq inciləri – əsrlər boyu Azərbaycan mədəniyyətinin və incəsənətinin əbədi simvolu olmuşdur. Bu gün artıq qətiyyətlə demək olar ki, qısa bir vaxtda Azərbaycanın çoxəsrlik tarixinin, zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi olan Şuşanın əvvəlki şöhrəti artıq özünə qayıdır. Bu şəhərlə bağlı olan bütün layihələr peşəkar mütəxəssislər tərəfindən hazıranır və Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə müzakirələrdən və onların rəy və təklifləri nəzərə alınandan sonra həyata vəsiqə alır. Tarixi abidələrin bərpası yalnız memarlıq gözəlliyini bərpa etməklə kifayətlənmir, həm də qədim sənət ənənələrinin və mədəni dəyərlərin yaşadılmasına xidmət edir.

Qədim mədəniyyət paytaxtımız Şuşanın bərpası layihələri sadəcə tarixi abidələrin yenidən tikilməsi ilə məhdudlaşmır. Şəhərin müasir tələblərə cavab verən infrastrukturunun yaradılması üçün genişmiqyaslı layihələr həyata keçirilir. Yolların, su təchizatı və kanalizasiya sistemlərinin yenilənməsi, ictimai binaların və parkların bərpası sayəsində yerli əhalinin gündəlik həyat şəraitinin yaxşılaşdırılması hədəflənir. Bununla yanaşı, Şuşada uğurla fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı artır, şəhərdə əlverişli işgüzar mühit üçün münbit şərait yaradılır. Təsadüfi deyil ki, sürətlə bərpa olunan şəhər artıq bölgədə beynəlxalq tədbirlər məkanına çevrilib.

Aparılan bərpa-quruculuq işləri, həyata keçirilən layihələr həm də turizm potensialının artırılmasına və Şuşanın bölgədə mədəni və iqtisadi mərkəz kimi inkişafına təkan verir. Yenidən canlandırılan muzeylər, sərgi zalları və mədəniyyət mərkəzləri, şəhərin keçmişini və bugünkü incəliklərini həm yerli sakinlərə, həm də ölkə və xarici qonaqlara təqdim edir. Bu cür layihələr, gənc nəsillərə öz köklərini tanımaq imkanı yaradır, həm də bölgənin beynəlxalq arenada tanınmasına və turizm axınının artmasına səbəb olur.

Şuşanın bərpası yalnız keçmişin yenidən canlandırılması deyil, həm də gələcək nəsillərə zəngin bir mədəniyyət irsi və müasir həyat tərzi təqdim etmək məqsədilə həyata keçirilən kompleks bir prosesdir. Tarixi abidələrin bərpası, infrastrukturun müasirləşdirilməsi və mədəniyyət-turizm sahəsində atılan addımlar, Şuşanın uzun illər yaşadığı çətin dövrləri geridə qoyaraq, yeni üfüqlərə yüksəlməsinə şərait yaradır. Bu proses, Azərbaycanın tarixi, mədəni və iqtisadi inkişafında mühüm rol oynayaraq, ölkənin qəlbində yaşayan bir şəhərin gələcəyinə inamı gücləndirir.

Bu dirçəlişin müəllifi olan dövlət başçısı təkcə Şuşanı dirçəltmir, bir zamanlar sorağı uzaq-uzaq ellərdən gələn Ağdam rayonunun bərpası və yenidən qurulmasına da xüsusi əhəmiyyət verir. Təsadüfi deyil ki, Böyük Qayıdış proqramına uyğun olaraq, Qarabağ regionuna çəkilən bütün yollar Ağdam rayonundan keçəcək. Əsas hədəf isə ondan ibarətdir ki, Ağdam müasir sənaye və sosial infrastruktura malik gələcəyin şəhəri kimi ucalsın, əvvəlkindən daha şöhrətli, daha möhtəşəm olsun. Hazırda şəhərdə çox böyük sürətlə infrastruktur layihələri həyata keçirilir. Yollar, bir neçə yaşayış kompleksi, suvarma kanalları, elektrik kabelləri çəkilir. 1000 şagird yerlik məktəb və konfrans zalı olan otel artıq hazırdır. Rayonun böyük bir ərazisi minalardan təmizlənərək yol və kommunikasiyaların çəkilişini həyata keçirən şirkətlərin ixtiyarına verilib.

2026-cı ilin sonunda Ağdam rayonunun inzibati ərazisində 1 şəhər və 12 kənd salınması nəzərdə tutulur. 2026-cı ilədək rayonda 7612 fərdi yaşayış evi və 8350 mənzil tikilib istifadəyə veriləcək. Mənzillərə və fərdi evlərə köçürülmə isə bu ildən başlanacaq. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva fevralın 18-də Ağdam şəhərinə gedərək buradakı tukinti-quruculuq işlərinin gedişi və istifadəyə hazır olan infrstruktur obyektləri ilə tanış olublar. Dövlət başçısı və birinci xanımı Ağdam şəhərində inşa edilən "Ağdam Residence" yaşayış kompleksində 6 yaşayış binasının, "Hilton Garden İnn" hotelinin tikinti-quraşdırma işlərinin, həmçinin ümumi tikinti sahəsi 4 min 300 kvadratmetrdən çox olan Ağdam şəhər 1 nömrəli tam orta məktəbində tamamlanma işlərinin gedişi ilə maraqlanıblar.

Prezident və Birinci vitse-prezidentin bölgəyə səfərlərinin ən maraqlı və qürurverici anlarından biri isə Xankəndi şəhərində baş tutub. Səfər zamanı dövlət başçısı və xanımı Xankəndi şəhərində ümumi sahəsi 13 hektara yaxın olacaq Zəfər parkının təməlqoyma mərasimində iştirak ediblər. Qürurverici ona görə deyirəm ki, ötən əsrin 80-ci illərin sonlarında erməni separatçıları özlərinin Qarabağı Ermənistana birləşdirmək kimi xülyalarını gerçəkləşdirmək üçün terrorçu hərəkata məhz bu şəhərdən start vermişdilər. O acı və ağır tarixi günlərin şahidi olan bir insan kimi, bu gün orda, Azərbaycanın işğal olmuş ərazilərini 44 gündə azad edən və 2023-cü ilin sentyabrında 23 saatda Xankəndini terrorçu erməni silahlı birləşmələrindən təmizləyərək ölkəmizin bütün ərazisində Konstitutsiya dövlət quruluşunu bərqərar edən Ali Baş Komandan Zəfər parkının təməlini qoyurdu. Təbii ki, bu təkcə mənim üçün, bütün Azərbaycan vətəndaşları üçün son dərəcə qürurveri bir hadisədir.

Amma işlər bununla bitmir. Bütün bu işlərdə son dərəcə böyük əmək sərf edən və qətiyyət nümayiş etdirən Azərbaycan Prezidenti telekanlara müsahibəsində bildirib ki, 2025-ci ildə də Böyük Qayıdış proqramı dövlətin prioritetlərindən biri olaraq qalacaq. Prezident deyib: "Qarabağın və Şərqi Zəngəzurun bərpası fantastik sürətlə gedir. Tezliklə bu ərazilər təkcə Azərbaycanda deyil, Qafqazda və bütün dünyada ən müasir, rahat və gözəl yerlərdən birinə çevriləcək".

Hələ 2023-cü ilin noyabrında dövlət başçısı vurğulamışdı ki, 2026-cı ilin sonuna kimi 140 mindən çox insanın Qarabağa və Şərqi Zəngəzura qaytarılması planlaşdırılıb. Bu müddətdə Füzuli rayonunda 22 min, Qarabağ və Şərqi Zəngəzurda isə 140 min yerli sakin doğma və isti ocaqlarında dinc və firavan həyat sürməyə başlayacaq. Hər il dövlət büdcəsindən ayrılan vəsait də bu hədəflərin uzaqda olmadığını nümayiş etdirir. Əgər 2024-cü ildə Böyük Qayıdış proqramının reallaşması üçün 4, 8 milyard manat vəsait ayrılmışdısa, bu il bu rəqəm ilkin olaraq 4 milyard manat müəyyənləşdirilib.

Azərbaycan Prezidenti aparılan işlərin miqyasını nəzərə alaraq, yanvarın 7-də televiziya kanallarına verdiyi müsahibədə bu ilin sonuna qədər daha 20-yə qədər yaşayış məntəqəsinə keçmiş köçkünlərin qaytarılacağını bildirib: "Bu il üçün bizim planlarımızda daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytarmaqdır. O şəhər və kəndlərin adları artıq seçilib, layihələr icra edilir. Bir çox kəndlərdə, şəhərlərdə indi inşaat işləri gedir və bu ilin sonuna qədər 30-a yaxın yaşayış məntəqəsində keçmiş köçkünlər məskunlaşacaqlar".

Sözü imzası qədər dəqiq olan dövlət başçısı artıq fevralın 19-da belə məntəqələrdən birinə – Xocalı rayonunun Ballıca kəndinə gedərək bura yenicə köçmüş, müasir fərdi mənzillərlə təmin edilmiş yerli sakinlərin qonağı olmuş, eyni zamanda aparılan tikinti-quraşdırma işləri ilə maraqlanmışdır.

Prezident İlham Əliyev şəxsi nüfuzundan istiufadə edərək bir çox xarici dövlətləri Ermənistanın işğalından azad edilmiş Azərbaycanın şəhər və kəndlərinin tikinti və quruculuq işlərinə cəlb edir. Məhz dövlət başçısının səyləri sayəsində bərpa-quruculuq işlərinin ilk günlərindən başlayaraq Azərbaycan Türkiyə, İtaliya, Çin və digər dövlətlərlə fəal əməkdaşlıq edir. Yolların, hava limanlarının, sənaye zonalarının tikintisinə iri xarici şirkətlər cəlb olunur.

Azərbaycanın Qarabağın və Şərqi Zəngəzurun genişmiqyaslı yenidən qurulmasına başladığı ilk gündən türk dövlətləri bu prosesdə mühüm rol oynayır, ölkəmizə iqtisadi, texniki və siyasi dəstək verirlər. Etiraf etmək lazımdır ki, Qarabağın bərpasında fəal iştirak edən Azərbaycanın əsas müttəfiqlərindən biri məhz qardaş Türkiyə dövlətidir. Son 4 ildə bu regionda infrastruktur layihələrin həyata keçirilməsində və geniş miqyaslı tikinti işlərində Türkiyənin bir çox şirkətləri yaxından iştirak edir, həmçinin ərazilərin minalardan təmizlənməsinə və enerji infrastrukturunun inkişafına kömək göstərirlər.

Qarabağda və Şərqi Zəngəzurda quruculuq və bərpa işlərində xüsusi fəallığı ilə seçilən ölkələr sırasında Qazaxıstanı, Özbəkistanı, Qırğısıtanı, Macarıstanı, Belorusu da xüsusi qeyd etmək olar. Məsələn, Qazaxıstan Füzulidə Qazax Mədəniyyət Mərkəzinin tikintisi təşəbbüsü ilə çıxış edib və Qarabağdakı məktəblərdən birinin bərpasını maliyyələşdirib. Özbəkistan qardaşlıq dəstəyi nümayiş etdirərək Füzulidə məktəbin tikintisini maliyyələşdirir. Macarıstan Türk Dövlətləri Təşkilatının üzvü kimi həm də maliyyə və texniki yardım göstərir. Belarusun tikinti və kənd təsərrüfatı şirkətləri avadanlıq tədarük edir və Qarabağda kənd təsərrüfatı layihələrində iştirak edirlər. Qırğızıstan təhsil və mədəniyyət infrastrukturunun bərpasında iştirak etməyə hazır olduğunu bildirib. Türkmənistan isə Qarabağda enerji layihələrinə maraq göstərməsi ilə diqqət çəkir.

Bir sözlə, türk və MDB ölkələri Qarabağın yenidən qurulmasına mühüm töhfə verir, iqtisadi, texniki və diplomatik yardım göstərirlər. Bu, regionda əməkdaşlığı gücləndirir və Qarabağın müasir, firavan regiona çevrilməsinə xüsusi töhfə verir.

Qarabağın və Şərqi Zəngəzurun bərpası Prezident İlham Əliyevin şəxsi rəhbərliyi ilə həyata keçirilən tarixi missiyadır. Onun qətiyyəti, strateji baxışı və səmərəli idarəçiliyi sayəsində region çox sürətlə ölkənin ən dinamik bölgələrindən birinə çevrilir. Bu proseslər təkcə Azərbaycanın iqtisadiyyatını gücləndirmir, həm də Cənubi Qafqazda davamlı sülhə və inkişafa töhfə verir.

***Məhərrəm SƏFƏRLİ,***
***Həsən bəy Zərdabi mükafatı laureatı, Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 28** **Bakı şəhəri, 19 fevral 2025-ci il**

***"Hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatların sertifikatlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.30-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatların sertifikatlaşdırılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 30** **Bakı şəhəri, 19 fevral 2025-ci il**

***"Kommersiya hava daşımalarının, sərnişin, baqaj, yük və poçt göndərişlərinin hava daşımalarının həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.28-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Kommersiya hava daşımalarının, sərnişin, baqaj, yük və poçt göndərişlərinin hava daşımalarının həyata keçirilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və qanunvericiliyə uyğun olaraq hava daşımalarına dair müqavilələrin rəsmiləşdirilməsi və sənədlərin tərtib edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 11 iyun tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 699 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 36** **Bakı şəhəri, 20 fevral 2025-ci il**

***"Dövlət qulluqçusunun rotasiyası Qaydası"nın və "Rotasiya qaydasında yaşadığı inzibati ərazi vahidindən kənarda vəzifəyə təyin olunan dövlət qulluqçularına kompensasiya və birdəfəlik ödəniş verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli Qanunun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydalarının təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli, "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" 2003-cü il 4 avqust tarixli 911 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli və "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 21 iyun tarixli 1480 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 10 aprel tarixli 2095 nömrəli Fərmanının 2.3-cü bəndinin və Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 3696 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın 2023–2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı"nın 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət qulluqçusunun rotasiyası Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** "Rotasiya qaydasında yaşadığı inzibati ərazi vahidindən kənarda vəzifəyə təyin olunan dövlət qulluqçularına kompensasiya və birdəfəlik ödəniş verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**3.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 38** **Bakı şəhəri, 20 fevral 2025-ci il**

***"Mülki hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılmasını idarə edən təşkilatların sertifikatlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.14-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Mülki hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılmasını idarə edən təşkilatların sertifikatlaşdırılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 46** **Bakı şəhəri, 24 fevral 2025-ci il**

***"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 2 nömrəli əlavəsinin 6-cı və 7-ci maddələrində nəzərdə tutulan fəaliyyət növləri üzrə lisenziya alınması tələbinin şamil olunmadığı payların (səhmlərinin) 100 faizi dövlətə məxsus olan hüquqi şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olması-na xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1192-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 17 avqust tarixli 183 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 2 nömrəli əlavəsinin 6-cı və 7-ci maddələrində nəzərdə tutulan fəaliyyət növləri üzrə lisenziya alınması tələbinin şamil olunmadığı payların (səhmlərinin) 100 faizi dövlətə məxsus olan hüquqi şəxslərin siyahısı" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 41** **Bakı şəhəri, 20 fevral 2025-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 28 iyun tarixli 104 nömrəli Qərarı ilə təsdiq edilmiş "Miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin hesabına keçirilən vəsaitdən istifadə Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 28 iyun tarixli 104 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 6, maddə 575 (Cild I) ilə təsdiq edilmiş "Miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin hesabına keçirilən vəsaitdən istifadə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə üzrə:

1.1. 1.2-ci bəndə "işçilərinin" sözündən sonra "(bundan sonra - işçilər)" sözləri əlavə edilsin;

1.2. 1.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.5. Bu Qaydanın 4.1-1-ci bəndi nəzərə alınmaqla, xüsusi vəsait işçilərin aylıq vəzifə maaşına əlavə (bundan sonra - əlavə) formasında ödənilir.";

1.3. 1.6-cı bənddən "aylıq vəzifə maaşlarına ödənilən" sözləri çıxarılsın.

2. 3-cü hissə üzrə:

2.1. adında və 3.1-ci bənddə "Aylıq vəzifə maaşına əlavənin" sözləri "Əlavənin" sözü ilə əvəz edilsin;

2.2. 3.2–3.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.2. Əlavənin ödənilməsi məqsədilə hər ay üçün əlavə hesablanır.

3.3. Əlavə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan vəsaitin 18 faizi işçilərin faktiki işlədikləri iş günlərinin cəmlənmiş sayına bölünməklə və alınan nəticə hər bir işçiyə münasibətdə onun faktiki işlədiyi iş günlərinin sayına vurulmaqla aşağıdakı düstura uyğun hesablanır:

$$Ə = \left(\frac{XV \times 18}{100} : İGS\right) \times İİG$$

burada:

Ə - əlavənin məbləği (manatla);

XV - hesabat ayı üçün xüsusi xəzinə hesabına daxil olan vəsaitin məbləği (manatla);

İGS - hesabat ayında işçilərin faktiki işlədikləri iş günlərinin cəmlənmiş sayı;

İİG - əlavəsi hesablanan işçinin faktiki işlədiyi iş günlərinin sayı.

3.4. Əlavə tam rəqəmdən sonra yüzdə birə qədər riyazi yuvarlaqlaşdırma aparılmaqla müəyyən edilir.".

3. 4-cü hissə üzrə:

3.1. adında "Aylıq vəzifə maaşına əlavənin" sözləri "Əlavənin" sözü ilə əvəz edilsin;

3.2. 4.1-ci bənddə "Aylıq vəzifə maaşına" sözləri "Bu Qaydanın 4.1-1-ci bəndi nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda 4.1-1–4.1-3-cü bəndlər əlavə edilsin:

"4.1-1. "ASAN xidmət" mərkəzlərindəki fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən (bundan sonra - VXSİDA) hesabat ayında vəsait əldə edən işçilərə münasibətdə əlavə bu Qaydanın 4.1-2-ci bəndində nəzərdə tutulan hal istisna olmaqla digər hallarda həmin işçilərə ödənilmir.

4.1-2. VXSİDA-nın işçiyə ödədiyi məbləğ həmin işçiyə münasibətdə bu Qaydanın 3.3-cü bəndinə uyğun olaraq hesablanmış əlavənin məbləğindən aşağı olduqda bu məbləğlər arasındakı fərq işçiyə ödənilir.

4.1-3. Bu Qaydanın 4.1-1-ci və 4.1-2-ci bəndlərinin tətbiqi əsasında ödənilməyən və qalıq məbləğlər cəmlənir və formalaşan vəsait digər işçilərin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq məqsədilə istifadə edilir.";

3.4. 4.2-ci bənddə "işçilərin aylıq vəzifə maaşına" sözləri "işçilərə" sözü ilə əvəz edilsin;

3.5. 4.3-cü bənddə "Aylıq vəzifə maaşına əlavəyə" sözləri "Əlavəyə" sözü ilə əvəz edilsin;

3.6. 4.4-cü bənddə "Aylıq vəzifə maaşına əlavə" sözləri "Əlavə" sözü ilə əvəz edilsin və həmin bəndə "günləri" sözündən sonra "(işçinin ezamiyyətdə olduğu günlər istisna olmaqla)" sözləri əlavə edilsin;

3.7. aşağıdakı məzmunda 4.5-ci bənd əlavə edilsin:

"4.5. Bu Qaydanın 4.1-1-ci və 4.1-2-ci bəndlərinin tətbiqi ilə əlaqədar VXSİDA "ASAN xidmət" mərkəzlərindəki fəaliyyətinə görə hər bir işçiyə aylıq ödədiyi vəsaitin məbləği barədə məlumatları ödəniş edildiyi gündən sonra növbəti 3 iş günü müddətində Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə təqdim edir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 44** **Bakı şəhəri, 24 fevral 2025-ci il**

***"Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 mart tarixli 106 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 306 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 mart tarixli 106 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının (Xidmətin rəhbərliyinə aid olan hərbi qulluqçular istisna olmaqla) aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi);

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**3.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 47** **Bakı şəhəri, 25 fevral 2025-ci il**

***"Mülki hava gəmilərinə texniki xidmət göstərən təşkilatların sertifikatlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.13-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Mülki hava gəmilərinə texniki xidmət göstərən təşkilatların sertifikatlaşdırılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 48** **Bakı şəhəri, 25 fevral 2025-ci il**

***"Təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadəsi mümkün olmayan kənd təsərrüfatı təyinatlı torpaqların müəyyən edilməsi meyarları və Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 16 sentyabr tarixli 357 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 iyun tarixli 113 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadəsi mümkün olmayan kənd təsərrüfatı təyinatlı torpaqların müəyyən edilməsi meyarları və Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 16 sentyabr tarixli 357 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1091 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

**2.** Həmin Qərarla təsdiq edilmiş "Təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadəsi mümkün olmayan kənd təsərrüfatı təyinatlı torpaqların müəyyən edilməsi meyarları və Qaydası"nın 3-cü hissəsi üzrə:

2.1. 3.1-ci bənddə "məqsədilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin (bundan sonra – EKTİS) tərkibində kənd təsərrüfatı təyinatlı torpaqların istifadəsinə dair "Kənd təsərrüfatı torpaqlarının istifadəsi" altsistemi yaradılır" sözləri "Elektron kənd təsərrüfatı" informasiya sistemi (bundan sonra – EKTİS) vasitəsilə həyata keçirilir" sözləri ilə əvəz edilsin;

2.2. 3.3.6-cı yarımbənddə və 3.5-ci bənddə ismin müvafiq hallarında "Nazirlik" sözü ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.**

# Türkiyə Orta Dəhlizə böyük önəm verir




**Türkiyənin xarici işlər naziri Hakan Fidan fevralın 26-da Ankarada gürcüstanlı həmkarı Maka Boçorişvili ilə keçirdiyi birgə mətbuat konfransında ölkəsinin uzun illərdir ki, Bakı–Tbilisi–Ceyhan (BTC) neft və Bakı–Tbilisi–Ərzurum (BTƏ) qaz kəmərləri ilə Gürcüstanın enerji təhlükəsizliyinə töhfə verdiyini bildirib.**

H.Fidan, eyni zamanda, bu əməkdaşlıq çərçivəsində bir sıra mühüm layihələrin reallaşdırıldığını, Gürcüstanın yeni hökuməti ilə münasibətlərin daha da dərinləşdirilməsinin diqqətdə saxlanıldığını vurğulayıb. Diplomat daha sonra Türkiyənin 16 ildir ki, Gürcüstanın əsas ticarət tərəfdaşlarından biri olduğunu, ötən il bu ölkə ilə ticarət dövriyyəsinin 3 milyard dolları ötdüyünü, həmin göstəricinin 5 milyard dollara çatdırılmasının qarşıya mühüm vəzifə kimi qoyulduğunu qeyd edərək deyib: “Xəzər dənizindən keçən Orta Dəhliz Şərqlə Qərbi birləşdirən vacib elementdir. Bu kontekstdə biz Orta Dəhlizin əsasını təşkil edən Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolunun tam gücü ilə işləməsinə böyük əhəmiyyət veririk”.

Qeyd edək ki, Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən strateji nəqliyyat layihəsi olan BTQ dəmir yolu xəttinin tikintisinə 2007-ci ildə başlanılıb və 2017-ci ildə istismara verilib. Uzunluğu, təxminən, 850 kilometrlik bu dəmir yolunun 504 kilometri Azərbaycan, 263 kilometri Gürcüstan, 79 kilometri isə Türkiyə ərazisindən keçir. BTQ, eyni zamanda, Avropa ilə Asiyanı birləşdirən ən qısa və etibarlı marşrutlardan biri hesab olunur. İlkin mərhələdə illik 5 milyon ton yük və 1 milyon sərnişin daşınması nəzərdə tutulsa da, gələcəkdə bu göstəricilərin müvafiq olaraq 17 milyon ton yük və 3 milyon sərnişinə çatdırılması planlaşdırılır.

2024-cü ildə aparılan modernləşdirmə işlərindən sonra dəmir yolunun illik yükdaşıma qabiliyyəti 5 milyon tona yüksəldilib. BTQ xətti qədim İpək yolunun bərpasında mühüm rol oynayaraq, region ölkələri arasında iqtisadi əlaqələrin və ticarət dövriyyəsinin artmasına əhəmiyyətli töhfə verir.

Yuxarıda vurğuladığımız kimi, beynəlxalq önəm daşıyan sözügedən infrastruktur – BTQ dəmir yolu Orta Dəhlizin əsasını təşkil edir. Bu dəhliz regionun bir neçə ölkəsindən keçən, Asiya ilə Avropanı birləşdirən nəqliyyat və ticarət yoludur. Bu, ənənəvi Şimal və Cənub dəhlizlərinə alternativ yoldur. Marşrut Çindən başlayır və Qazaxıstan, Özbəkistan və Türkmənistan kimi Mərkəzi Asiya ölkələrini birləşdirir. Daha sonra Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyəni keçərək Avropaya çatır. Orta Dəhliz Asiyanın şərq hissələrini, o cümlədən Çini Avropa ilə birləşdirən, daha uzun dəniz yollarından yan keçən quru marşrutu gerçəkləşdirir.

Türkiyə Cümhuriyyəti də Orta Dəhlizin inkişafına hər zaman mühüm önəm verib. Dünya Bankının Direktorlar Şurasının qardaş ölkənin elektrik dəmir yolu nəqliyyatını inkişaf etdirmək səylərini dəstəkləmək üçün 660 milyon ABŞ dolları məbləğində maliyyə dəstəyini təsdiqləməsi də bu məqsədə prioritet yanaşılmasından irəli gəlib.

Bankın məlumatına görə, ötən il dekabrın 5-də qəbul edilən kreditin ayrılması ilə bağlı qərar Türkiyənin şərqində, Orta Dəhlizin bir hissəsi olan Divriği–Qars hissəsində dəmir yolu bağlantısının yaxşılaşdırılması məqsədi daşıyır. Layihə dizel qatarlarının elektrik qatarları ilə dəyişdirilməsini və Sivasın Divriği məntəqəsi ilə Gürcüstanla sərhəddə yerləşən Qars arasındakı 660 kilometrlik dəmir yolunun tam elektrikləşdirilməsini və modernləşdirilməsini nəzərdə tutur. Layihənin icrası nəticəsində dörd əyalətin – Sivas, Ərzincan, Ərzurum və Qarsın dəmir yolu ilə birləşəcəyi və marşrut boyunca, təxminən, 600 min sakinin bundan faydalanacağı, həmçinin yerli biznes və kənd təsərrüfatının inkişafının sürətlənəcəyi gözlənilir.

Layihənin icrası başa çatdıqdan sonra dəmir yolu ilə yükdaşıma qabiliyyətinin ildə, təqribən, 750 min tondan 20 milyon tona yüksələcəyi, 2030-cu ilə qədər isə il ərzində 72 min 332 ton karbon emissiyasının qarşısının alınacağı proqnozlaşdırılır. Layihənin ümumi dəyəri 800 milyon ABŞ dolları həcmində qiymətləndirilir.

2020-ci ildən etibarən Orta Dəhliz ilə ayda iki dəfə olmaqla Türkiyədən Çinə müntəzəm olaraq konteynerlərin daşınması reallaşdırılıb. Təkcə 2021-ci ildə Çin–Avropa arasında, hər iki istiqamət üzrə, ümumilikdə, dəmir yolu ilə 84,9 milyard dollarlıq yük daşınması həyata keçirilib. 2020–2021-ci illərdə bu dəhlizdə nəql edilmiş yükün ümumi həcmi 350-530 min ton arası olsa da, təkcə 2022-ci ildə bu rəqəm 3,2 milyon tona qədər artıb.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-dən aldığımız məlumata görə, son 10 ildə Orta Dəhliz üzrə yükdaşımalarda müsbət nəticələr qeydə alınıb. Bu dinamika gəmi – bərələrlə daşınan avtotexnika (TİR) və vaqonların sayında daha çox müşahidə olunub. Belə ki, 2015-ci ildə 38 min 79 TİR və vaqon daşınması həyata keçirilmişdirsə, 2024-cü ildə bu göstərici 77 min 71 ədədə (102,4 faiz və ya 2 dəfədən çox) yüksəlib.

Yeri gəlmişkən, Dünya Bankının proqnozuna əsasən, 2030-cu ilə qədər Orta Dəhlizlə yükdaşımaların həcmi 3 dəfə artacaq. Avropa Komissiyasının vitse-prezidenti Valdis Dombrovskis Almaniyanın “DW” nəşrinə müsahibəsində bildirib ki, Avropa İttifaqı bu marşrutun inkişafı üçün 10 milyard avro investisiya ayırmaq niyyətindədir.

Ümumiyyətlə, Orta Dəhliz Çindən gələn yüklərin Qazaxıstandan keçərək Xəzər dənizinə, Azərbaycana və oradan da Gürcüstan və Türkiyə üzərindən Avropadakı son təyinat ölkələrinə çatmasına imkan yaradır. Bu baxımdan dəhlizin və bu infrastrukturun bir hissəsi kimi BTQ dəmir yolu böyük əhəmiyyətə malikdir.

Azərbaycan Orta Dəhlizin potensial imkanlarını yüksək dəyərləndirərək infrastrukturun inkişafına mühüm töhfələr verməyi planlaşdırıb. Bu, “Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı”nda öz ifadəsini tapıb. Artıq Dövlət Gömrük Komitəsi sözügedən dəhliz boyunca tranzit daşınmaların rəqəmsallaşdırılması və ümumi tranzit portalının yaradılması istiqamətində tədbirlərin həyata keçirilməsinə başlayıb. Bütün bunlar isə yaxın gələcəkdə dəhlizin potensialından daha səmərəli istifadəyə, daşınma həcminin artmasına, tranzit daşınmalarından daha çox gəlirin əldə olunmasına zəmin yaradıb.

# Somali ilə neft-qaz əməkdaşlığına başlanır

**Energetika naziri Pərviz Şahbazov ilə Somalinin neft və mineral ehtiyatlar naziri Dahir Shire Mohamed arasında görüş olub.**



Nazirliyin mətbuat xidmətindən XQ-yə bildirilib ki, görüşdə Somalinin Prezidenti Hasan Şeyx Mahmudun bu yaxınlarda respublikamıza səfəri çərçivəsində imzalanan sənədlərin iki ölkə arasında səmərəli əməkdaşlıq münasibətlərinin qurulmasına və ikitərəfli əlaqələrin bir çox sahələrdə inkişafına təkan verən rolundan bəhs edilib. Eyni zamanda, “Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Somali Federativ Respublikasının Energetika və Su Ehtiyatları Nazirliyi arasında “yaşıl” enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun imzalanmasının əhəmiyyəti vurğulanıb.

Nazir Pərviz Şahbazov Azərbaycanın neft-qaz, bərpaolunan enerji sahələrində həyata keçirdiyi layihələr, xüsusilə enerji resurslarının dünya bazarlarına şaxələndirilmiş marşrutlarla nəqli üzrə təcrübəsi, həmçinin enerji sektorunda aparılan islahatlar barədə məlumat verib. Bu səfərin nəticələrinin ikitərəfli əlaqələrin enerji sahəsində inkişafına əlavə bir dəstək verəcəyini deyən nazir ölkələrimizin zəngin təcrübə və potensialı əsasında gələcəkdə faydalı əməkdaşlığın qurulacağına inamını ifadə edib.

Somalili nazir Dahir Shire Mohamed isə ölkəsinin Azərbaycanın enerji sahəsində liderliyini yüksək qiymətləndirərək deyib ki, Azərbaycana səfərlər ölkələri üçün tarixi əhəmiyyət daşıyır, çünki bu, inkişafı sürətləndirir.

Görüş zamanı Somalidən olan tələbələrin Azərbaycanda neft sahəsində ixtisaslaşmış ali məktəblərdə təhsili ilə bağlı da fikir mübadiləsi aparılıb.

Sonda “Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Somali Federativ Respublikasının Neft və Mineral Ehtiyatlar Nazirliyi arasında neft və qaz sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu” imzalanıb. Memorandumda neft və qaz sahələrində əməkdaşlığı inkişaf etdirmək məqsədilə təcrübə mübadiləsinin, eləcə də birgə seminar və forumların keçirilməsi nəzərdə tutulub.

# Aqroparklarda 150 milyon manatlıq məhsul yetişdirilib



**Ölkəmizdə aqroparklar 2014-cü ildən etibarən Prezident İlham Əliyevin tapşırığına əsasən, ərzaq təhlükəsizliyinin təmin edilməsi, regionlarda işsizliyin aradan qaldırılması və idxaldan asılılığın azaldılması məqsədilə yaradılıb. Mövcud qurumların fəaliyyətinə nəzarəti isə İqtisadiyyat Nazirliyinin nəzdində İqtisadi Zonaların İnkişafı Agentliyi həyata keçirməyə başlayıb. Adıçəkilən agentlik ölkədə fəaliyyət göstərən sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə dövlət başçısının 22 yanvar 2021-ci il tarixli Fərmanı ilə yaradılıb.**

İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən qeydiyyata alınan 24 aqropark tərəfindən 2024-cü ildə 42,5 min hektar torpaq sahəsində əkin işləri həyata keçirilib. Bunun da 35,7 min hektarı suvarılan ərazilərdir.

Məlum olduğu kimi, aqroparklar digər kənd təsərrüfatı müəssisələri kimi vergi güzəştlərindən, subsidiyalardan, güzəştli kredit və lizinqdən yararlanır. Bununla yanaşı, dövlət tərəfindən də bu sahədə mühüm dəstək tədbirləri həyata keçirilir. Agentlik rəhbərinin sözlərinə görə, ötən müddətdə ölkədə aqroparkların yaradılması və ya fəaliyyətlərinin genişləndirilməsi məqsədilə 158,9 milyon manat dövlət dəstəyi göstərilib. Bununla yanaşı, Sahibkarlığın İnkişafı Fondu tərəfindən 16 aqroparkın yaradılmasına 142,4 milyon manat güzəştli kredit ayrılıb. Eyni zamanda, investisiya təşviqi sənədi almış 17 aqropark texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 16,5 milyon manat dəyərində güzəşt əldə edib.

Aqroparklarda istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiya münasibətləri formalaşdırılır ki, bu da kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə olunmasına imkan yaradır. Bu müəssisələr aqrar sahədə inkişafı sürətləndirməklə yanaşı, idxaldan asılılığın azaldılmasına, eləcə də ölkənin ixrac potensialının artırılmasına və milli brendlərin yaradılmasına mühüm töhfələr verir.

Agentliyin məlumatına görə, il ərzində aqroparklarda 34,1 min ton buğda, 25,5 min ton arpa, 91,8 min ton dən və silos qarğıdalı, 49,7 min ton şəkər çuğunduru, 22,4 min ton pambıq, 17,3 min ton kartof, 11,6 min ton yonca, 1,1 min ton soya, 3,5 min ton tərəvəz məhsulları, 14 min ton qüvvəli yem istehsal olunub, 18,1 min ton qarışıq meyvə yığılıb və 606 min ədəd ting əkilib. Bununla yanaşı, heyvandarlıq üzrə ixtisaslaşmış 6 aqroparkda 32,4 min ton süd və 1,3 min ton ət istehsal olunub.

Bütövlükdə isə, il ərzində aqroparklarda istehsal olunmuş kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 150 milyon manat təşkil edib.

Yeri gəlmişkən, ölkə ərazisində kiçik və orta fermerlərin cəlb olunması ilə təşkil edilən ilk aqropark Yevlax rayonunda yaradılıb. Ümumi ərazisi 2 min 807 hektar olan Yevlax Pilot Aqroparkının 2 min 280 hektar sahəsi üzrə 34 sahibkarlıq subyekti rezident kimi qeydiyyata alınıb. Rezidentlər tərəfindən, ümumilikdə, 55,2 milyon manatadək özəl investisiyanın yatırılması ilə 331 nəfər üçün daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Aqroparkda intensiv meyvə bağları salınacaq, heyvandarlıq və quşçuluq təsərrüfatları, eləcə də emal sahələri yaradılacaq. Artıq rezidentlər tərəfindən 44 milyon manat investisiya qoyulmaqla burada 121 daimi və 457 mövsümi iş yeri açılıb. 21 rezident tərəfindən indiyədək parkın ərazisində 1199 hektar sahədə əkin işləri aparılıb, 412,5 hektar intensiv və superintensiv meyvə bağları salınıb. Ötən müddətdə aqroparkda 1,1 min ton buğda, 0,6 min ton arpa, 0,4 min ton pambıq və 660 min ədəd ting istehsal olunub. 2024-cü ildə parkın ərazisində ilk dəfə yığım da həyata keçirilib. Yeni salınmış bağlardan, ümumilikdə, 44 ton çəyirdəkli (şaftalı, ərik, nektarin, alça və s.) meyvə yığılıb.

İqtisadi Zonaların İnkişafı Agentliyinin sədri S.Adıgözəlovun sözlərinə görə, aqroparkın 2807 hektar ərazisinin 1185 hektarı parsellərə bölünmüş sahələr, 1298 hektarı heyvanların yem təminatı və pambıqçılıq sahələri, 141 hektarı sənaye zonası, qalan 183 hektarı isə mühafizə zolaqları və təsərrüfatdaxili yollardır. Ötən müddətdə aqroparkda dövlət investisiyası hesabına tutumu 110 min kubmetr olan membran örtüklü su anbarı və 8 aqreqatlı nasos stansiyası inşa edilib, parsellərə bölünmüş 800 hektar ərazinin təzyiqli su və elektrik təchizatı tam təmin olunub, təsərrüfatdaxili yollar çəkilib və uzunluğu 12,5 kilometr olan sel ötürücü kanalın 10,4 kilometrlik hissəsi tikilib.

# AYİB ölkəmizdə ÜDM-in artımını proqnozlaşdırıb

**Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) 2025-ci ildə Azərbaycanda iqtisadi artımı 3 faiz, 2026-cı ildə isə 2,5 faiz səviyyəsində proqnozlaşdırır. Ötən ilin sentyabr ayı ilə müqayisədə artımla bağlı proqnoz göstəriciləri 0,3 faiz bəndi artırılıb. Bu barədə məlumatlar bankın “Regional iqtisadi perspektivlər” adlı hesabatının fevral sayında yer alıb.**




Bildirilib ki, Azərbaycan iqtisadiyyatı neft və qaz qiymətlərindəki dalğalanmalara, eləcə də regiondakı geosiyasi gərginliyə həssas olaraq qalır. Hesabatda qeyd olunur: “Orta müddətli perspektivdə Çini Avropa ilə birləşdirən Orta Dəhlizlə yükdaşımalar ölkənin nəqliyyat və logistika sektorları üçün yeni imkanlar yarada bilər. Bundan əlavə, dövlət istehlakının infrastruktur, kənd təsərrüfatı və müdafiə sahələrinə investisiyalar hesabına dəstəklənəcəyi gözlənilir”.

AYİB-in məlumatına görə, 2024-cü ildə qeyri-neft sektoru və dövlət investisiyaları hesabına Azərbaycan iqtisadiyyatının artım tempi xeyli sürətlənib. Belə ki, real ÜDM 2023-cü ildəki 1,1 faizlə müqayisədə 4,1 faiz artıb. Qeyri-neft sektorunda artım isə bir il əvvəlki 3,7 faizə nisbətən 6,2 faiz təşkil edib. Neft və qaz sektoru 2024-cü ilin martında Avropaya tədarük üçün qaz hasilatının artması fonunda yenidən artım nümayiş etdirməyə başlayıb.

Hesabatda daha sonra qeyd bildirilib: “İqtisadi fəallıq əhalinin real gəlirlərinin artımı və infrastruktur investisiyaları ilə dəstəklənib. Bununla belə, inflyasiya səviyyəsi nisbətən aşağı olub. 2024-cü ilin aprelində inflyasiya illik ifadədə 0 faizə qədər azalıb (minimum 9 ildən artıq müddətdə). İlin sonuna inflyasiya 4,9 faiz təşkil edib. Qiymətlərin sabitləşməsinə dövlət tənzimlənməsi və dünyada ərzaq məhsullarının ucuzlaşması təsir göstərib”.

Bank xatırladıb ki, Azərbaycan Mərkəzi Bankı inflyasiya təzyiqinin azalması fonunda 2023-cü ilin sonunda əsas uçot dərəcəsini, ümumilikdə, 175 baza bəndi – 2023-cü ilin noyabrındakı 9 faizdən 2024-cü ilin may ayına kimi 7,25 faizə endirib və bundan sonra onu bu səviyyədə saxlayıb. “Eyni zamanda, kreditləşmənin yüksək artım tempini (2024-cü ildə 20 faizdən çox) nəzərə alaraq, Mərkəzi Bank 2025-ci ilin martında qüvvəyə minəcək 0,5 faiz həddində kontrtsiklik kapital buferinin tətbiq edildiyini açıqlayıb”, – deyə hesabatda qeyd olunub.

# Mobil vergi xidmətləri genişlənir

**Dövlət Vergi Xidmətində (DVX) mobil tətbiqlər üzərindən göstərilən xidmətlərin sayının artırılması gözlənilir. DVX-nın rəis müavini Samirə Musayevanın sözlərinə görə, vergi ödəyicilərinə təqdim edilən elektron xidmətlərin sayı və funksionallığının artırılacağı nəzərdə tutulur.**



Hazırda mövcud olan 70-dən çox elektron xidmətin daha da genişləndirilməsi, xüsusilə, mikro və kiçik sahibkarlar üçün vergi prosedurunun daha da sadələşdirilməsi planlaşdırılır. Bunlar arasında mobil tətbiqlər üzərindən göstərilən xidmətlərin artırılması, vergi bəyannamələrinin öncədən doldurularaq vergi ödəyicilərinə təqdim edilməsi, vergi ödəyicilərinin risklər barədə vaxtında məlumatlandırılması kimi yeniliklər var.

Eyni zamanda, sahibkarların işlədikləri digər vergi ödəyicilərinin potensial vergi riskləri barədə əvvəlcədən məlumatlandırılması kimi preventiv yanaşmaların tətbiq ediləcəyi də qarşıya mühüm vəzifə kimi qoyulur. İş adamları bunun hesabına gələcək vergi nəzarəti tədbirləri zamanı ciddi maliyyə sanksiyalarından kənarda qalacaqlar.

S.Musayeva qeyd edib ki, bu yeniliklər bir tərəfdən vergi ödəyicilərinin hüquqlarının qorunmasına və onların potensial vergi pozuntularından əvvəlcədən xəbərdar edilməsinə imkan verəcək, digər tərəfdən isə vergi orqanlarının fiskal dayanıqlığı təmin olunmaqla bağlı funksiyalarını daha səmərəli yerinə yetirməsinə kömək edəcək.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Uzaq Afrika ölkələri ilə yaxın əlaqələr

**Hazırda Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verən Afrika ölkələrindən biri də Qvineya-Bisaudur. Bu respublika Afrikanın qərbində, Atlantik okeanı sahilində yerləşir. Ölkə şimaldan Seneqal, şərqdən və cənub–şərqdən isə Qvineya ilə həmsərhəddir.**



Qvineya-Bisau ilə Azərbaycan arasında diplomatik münasibətlər 1992-ci il avqustun 27-də qurulub. Bu ölkənin Prezidenti Umaru Sisoku Embalo ötən ilin noyabrında COP29-da iştirak etmək üçün Azərbaycanda səfərdə olub və Prezident İlham Əliyev ilə görüşü zamanı iqtisadi, neft-qaz, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlıq, tibb və mühəndislik sahələrində kadr hazırlığı, polis akademiyaları arasında əməkdaşlıq kimi məsələlər müzakirə edilib.

Bundan başqa, ötən il dekabrın 2−4-də Qvineya-Bisaunun xarici işlər, beynəlxalq əməkdaşlıq və icmalar naziri Karlos Pinto Pereyra ölkəmizə səfəri zamanı Azərbaycan Prezidenti tərəfindən qəbul edilib. Səfər çərçivəsində onun Xarici İşlər, Daxili İşlər, Səhiyyə, Təhsil, Müdafiə, Energetika nazirliklərində, "ASAN xidmət" və SOCAR-da görüşləri olub. Görüşlərdə müvafiq sahələrdə, xüsusilə tibb, enerji, müdafiə sənayesi istiqamətlərində əməkdaşlıq haqqında , həmçinin Daxili İşlər nazirlikləri arasında əməkdaşlığa dair məsələlər müzakirə olunub. Səfər zamanı iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizmi də təsis edilib.

Azərbaycan ilə Qvineya-Bisau arasında əlaqələr indiyədək əsasən, BMT, İƏT və Qoşulmama Hərəkatı çərçivəsində davam etdirilib. Qvineya-Bisau Respublikası İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanla bağlı qəbul edilən qətnamələrə bu dövlət tərəfindən dəstək göstərilib.

Xatırladaq ki, Azərbaycan koronovirus pandemiyası ilə qlobal mübarizə çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə Qvineya-Bisauya 2020-ci ildə 100 min ABŞ dolları həcmində yardım göstərib.

Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalonun bu il fevralın 27-də ölkəmizə rəsmi səfəri çərçivəsində dövlətimizin başçısı İlham Əliyevlə təkbətək və geniş tərkibdə görüşləri olub. Qvineya-Bisau Prezidenti Zəfər parkını və Azərbaycan Ordusunun komando hərbi hissələrindən birini ziyarət edib.

Umaru Sisoku Embalonun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər çərçivəsində "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə də tanış olub. Burada qonağa Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılan "ASAN xidmət" mərkəzləri və sosial innovasiyalar istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib. "ASAN xidmət" modelinin müxtəlif ölkələrdə uğurla tətbiq olunduğu vurğulanıb.

Qvineya-Bisau Respublikasının Prezidenti "ASAN xidmət"i çox əhəmiyyətli layihə kimi qiymətləndirib. O, ölkəsində belə bir konsepsiyanın mövcud olmadığını və səfərdən dərhal sonra eyni layihənin ölkəsində də tətbiqi ilə bağlı addımların atılacağını diqqətə çatdırıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Qvineya-Bisau Respublikası Prezidentinin Ofisi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Memorandumda "ASAN xidmət" təcrübəsinin Qvineya-Bisau Respublikasında tətbiqi, eləcə də Dövlət Agentliyinin ekspertləri tərəfindən dövlət xidmətlərinin göstərilməsi sahəsində qabaqcıl təcrübənin qarşı tərəflə paylaşılması nəzərdə tutulub. Görüş çərçivəsində nümayəndə heyəti "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin, Səyyar ASAN xidmətin və "ABAD" publik hüquqi şəxsin fəaliyyəti ilə də tanış olub.

Yeri gəlmişkən, burada bir məqama xüsusi toxunmaq istərdik. Belə ki, respublikamızın Afrika dövlətləri ilə əməkdaşlığında əsas istiqamətlərdən biri "ASAN xidmət" modelinə dair təcrübə mübadiləsidir. Bu modelin tətbiqinə Afrika qitəsi ölkələri böyük maraq göstərirlər. "ASAN xidmət" təcrübəsinin ixracı istiqamətində Mərakeş, Uqanda və Efiopiya kimi ölkələrin müvafiq sahələr üzrə fəaliyyət göstərən qurumları ilə Anlaşma memorandumları imzalanıb. Uqandada hazırda "ASAN xidmət" modeli əsasında 6 Dövlət Xidmətləri mərkəzi fəaliyyət göstərir. Somali Prezidentinin Azərbaycana səfəri zamanı imzalanmış sənədlərdən biri də bu sahədə əməkdaşlığa dair olub. Onun Bakıda "ASAN xidmət" mərkəzi ilə tanış olması da təsadüfi deyil. "ASAN xidmət" təcrübəsinin ixracı istiqamətində, eyni zamanda, Esvatini, Konqo, Tanzaniya, Qambiya və Zimbabve ilə fəal danışıqlar davam etdirilir.

Prezidenti İlham Əliyev və Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalonun mətbuata bəyanatlarla çıxışları da xüsusi maraqla dinlənilib. Dövlətimizin başçısı dost ölkə rəhbərinin artıq ikinci dəfədir ki, Azərbaycana səfərini yüksək dəyərləndirib və bunun sıx qardaşlıq münasibətlərinin aydın təzahürü olduğunu vurğulayıb. Azərbaycan lideri daha sonra deyib: "Biz iqtisadi sahədə belə bir razılığa gəldik ki, konkret layihələr, investisiya imkanları müəyyən edilsin. Əminəm ki, beləliklə, biz ümumi məxrəcə gəlib çıxacağıq. Çünki biz artıq bir çox ölkələrə sərmayələr yatırırıq. Əlbəttə, biz məmnun olardıq ki, konkret layihələr fürsətini nəzərdən keçirək. Biz, həmçinin hesab edirik ki, bu, müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlıq etmək üçün fürsət yaradır. Cənab Prezident Azərbaycanın hərbi hissələrinin birində olacaq və ona, o cümlədən Azərbaycanın müdafiə sənayesi haqqında təqdimat ediləcək. Bu ola bilsin ki, bizim dostlarımız üçün maraqlı olsun".

Qvineya-Bisau Respublikasının Prezidenti mətbuata bəyanatla çıxışında Bakı səfərindən və münasibətlərə yenidən nəzər salmaqdan məmnun olduğunu diqqətə çatdırıb. Eyni zamanda, iki ölkə arasında əlaqələrin, eləcə də səhiyyə, təhsil, hərbi və təhlükəsizlik sahələrinin inkişafının diqqətdə saxlanılacağını bildirib.

# BP-nin Füzuli yubileyinə töhfəsi

**Azərbaycanın neft-qaz sektorunda reallaşdırılan önəmli layihələrin operatoru olan BP şirkəti xalqımızın mədəni irsininin qorunmasına və təbliğinə də mühüm töhfələr verir. Dünya poeziyasının zirvələrindən biri olan, insanın hiss və duyğularının dərinliyini poeziya dilində bənzərsiz ifadə etmiş qüdrətli söz ustası Füzuli haqqında iki cildlik kitab da məhz belə xidmətin nümunəsidir.**



Dünən Bakı Muğam Mərkəzində dahi şairin 530 illik yubileyinə həsr olunmuş sənət əsərlərinin ilk toplusunun təqdimatı keçirilib. Ölməz Füzulinin zəngin ədəbi irsindən söhbət açan natiqlər bildiriblər ki, yeni nəşr edilmiş kitab Füzuliyə həsr olunmuş bütün şeirlər, poemalar, romanlar, pyeslər və hekayələrdən, eləcə də onun müxtəlif dövrlərdə fərqli rəssamlar tərəfindən yaradılmış çoxsaylı portretlərindən və əsərlərinə çəkilmiş illüstrasiyalardan ibarət geniş və hərtərəfli materiallar toplusudur. Qeyd olunub ki, Məhəmməd Füzuli məhəbbət, mistika, insan ruhu və varlığı mövzularını elm, sənət, məntiq və poetik təxəyyül elementləri ilə təkrarsız şəkildə birləşdirmək bacarığı ilə misilsiz və ölməz ədəbi irs yaratmışdır. Bu irs müxtəlif dövrlərdə bir çox şairləri, yazıçıları, musiqiçiləri və rəssamları cəlb edərək onun haqqında ədəbiyyat, musiqi və incəsənətin müxtəlif sahələrində əsərlər yaratmağa ruhlandırmışdır.

Təqdimat mərasimində çıxış edən BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli poeziya nəhəngi Füzuliyə aid əsərlərin hərtərəfli və əhatəli toplusu olan bu nəfis nəşri təqdim etməkdən məmnunluğunu ifadə edərək deyib: "Füzulinin poeziyası emosional dərinliyi və ifadə gücü ilə nəsilləri heyran etmiş və onlara təsir göstərmişdir. Bu gün də onun şeirləri ruhumuza toxunaraq poetik ifadənin misilsiz gücü və qüdrəti, mistik metaforalar və simvollardan istifadə bacarığı ilə bizi heyrətləndirir. Füzulinin əsərləri təkcə mükəmməl ədəbiyyat nümunələri deyil, eyni zamanda, insan ruhunun və onun fəlsəfi və emosional mürəkkəbliyinin dərinliklərinə nüfuz etmək gücünün təcəssümüdür. Ölməz şairin yubiley tədbirlərinə bu kiçik töhfəni verməkdən həqiqətən qürur duyuruq və inanırıq ki, bu nəşr Füzulinin dünya poeziyasında müstəsna mövqeyini vurğulayan, onun parlaq poetik dühasını daha geniş tanıdan dəyərli bir mənbə olacaq. Ədəbiyyat və incəsənət var olduqca, Füzuli irsi daim ehtiramla oxunacaq və araşdırılacaq."

Xatırladaq ki, 1140 səhifəlik bu nəşrə Füzuli haqqında və ya ona həsr olunmuş 220-dən çox ədəbi əsər – 186 şeir, 7 poema, 13 pyes, 13 hekayə, 2 roman, eləcə də orta əsrlərdən bəri Füzuli əsərlərinə çəkilmiş miniatür illüstrasiyalar da daxil olmaqla, 100-ə yaxın milli və beynəlxalq rəssam tərəfindən yaradılmış 226 portret və rəsm əsəri daxil edilib.

Azərbaycan Dövlət Nəşriyyatı – "Azərnəşr"in icraçı etdiyi layihəyə 71 min manat xərclənib. Həmin vəsait isə, əsasən, məzmunun toplanması və çap xərclərinə sərf olunub. Kitab Azərbaycanın aparıcı kitabxanalarına, müvafiq akademik və tədqiqat institutlarına, eləcə də universitetlərə BP-nin hədiyyəsidir.

# IFC Azərbaycana maliyyə dəstəyini artıracaq

## *Qurum son 30 ildə ölkəmizə 800 milyon dollar sərmayə yatırıb*

**Dünya Bankı qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası (IFC) yaxın 5 ildə Azərbaycan üzrə maliyyələşdirməni 200-500 milyon ABŞ dollarına çatdıra bilər. Bu barədə bankdan məlumat verilib.**




Bildirilib ki, Beynəlxalq Maliyyə Korporasiyası həmçinin Azərbaycan Dövlət Neft Fondu ilə əməkdaşlıq edir. Fond IFC-nin Aktivlərin İdarəedilməsi Şirkətinin öhdəliyində olan 3 fonda 350 milyon dollar sərmayə qoymaq barədə öhdəlik götürüb. Bundan əlavə, tərəflər yeni əməkdaşlıq imkanlarını nəzərdən keçirirlər.

Ötən müddətdə ölkəmizdə 7 layihə icra edən IFC, həm də "Access Bank" QSC və "Bank Respublika" ASC-nin nizamnamə kapitalında pay sahibidir. Korporasiyanın maliyyələşdirdiyi layihələrin ümumi dəyəri isə 47 milyon dollar təşkil edir. Bununla yanaşı, IFC Dünya Bankının struktur bölmələri olan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və Çoxtərəfli İnvestisiya Zəmanətləri Agentliyi ilə birlikdə Azərbaycanda bərpaolunan enerji, nəqliyyat, maliyyə, su ehtiyatları (duzsuzlaşdırma daxil olmaqla), rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı, mobillik və Orta Dəhlizin inkişafı kimi sahələrdə fəaliyyət göstərmək üçün investisiya və konsultasiya imkanlarının axtarışını da davam etdirəcək.

Çoxtərəfli İnvestisiya Zəmanətləri Agentliyi öz növbəsində, Dünya Bankı qrupunun zəmanət platforması vasitəsilə enerji, su resursları, şəhər nəqliyyatı və Orta Dəhliz infrastrukturu sahələrində Azərbaycan hökumətini və dövlət müəssisələrini dəstəkləmək niyyətindədir. Bütövlükdə isə, yaxın 5 ildə Beynəlxalq Maliyyə Korporasiyası və Çoxtərəfli İnvestisiya Zəmanətləri Agentliyi əlaqələndirilmiş, mərhələli və qarşılıqlı əlaqəli investisiyalardan istifadə edərək enerji və su təchizatı üzrə birgə proqramlar yaradılmasına xüsusi diqqət yetirməyi planlaşdırır. Korporasiya özəl sektorla fəal şəkildə əməkdaşlıq edərək maliyyələşdirmə, dövlət – özəl tərəfdaşlığı, birbaşa xarici investisiyaların cəlb edilməsi və digər dəstək formaları vasitəsilə islahatlar imkanlarından maksimum yararlanmağa kömək edəcək.

Qeyd edək ki, Beynəlxalq Maliyyə Korporasiyası son 30 ildə 60-dan çox layihənin maliyyələşdirilməsi üçün Azərbaycana 800 milyon ABŞ dollarından çox sərmayə yatırıb. IFC-nin kapitalında ölkənin payı 0,12 faiz təşkil edir (28 min 852 səhm), hökumət bu səhmlərə abunə yazılışı üçün indiyədək 21 milyon 516 min ABŞ dolları ödəyib.

# "Abşeron"un ikinci mərhələ konsepsiyası

**"TotalEnergies", SOCAR və XRG "Abşeron" yatağının işlənməsinin ikinci mərhələsinin konsepsiyasını müəyyən ediblər. Bu barədə "TotalEnergies"in Bakı ofisi məlumat yayıb.**



Bildirilib ki, ikinci mərhələnin konsepsiyası dənizaltı hasilat və hasilatın sahilə çatdırılması sxemi əsasında qurulub. "Abşeron" yatağının tammiqyaslı işlənməsi çərçivəsində quyular suyun 500 metr dərinliyində qazılacaq. Quyuların layihə dərinliyinin isə 7 min metrdən çox olacağı proqnozlaşdırılır. Bu isə Xəzər dənizindəki ən dərin quyulardan sayılacaq. Həmin quyulardan hasil ediləcək karbohidrogenlər Səngəçal yaxınlığında sahilə 140 kilometrlik çoxfazalı boru kəməri (qaz + kondensat) vasitəsilə nəql olunacaq. Daha sonra qaz və kondensat ayrılaraq Səngəçal terminalının yaxınlığındakı Mərkəzi Emal Qurğularında emal ediləcək.

"TotalEnergies"in məlumatına görə, ikinci mərhələ çərçivəsində hasilatın pik həddi gündə 12,7 milyon kubmetr qaz (ildə 4,5 milyard kubmetr) və gündə 37 min barel kondensat təşkil edəcək. Bu da birinci mərhələdə hasil edilən həcmləri tamamlayacaq. Yeri gəlmişkən, "Abşeron" yatağının 2023-cü ilin iyul ayından etibarən fəaliyyət göstərən və illik 1,5 milyard kubmetr qaz, sutkalıq 12 min barel kondensatın hasilatını təmin edən ilkin işlənmə mərhələsi çərçivəsində hasilat sabit və təhlükəsiz səviyyədə davam etdirilir.

"Abşeron" yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində qaz və kondensat hasilatına isə 2023-cü il iyulun 10-da başlanılıb. Həmin ilin sonunadək JOCAP (Joint Operating Company of Absheron Petroleum B. V.) əməliyyat şirkəti tərəfindən "Abşeron" yatağından 0,3 milyon ton kondensat və 0,8 milyard kubmetr qaz çıxarılıb. 2024-cü ildə isə buradan 0,6 milyon ton kondensat və 1,5 milyard kubmetr qaz hasil olunub.

Xatırladaq ki, "Abşeron" qaz-kondensat yatağı ötən əsrin 60-cı illərində Azərbaycan geoloqları tərəfindən kəşf edilib. Yataq Xəzər dənizi şelfində, Bakıdan 100 kilometr cənub-şərqdə – "Şahdəniz" yatağından şimal-şərqdə, "Azəri–Çıraq–Günəşli" yataqlar blokundan isə cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşir. Yatağın ehtiyatları 350 milyard kubmetr qaz və 100 milyon tona yaxın kondensat həcmində qiymətləndirilir.

"Abşeron" da qaz və kondensat hasilatı 2023-cü ilin iyul ayından etibarən JOCAP əməliyyatçı şirkəti tərəfindən həyata keçirilir. Tərəfdaşlarla olan razılaşma əsasında, SOCAR yataqdan hasil olan qazı alır, kondensat isə Bakı-Tbilisi-Ceyhan neft boru kəməri ilə nəql olunur.

# Bank əmanətləri 14,7 milyard manata çatıb

**Mərkəzi Bankın məlumatına görə, fərdi sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin depozitləri də daxil olmaqla əhalinin banklardakı əmanətləri yanvar ayında ən pik həddə çataraq 14 milyard 699 milyon manat (2024-cü il dekabr ayı ilə müqayisədə 0,2 faiz və ya 36,8 milyon manat çox) təşkil edib.**



Fiziki şəxslərin əmanətlərinin 66 faizi (9,5 milyon manat) milli valyutada, 34 faizi (4,10 milyon manat) xarici valyutadadır. Fiziki şəxslərin əmanət portfelinin 60,8 faizi (8,9 milyon manat) müddətli əmanətlərdən ibarətdir. Fiziki şəxslərin müddətli əmanətlərinin həcmi hazırda 1,7 faiz və ya 146 milyon manatdır.

Qeyd edək ki, əhalinin banklardakı əmanətlərinin həcmi 2021-ci ildən etibarən davamlı artım tendensiyası nümayiş etdirib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “Freedom House” çaşqın duruma düşüb

**“Freedom House” təşkilatı “Qlobal Azadlıqlar İndeksi – 2025” hesabatını dərc edib. Burada 195 ölkə və 13 ərazi üzrə demokratik vəziyyət 2024-cü ildə baş vermiş proseslər üzrə qiymətləndirilib. Yekun rəylərinə görə, 85 ölkə və 1 ərazi azad, 51 ölkə və 4 ərazi qismən azad, 59 ölkə və 8 ərazi isə qeyri-azad ölkələr kimi təsnifatlandırılıb.**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Azərbaycan və onun qonşuları – Türkiyə, İran, Rusiya da qeyri-azad ölkələr siyahısında qeyd olunub. Ermənistan və Gürcüstan isə bir pillə öndə, yarım-azad ölkələr kateqoriyasına daxil edilib.

Cənubi Qafqaz regionunda Azərbaycanın adının Ermənistan və Gürcüstandan geri salınması “Freedom House” üçün tendensiya halını alıb. 15 ilə yaxındır ki, ölkəmizin adını “qeyri-azad ölkələr” kateqoriyasında yerləşdirir. Bir sözlə, təşkilat son 15 il ərzində yayımladığı hesabatlarda Cənubi Qafqaz ölkələri barədə nə yazıbsa, eynisini 2025-ci il indeksində təkrarlayıb. Baxmayaraq ki, bu dövrdə regionda ciddi dəyişikliklər baş verib. Məsələn, 2018-ci ildə Ermənistanda dövlət çevrilişi həyata keçirilib. Serj Sarkisyan hökuməti devrilib, Nikol Paşinyan komandası hakimiyyətə gəlib. Bütün Qərb dövlətləri və təşkilatları bu çevrilişə loyal yanaşıblar. Səbəbini də “Paşinyan komandasının demokratik dəyərlərə sadiqliyi” ilə izah ediblər. Məntiqi sual yaranır: Sarkisyan hökuməti qeyri-demokratik, Paşinyan komandası isə demokratik ruhludursa və Ermənistanda ictimai-siyasi düzən onların kursuna uyğunlaşdırılırsa, necə olur ki, bu fərqlilik “Freedom House” təşkilatının hesabatlarında görünmür? Hansı prinsiplə həm Sarkisyan, həm də Paşinyan dövründəki Ermənistan təşkilatın hesabatında yarım-azad ölkələr kateqoriyasında yerləşdirilir? Nəticə çıxır ki, “Freedom House” subyektiv davranır, istənilən halda Ermənistanı Azərbaycandan öndə göstərməyə çalışır.




Təşkilatın ABŞ-dəki erməni lobbi qrupları ilə bağlılığı barədə ötən yazılarımızda məlumat vermişdik. Bu fakt son dövrlərdə daha qabarıq faktlarla öz təsdiqini tapır. “Freedom House” təkcə Azərbaycanı deyil, Türkiyəni də “qara siyahıya” salıb. Qardaş ölkəni də Ermənistandan bir pillə geridə, “qeyri-azad ölkələr” kateqoriyasında yerləşdirib.

Paradoksal haldır ki, hesabat hazırlanarkən, “yaxın iki il ərzində dünya ölkələrində keçirilmiş seçkilərin nəticələrinə ciddi önəm verilib”. Hesabatda qeyd olunur ki, “bu dövr ərzində dünyada rekord sayda seçkilər keçirilib, dünya əhalisinin yarıdan çoxu seçkilərə gedib və bu seçkilər həmin ölkələr üzrə demokratik vəziyyəti qiymətləndirmək üçün indikator rolunu oynayıb”. Məsələ ondadır ki, 2023-cü ildə Türkiyədə keçirilən prezident seçkiləri bütün parametrlər üzrə dünya üçün demokratik seçki örnəyi yaradıb. Bütün dünya təşkilatları və dövlətləri bu seçkilərin demokratiya örnəyi olduğunu etiraf ediblər. Bəs “Freedom House” hansı hesabla Türkiyəni “qara siyahıya” salır, Ermənistanı isə ondan bir pillə öndə göstərir?

Yeri gəlmişkən, 2024-cü ilin oktyabr ayında Gürcüstanda da seçkilər keçirilib. Bu seçkilər həm parlamentin tərkibini, həm də hökumət komandasını müəyyənləşdirib. ABŞ və bütövlükdə Qərb, həmin seçkinin legitimliyini tanımayıb. Əlbəttə, biz Qərbin Gürcüstanda keçirilən seçkilərə münasibətdə sərgilədiyi mövqeyi pisləyirik. Amma fakt odur ki, ABŞ və Avropa İttifaqı ölkələri Gürcüstanda keçirilən son seçkini qeyri-demokratik, qeyri-legitim adlandırıblar.

“Freedom House” tərəfindən dərc edilən son hesabatda bu cür paradoksal, qarışıq məqamlar çoxdur. Hesabatın preambula hissəsində yazılan fikirləri növbəti fəsillərdə inkar ediblər. Belə nəticə çıxır ki, təşkilatın 2013... 2015...2018-ci illərdəki hesabatlarında müşahidə olunan qərəz, konyuktura 2024-cü il hesabatının da ruhuna hopub. Tendensiya, üslub, hətta, cümlələr də dəyişməyib. Təqvimi yeniləməklə köhnə mətnləri yenidən dərc ediblər.

Görünür, “Freedom House” təşkilatı ciddi çaşqınlıq içindədir. Prezident Donald Trampın bu tip təşkilatları ciddi tənqid etməsi, maliyyəsini kəsməsi onları çətin duruma salıb. USAID, NED, “Amerikanın səsi”, “Azadlıq radiosu” ilə yanaşı, “Freedom House” də öz başının hayına qalıb. Obyektivlik, qərəzsizlik prinsipi yaddan çıxıb.

Belə qeyri-ciddiliyin nəticəsidir ki, dünyanın əksər transmilli media subyektləri təşkilatın son hesabatını tirajlamayıblar. İndiki hesabat geniş diqqət qazanmayıb. Onu daha çox Ermənistan mediası ciddi qəbul edir. Məsələn, “Armenpress” Agentliyi “Freedom House” təşkilatına söykənərək, Azərbaycan haqqında qara fikir formalaşdırmaq istəyib.

**Azərbaycan Hakimlərinin I Forumu**

# Demokratik cəmiyyət və qanunun aliliyi



**Bakıda Azərbaycan Hakimlərinin I Forumu keçirilib. 400-dən çox məhkəmə hakiminin, Məhkəmə-Hüquq Şurası üzvlərinin iştirak etdiyi forumun məqsədi hüquq ictimaiyyətini və cəmiyyəti ölkəmizdə gedən məhkəmə hüquq islahatları barədə məlumatlandırmaq olub.**

Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev bildirib ki, məhkəmə hakimiyyətinin möhkəmlənməsi və inkişaf etdirilməsi, məhkəmələrin maddi-texniki bazasının müasirləşdirilməsi, hakimlərin sosial müdafiəsinin yaxşılaşdırılması daim dövlət başçısının xüsusi diqqət mərkəzində olub: “Forumda ilk dəfədir ki, fəaliyyətdə olan bütün məhkəmə instansiyalarını təmsil edən hakimlərlə təqaüdə çıxmış hakimlər bir araya gəliblər. Bu gün məmnunluqla demək olar ki, ölkəmizdə məhkəmə-hüquq sistemində ardıcıl olaraq həyata keçirilən islahatlar nəticəsində insan hüquqlarının müdafiəsi, ədalət mühakiməsinin müasir standartlara uyğunlaşdırılması, məhkəmə hakimiyyətinin müstəqilliyinin və səmərəliliyinin artırılması məsələlərində böyük nailiyyətlər əldə olunub”.

Onun sözlərinə görə, cəmiyyət nə qədər inkişaf etsə də, ədalət mühakiməsinin əsas vəzifəsi və məqsədi insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasıdır.

Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxışında ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatlarından danışıb. Bu islahatların məhkəmə hakimiyyətinin nüfuzunun artmasına öz töhfəsini verdiyini qeyd edib: “Məhkəmə-Hüquq Şurası ölkədə ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi məqsədilə hakim korpusunun yeni nəsil gənc hüquqşünaslarla komplektləşdirilməsinin əhəmiyyətini nəzərə alaraq, ilk növbədə hakimliyə namizədlərin seçim prosedurunu təkmilləşdirməklə bu prosesin daha çevik xarakter almasına nail olub. Yuxarı instansiya məhkəmələrinin peşəkar kadrlarla komplektləşdirilməsi işi də davam etdirilir. Bu çərçivədə 60-dək təcrübəli hakim yuxarı instansiya məhkəmələrinə irəli çəkilib. Ötən qısa müddət ərzində 140-a yaxın hakimliyə namizəd seçilərək müxtəlif birinci instansiya məhkəmələrinə təyinat alıb ki, bu da hakim korpusunun say tərkibinin ilk dəfə olaraq ən yüksək həddə - 628 nəfərə çatdırılmasına imkan verib”.

Daha sonra forum panel müzakirələrlə davam edib.

Forum çərçivəsində Azərbaycan Hakimlər İttifaqının müxtəlif nominasiyalar üzrə təsis etdiyi “İlin hakimi” mükafatının təqdim edilməsi mərasimi olub. Belə ki, “Hakimliyə namizədlərin və hakimlərin tədrisində səmərəli fəaliyyətə görə” Ali Məhkəmənin hakimi Elşanə Vəliyeva, “Ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində hüquq elminin inkişafına verdiyi töhfəyə görə” Ali Məhkəmənin hakimi Zaur Əliyev, Şirvan Apellyasiya Məhkəməsinin hakimi Orxan İsmayılov, Nəsimi Rayon Məhkəməsinin hakimi Nail Abbasov, “Məhkəmə təcrübəsinin vahidliyinin formalaşmasına verdiyi töhfələrə görə” Ali Məhkəmənin hakimi Səyyad Kərimov, Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri Rafael Eyvazov, “Elektron Məhkəmə” informasiya sisteminin inkişafına verdiyi töhfəyə görə” Bakı Apellyasiya Məhkəməsinin hakimi Tural Qocayev “İlin hakimi” mükafatı ilə təltif olunublar.

Bundan başqa, Azərbaycan Hakimlər İttifaqının İdarə heyətinin üzvü Əsəd Mirzəliyev “Hakimlərin ictimai fəaliyyəti sahəsində səmərəli fəaliyyətə görə", “Femida Könüllüləri” Təşkilatının 4 könüllüsü isə “Məhkəmə-hüquq sistemində könüllülük fəaliyyətinin səmərəli təşkilinə görə” mükafatı ilə təltif ediliblər.

**XQ**

# Ermənistanla sərhədin delimitasiyası ən şimal nöqtədən başlanır

**Azərbaycan sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı öz mövqeyini Ermənistana qəti surətdə bildirib. Çünki bu məsələ həll olunmadan münasibətlərin normallaşması mümkün deyil. Azərbaycanın iki ölkə arasında əlaqələrin qurulmasının əsas prinsiplərinə dair Ermənistana təqdim etdiyi təklifində də bu, öz əksini tapıb.**






Azərbaycan – Ermənistan delimitasiya komissiyasının növbəti iclasında da iki ölkə arasında sərhədin delimitasiya məsələsi müzakirə ediləcək. Bu barədə Ermənistan baş nazirinin müavini Mqer Qriqoryan deyib. Nazir müavini tərəflər arasında hələ müzakirə edilməli olan məsələlərin qaldığını deyib. O, Tavuş istiqamətində delimitasiyanın ikinci mərhələsi üzrə qərarı tərəflər arasında bu məsələdə konsensusun olması ilə izah edib. Onun sözlərinə görə, görüş işçi qruplar səviyyəsində keçiriləcək. Tərəflər görüşlərin intensiv olacaqları barədə razılığa gəliblər.

Baş nazirin müavini bu il delimitasiya prosesinin Cermuka çatacağı ilə bağlı suala cavab verməkdə çətinlik çəkib. O bildirib ki, delimitasiya şimal nöqtədən başlayacaq. “Fikrimcə, bu prosesə başlamazdan əvvəl daha bir görüş olacaq, çünki hələ müzakirə olunası məsələlər var. Biz həmişə işçi qruplarında görüşürük”.

Mqer Qriqoryan deyib ki, sərhədin demarkasiyası ilə bağlı bütün məlumatlar açıqdır: “Biz son görüşdən sonra bütün məlumatları dərc etdik və işi necə davam etdirəcəyimizi bildirdik. İşçi görüşlərin nəticələrindən sonra da planlarımızı mütləq dərc edəcəyik. İndi görüşün konkret tarixini deyə bilmərəm, amma razılaşmalar var ki, onlar intensiv olmalıdır”.

Sərhədin dəqiqləşməsi isə, yuxarıda qeyd etdiyimiz kimi, hər iki ölkənin maraqlarına xidmət edir. Gələcək əməkdaşlıqda önəmli rol oynaya bilər. Artıq bu sahədə müəyyən nəticələr əldə olunub. Qazaxın 4 kəndi Azərbaycana qaytarılıb. Bu, Azərbaycanla Ermənistanın delimitasiya komissiyası tərəfindən əldə olunmuş razılaşmanın ikitərəfli əsasda aparılmış dialoq və qarşılıqlı anlaşma şəraitində keçirilmiş müzakirələrin nəticəsində mümkün olub. Delimitasiya işləri nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilib, dirəklər basdırılıb. Sərhəd dirəyinin quraşdırılması o deməkdir ki, Ermənistan və Azərbaycanın bir-birinə qarşı ərazi iddiası yoxdur. Onu da bildirək ki, Azərbaycan delimitasiya prosesi çərçivəsində bir qarış torpağını da Ermənistana verməyib. Azərbaycan regionda yaratdığı yeni reallıqlar fonunda diktə edən tərəf kimi öz sözünü deyib. Bu, 44 günlük müharibə və antiterror əməliyyatı zamanı qazandığımız Qələbənin davamıdır.

Onu da qeyd edək ki, delimitasiyanın Qazaxın işğal olunmuş kəndlərindən başlanmasını Azərbaycan təklif edib. Hər iki tərəfin konstruktivlik nümayiş etdirməsi sonda nəticə verdi. Bu, sərhədin bir hissəsində prosesin tam başa çatdırılması deməkdir. Yəni proses bundan sonra da uğurla yekunlaşarsa, o zaman artıq istinad edilməli bir təcrübə yaranmış olacaq. Bu, digər mürəkkəb, yaxud mübahisə doğuran sərhəd hissələrində də razılaşma üçün bir nümunə olmaqla münasibətlərin yaxşılaşmasına və qarşılıqlı etimadın formalaşmasına təsir edəcək. Həm də eksklavlarla bağlı porosesləri də sürətləndirəcək. Onun həlli prosesini yaxınlaşdıracaq. Azərbaycan tərəfi buna hazırdır.

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrinin birində deyib: “Əgər Ermənistan tərəfi onları indi – ikinci mərhələdə nəzərdən keçirmək istəyirsə, biz hazırıq. Onlar məsələyə sonra baxmaq istəyirlərsə, biz yenə də hazırıq. ...Düşünürəm ki, hər iki tərəf, yəni iki delimitasiya komissiyası növbəti addımlar üzərində razılığa gəlməlidir. Biz həmin məsələyə ayrıca epizod kimi baxılmasını istəmirik və delimitasiya işini davam etdirmək istəyirik. Təklif edirəm ki, iş bəlkə də ən asan hissədən başlasın. Əgər Ermənistan tərəfi ən çətin hissədən başlamaq istəyirsə, məsələn eksklavlar, biz onun üçün də hazırıq”.

Yada salaq ki, erməni işğalı altında olan anklav kəndləri – Yuxarı Əskipara, Sofulu və Barxudarlı və Kərki strateji cəhətdən çox önəmlidir. Bu kəndlər müxtəlif istiqamətlərə gedən strateji yollara nəzarət etməyə imkan verir. Gec və ya tez Ermənistan həmin 4 kəndi də Azərbaycana qaytarmaq məcburiyyətində qalacaq. Çünki o kəndlərin Ermənistana heç bir dəxli yoxdur.

Sadəcə, Ermənistanın daxilində bu mövzuda çox sərt diskussiyalar gedir. Radikal müxalifət yenə də hakimiyyəti satqınlıqda ittiham edir, Azərbaycanın bir hissəsinə iddia edən saxta xəritələr təqdim edirlər. Qarşıdurma davam edir. Bu səbəbdən də haylar onların Azərbaycana qaytarılmasını sonrakı mərhələyə saxlamaq istəyirlər. Bununla belə, anklavların Azərbaycan torpağı olduğunu da etiraf edirlər. Ermənistan baş naziri Nikol Paşinyan görüşlərin birində bildirmişdi ki, “Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında” saziş layihəsi ən azı 80-90 faiz razılaşdırılıb: “Bir-birinin ərazi bütövlüyünün qarşılıqlı tanınması ilə bağlı formulalar artıq tam razılaşdırılıb. Qarşılıqlı ərazi iddialarının olmaması və gələcəkdə belə iddialarla çıxış etməmək öhdəliyi haqqında, güc tətbiq etməmək və güc tətbiq etməklə hədələmə prinsipinə əməl olunması məsələsi üzrə razılıq əldə olunub. Bundan başqa, bir-birinin daxili işlərinə qarışmamaq, diplomatik münasibətlərin qurulması və sülh müqaviləsi tərəflərinin üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi üçün ikitərəfli mexanizmlərin yaradılması razılaşdırılıb”. Daha sonra o deyib ki, biz anklav gündəmini tərk edə bilmərik. Ermənistanın “Arsvaşen”in (Başkənd) timsalında bir anklavı var. Bundan imtina edə bilmərik. Azərbaycanın anklav məsələsini qaldırıb-qaldırmamasından asılı olmayaraq, bu məsələni gündəmdə saxlamaqda maraqlıyıq. Bu mövzu istər-istəməz müzakirələrimizin predmeti olacaq və hər birimiz öz arqumentlərimizi irəli sürəcəyik.

Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirdi ki, Azərbaycanla Ermənistan arasında sərhədlərin müəyyənləşməsi prosesi davam edir: “Danışıqlar zamanı Azərbaycanın maraqlarına zidd nə varsa, əlbəttə, qəbul etməyəcəyik. Ona görə də sərhədlərin müəyyənləşdirilməsi qarşılıqlı razılaşma ilə həyata keçirilməlidir.

Şimal bölgəsindən başlayaraq sərhədlərin dəqiqləşdirilməsi nəticəsində biz uzun illər Ermənistan işğalı altında olan dörd kəndimizi geri qaytarmışıq. Düzdür, hələ bu kəndlərə sakinlərin köçürülməsi həyata keçirilməyib. Bunun səbəbləri var. Ermənistan torpaqlarımızı işğal etdikdən sonra adəti üzrə ərazini minalayıb. Hazırda həmin ərazi minalardan tam təmizlənməyib. Yaşayış evləri də haylar tərəfindən dağıdılıb. İnanıram ki, qısa müddətdə bu problemlər öz həllini tapacaq, bu yaşayış məntəqələrinin sakinləri öz evlərinə qayıdacaqlar. Üstəgəl, sərhədlərin digər istiqamətində də dəqiqləşmə işləri davam edir”.

E.Şahinoğlu daha sonra deyib: “Harada mümkünsə, əlbəttə, orada sərhədlər müəyyənləşdirilir. Onu da qeyd edək ki, haylar bəzən sərhədlərin müəyyənləşdirilməsi üçün müxtəlif xəritələr təklif edirlər. Bildirirlər ki, 1978-ci il xəritəsi onların ziyanınadır. Guya həmin dövrdə Azərbaycan tərəfinə 5,6 kvadratkilometr ərazi verilib. 1976-cı il xəritəsi isə maraqlarına daha uyğundur.

Hayastan rəsmiləri çox şey deyə, müxtəlif xəritələr ortaya ata bilərlər. Sərhədlərin müəyyənləşdirilməsi Azərbaycanın milli və təhlükəsizlik maraqlarına uyğun olmalıdır. Harada uyğundursa, orada Ermənistanla razılıq əldə edə bilərik. Harada sərhədlərin müəyyənləşdirilməsi bizim maraqlara ziddirsə, əlbəttə, razılaşa bilmərik. Məsələn, Hayastan bəzi ərazilərin boşaldılmasını istəyir. Biz buna gedə bilmərik. Bu ərazilər strateji yüksəkliklərdi. Ermənistan 30 ildir torpaqlarımızı, sərhədlərimizi işğal etmişdi. Həmişə ölkəmizə qarşı təxribatlar törətməkdə maraqlı olublar. Bu yüksəkliklər bizim nəzarətimiz altında qalacaq. O ərazidə geri addım ata bilmərik. Çünki yüksəkliklərə nəzarəti ələ keçirməklə təxribatlarını davam etdirəcəklər. Bu, onların qanında var. Sözsüz ki, bu istiqamətdə danışıqlar davam edəcək”.

Xatırladaq ki, baş nazirlərin müavinləri səviyyəsində görüşdə dövlət sərhədinin delimitasiyası üzrə kompleks işlərin şimal sahəsindən başlayaraq Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Gürcüstanın sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının İran İslam Respublikası ilə sərhədinə qədər başlanması barədə razılığa gəliblər. Bildirilib ki, sərhədlərin delimitasiya və demarkasiyası sülh müqaviləsinə aparan ən düzgün yoldur.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Sumqayıt – erməni məkrinin günahsız ünvanı

**"Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı idi. Biz bunu açıq deməliyik. Çünki artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirlər. Tamamilə əsassızdır və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir. Biz hamımız yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Qriqoryan və onun quldur dəstəsi idi.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**(2019-cu il noyabr ayının 21-də Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş tədbirdəki nitqindən)**

**Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzi və dünyanın 19 şəhəri ilə qardaşlıq əlaqələri olan Sumqayıtda 1988-ci ildə törədilən hadisələr o zaman aydın səmada şimşək kimi çaxdı. Bura Kremldə hazırlanan ssenari əsasında erməni sakinlərinin qətlinə səbəb olan qanlı aksiyaların ünvanı kimi göstərildi. Əslində, bu, ağ yalan idi, çünki hadisələr Qərbi Azərbaycandakı soydaşlarımızı oradan qovmaq, qondarma DQMV-ni Azərbaycandan ayırıb Ermənistana qatmaq niyyəti ilə elə onların öz əlləri ilə törədilmişdi.**





SSRİ paytaxtındakı havadarlarına güvənən daşnaklar qəsdən antierməni iğtişaşları törətdikdən sonra "Sumqayıtda erməni genosidi!" deyə bağıraraq, bu şəhəri və bütövlükdə Azərbaycanı dünya ictimaiyyətinin gözündən salmağa çalışdılar və ardınca da məsələ qaldırdılar ki, Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması təhlükəlidir, onu Ermənistana birləşdirmək lazımdır. Elə bu həyasız hay-küyün davamı olaraq, çox keçmədən Ermənistandan azərbaycanlıların mütəşəkkil surətdə, silah gücünə qovulmasına start verildi. 1988-ci il noyabr ayının 28-dən dekabrın 7-dək erməni separatçıları və millətçiləri basqın edib azərbaycanlılar yaşayan 22 rayonun 185 yaşayış məntəqəsinin sakinlərini kütləvi şəkildə ata-baba yurdlarından çıxartdılar. Həmin günlərdə 217 nəfər azərbaycanlı öldürüldü. Kənd rayonları arasında Quqark və Vardenis (Basarkeçər), şəhərlər arasında isə Masis (Zəngibasar) bölgəsində daha çox azərbaycanlı qətlə yetirildi. Sonrakı mərhələdə isə Dağlıq Qarabağ münaqişəsi alovlandırıldı, muxtar vilayətə daxil olan 5 və onun ətrafında yerləşən 7 rayon Ermənistan tərəfindən işğala məruz qaldı, 1 milyon soydaşımız doğma yurd-yuvasından qaçqın düşdü.

O zaman Ulu öndər Heydər Əliyev Moskvada tutduğu vəzifələrdən istefa vermişdi. Azərbaycana rəhbərlik edənlər isə mərkəzin müti qulları kimi davranır, haqq səsimizi heç hara çatdıra bilmirdilər. Millətlərarası ədavəti qızışdırmaq, xaos yaratmaq keçmiş SSRİ-də "yenidənqurma" siyasəti elan etmiş Mixail Qorbaçovun "islahat"larının tərkib hissəsi idi. Onu əhatə edən ermənilər və ermənipərəst qüvvələr milli məsələlərdə rəhbərə müxtəlif məsləhətlər verir, Ermənistanın xeyrinə ola biləcək problemlərin həllini önə çəkirdilər. Məlumdur ki, akademik Aqanbekyanlar Dağlıq Qarabağ məsələsini qaldıran zaman Qorbaçov onlara hər cür köməklik göstərəcəyini vəd eləmişdi.

Ermənilərin torpaq iddialarının dalğasında törədilmiş Sumqayıt hadisələri mahiyyətcə SSRİ-nin süqutu proseslərinin ilk həlqəsi oldu. Sonra Fərqanədə, Vilnüsdə, Tbilisidə, Novı Uzendə bir-bir növbəti həlqələr də qırılmağa başladı və böyük bir ölkənin tarixi çöküşü sürətləndi. Əgər Dağlıq Qarabağ təxribatı – süni yolla yaradılan bu ocaq Moskva tərəfindən vaxtında söndürülsəydi, sonrakı proseslər və münaqişələr də olmazdı. Sumqayıt olayları isə, göründüyü kimi, Qarabağın Azərbaycandan qoparılmasına güclü təkan verəcək ilkin vasitələrdən biri idi.

Artıq sübut olunub ki, həmin ssenari SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin başbilənləri ermənilərin özləri ilə birgə cızılmış və həyata keçirilmişdir. Mərhum siyasətçi Vladimir Jirinovski SSRİ-nin çökməsinin başlanğıcı olan Sumqayıt hadisələrində, ilk növbədə, Mixail Qorbaçovu müqəssir sayaraq bildirmişdi ki, o, ABŞ-ın casusudur. Jirinovski açıq şəkildə demişdi: "Sumqayıt faciəsində Qorbaçovla yanaşı, keçmiş SSRİ DTK-sı, Hərbi Sənaye Kompleksi də məsuliyyət daşıyır. Ermənistan isə böyük bir oyunda alət olduğunu dərk edir, lakin büruzə vermək istəmir. Çünki torpaq iddiasındadır".

Hadisələrin canlı şahidi kimi deyə bilərəm ki, hələ bir neçə gün əvvəl 100-dən çox saqqallı və qara gödəkçəli erməni ekstremisti Sumqayıta göndərilib. Onlar şəhərin "Dalğa" və "Sumqayıt" mehmanxanalarında gecələyiblər. Lenin meydanında, bazar və univermaq ətrafında camaatı başına toplayan bu naməlum şəxslər özlərini Ermənistandan qaçmış soydaşlarımız kimi qələmə verir, ermənilərin onlara necə divan tutduqlarından "yana-yana" danışırdılar. Əhali arasında təbliğatla kifayətlənməyən emissarlar pul paylamaqla səbatsız gəncləri və azyaşlıları məkrli niyyətlərinə qoşdular. Qızışdırıcı, təxribat ruhlu söhbətlər təsirsiz qalmadı. Təhrikçilər şəhərdəki qeyri-sağlam qüvvələri cürbəcür şüarlarla meydana topladılar. Mitinqlər başlandı və Sumqayıtda yaşayan ermənilərə divan tutmaq çağırışları eşidildi. Şəhərin bəzi başbilənləri əhalini şayiələrə uymamağa, təmkinli olmağa çağırsa da, artıq gec idi, düşmən öz işini görmüşdü.

Təxribat planının reallaşması nəticəsində 3 gündə Sumqayıtda ümumən 32 nəfər, o cümlədən 26 erməni öldürüldü, 400-dən çox insan xəsarət aldı, 200-dən artıq mənzil talan edildi, 50-dən çox mədəni-məişət obyekti dağıdıldı, 40-dan çox avtomobil yandırıldı, bir sözlə, şəhərə o vaxtın qiymətləri ilə 7 milyon rubl və ya 10 milyon dollar məbləğində ziyan vuruldu...

Sumqayıt qırğınlarının fəal təşkilatçılarından erməni Ohanyanın, Samoylov və Pavlovskinin adları uzun müddət mətbuatdan gizli saxlanılıb. "Əsər"in baş qəhrəmanı seçilmiş şəxsin adını isə ört-basdır etmək alınmayıb. O, iki dəfə məhkum olunmuş "Paşa" ləqəbli erməni Eduard Qriqoryan idi. Hadisələrin təşkilatçısı kimi azərbaycanlı Əhməd Əhmədovun güllənməsinə baxmayaraq, təkzibedilməz faktlar və şahid ifadələri əsl "kapitan"ın məhz Qriqoryan olduğunu göstərib.

"Krunk" cəmiyyətinin fəal üzvlərindən olan, cinayətə meyilli Paşanın gözünü qan örtmüşdü, bu ədabaz gizlində özünü millətinin qəhrəmanı sayırdı. Hadisələrdən öncə təlimat almaq üçün dəfələrlə Xankəndinə gedib-gəlibmiş. Beli bağlı olduğuna görə heç nədən çəkinmirdi. Qanlı aksiyalarda isə özü şəxsi "nümunə" göstərərək 6 ermənini öldürdü, bir neçə erməni qızını zorladı. Cinayətkar qruplar onun dirijorluğu ilə hərəkət edirdi. Paşanın cəza qruplarını talan və qətllər üçün yönəltdiyi ünvanlar isə "Krunk"a haqq ödəməyən ermənilərin mənzilləri idi.

O vaxt zərərçəkmiş Sumqayıt sakini L.Mejlumyan bildirmişdi: "Qriqoryan mənim mənzilimə daxil oldu, sındırdığı stulun ayaqları ilə xəstə anama zərbələr endirdi, bu vaxt mən bir neçə dəfə müqavimət göstərməyə çalışdım, ancaq gücüm çatmadı, o, məni yerə yıxaraq, istədiyini etməyə başladı".

Sonralar Ermənistanın prezidenti olmuş Levon Ter-Petrosyan da məkrli planı aşkar etiraf etmişdi: "Sumqayıt hadisələrindən sonra Azərbaycan xalqı şok vəziyyətinə düşmüşdü. Əgər ölkə rəhbərliyi bu məqamdan istifadə edib DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar çıxarsaydı, Azərbaycan xalqı buna etiraz edə bilməyəcəkdi". – Bu sözlər də sübut edir ki, Sumqayıt faciəsi ermənilərə öz separatçılıq aksiyalarını həyata keçirməkdən ötrü lazım idi.

SSRİ Ali Məhkəməsinin 15 noyabr 1988-ci ildə keçirilmiş məhkəmə iclasında SSRİ Baş Prokurorunun köməkçisi Kozlovskinin söylədikləri də maraqlıdır: "Talanlara çoxlu keçmiş məhbus cəlb edilmişdi. İştirakçılar arasında ruslar, ləzgilər, ermənilər də var idi".

Bu isə İsveçdə yaşayan erməni siyasi xadim və yazıçı Vaqe Avetyanın etirafıdır: "Həmin dövrdə yaşanan hadisələri azərbaycanlılar deyil, SSRİ rəhbərliyi ermənilərin köməyilə həyata keçirib. Ermənilər Qarabağı qonşularından alıb dünyaya göstərmək istədilər ki, necə ağıllı, qədim keçmişə malik xalqdırlar. Eləcə də demək istədilər ki, azərbaycanlılar necə pis xalqdır".

Onu da xatırladaq ki, məhkəmənin qərarı ilə 12 il azadlıqdan məhrum edilən E.Qriqoryan – Paşa cəzasını çəkmək üçün Ermənistana köçürülüb və daha sonradan azadlığa buraxılıb...

Ermənistan rəhbərləri və xaricdəki erməni icması bu gün də Sumqayıt hadisələrindən məqsədləri üçün gərəkli bir kart kimi istifadə edir, azərbaycanlıları qaniçən bir millət obrazında dünya ictimaiyyətinə təqdim etmək istəyirlər. Ermənistan Xarici İşlər Nazirliyinin Sumqayıt hadisələri ilə bağlı 27 fevral 2025-ci il tarixli bəyanatı bu saxtalaşdırmaya bariz misaldır. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistan XİN-in Sumqayıt hadisələri ilə bağlı bəyanatına dair şərhində bildirib: "Bu bəyanat 1980-ci illərin sonlarından başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız və qeyri-qanuni ərazi iddialarını həyata keçirmək məqsədilə zorakılıq əməllərini, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalinin kütləvi qovulmasını, Azərbaycan xalqına qarşı terroru, etnik zəmində təxribatları və hərbi gücdən istifadəni ört-basdır etmək cəhdləridir. Ermənistan XİN-nə xatırladırıq ki, Sumqayıtda etnik zəmində törədilən iğtişaş SSRİ və Ermənistan rəhbərliyinin, erməni şovinist ideoloqların və ekstremist təşkilatların öncədən düşünülmüş və planlaşdırılmış məqsədyönlü təxribatlarının tərkib hissəsi idi..."

Şərhin sonunda bildirilir ki, Ermənistan tərəfi guya ermənilərə qarşı 2023-cü ildə "etnik təmizləmə" siyasəti həyata keçirildiyi barədə iddialar səsləndirmək əvəzinə, nəinki indiki Ermənistan ərazisində, eləcə də işğal dövründə azərbaycanlılar və Azərbaycan irsinə qarşı törətdiyi cinayət əməllərinə nəzər yetirməsi daha faydalı olardı.

***Ə.DOSTƏLİ***
***XQ***

**Azərbaycan milli mətbuatı – 150**

# Milli radionun təşəkkülü və inkişaf mərhələləri

*(əvvəli 19,23 fevral 2025-cil tarixli sayımızda)*

**İKİNCİ MƏQALƏ**

2 il əvvəl – 1925-ci ilin sonunda radiostansiya açmaq üçün görülən tədbirləri sınaqdan keçirməyə, təcrübələr aparmağa başlananda Bakıda bir ədəd 10 kilovat gücü olan qığılcımlı stansiya vardı. Azərbaycan radiosunun bir yaşı tamam olanda 110-dan çox stasionar, 36 səyyar radio qurğusu fəaliyyət göstərirdi. 1927-ci ilin fevral və mart aylarında verilişlərin yayım saatını artırmaq məqsədi ilə kollektivə yeni kadrlar toplanışına başlanılmışdı.

Fevralın 16-da Azərbaycanın paytaxtında Bakı Şəhər Partiya Komitəsi Radiostansiyasının fəaliyyətini müzakirəyə çıxaran böyük və geniş tərkibli müşavirə keçirildi. Müşavirədə radionun texniki təminat məsələləri müzakirə olundu, perspektiv saat artımı nəzərə alınaraq maliyyə imkanları əsaslı şəkildə araşdırıldı. Mövcud çatışmazlıqları aradan qaldırmaq üçün geniş qərar qəbul olundu. Qərarda göstərilirdi ki, Bakı radiostansiyasının yeni texniki imkanlarının qısa müddətdə istismara buraxılması Xalq Poçt-Teleqraf Komissarlığına tapşırılsın. Eyni zamanda qərara gəlinmişdi ki, komissarlıq radionun verilişlərinin səslənməsini hər gün saat 18-dən 24-ə qədər fasiləsiz şəkildə təmin etsin.

Qərarda həmçinin "Bakı rayonlarının radiolaşdırılmasını sürətləndirmək, şəhərdə yardımçı translyasiya məntəqələri qurmaq, müəssisələrdə, camaatın gur olduğu küçələrdə və klublarda, mədəniyyət saraylarında əlavə səsucaldanlar quraşdırmağın zəruriliyi bildirilmişdi. Yaradıcı işçilərin qarşısında isə yaxın dövr üçün forma və məzmunca yeni radioproqramlar tərtib etmək vəzifəsi qoyulurdu" (Y.Əlizadə, Q.Məhərrəmli, "Azərbaycan efiri". – Bakı: Nurlan, 2006)

Radionun iki yaşının tamamında efirdə "Satira atəşiylə", "Ədəbiyyatın vəzifələri", "Yeni həyat uğrunda", "Radio saatı" verilişləri vardı. Xalq Komissarları Sovetində nəzərdə tutulan Əsasnamənin geniş müzakirəsi oldu. Sonra radionun perspektiv planlar üçün 1928-ci il mayın 13-də Azərbaycan Xalq Komissarları Sovetinin "Radio Verilişləri və Radiolaşdırma Komitəsi Haqqında Əsasnamənin Təsdiq Edilməsi" qərarı oldu.

Təsdiq edilmiş əsasnamənin birinci bəndində yazılıb: "Azərbaycan SSR hüdudları daxilində radio verilişləri və radiolaşdırma işinin birləşdirilməsi məqsədi ilə Azərbaycan SSR Xalq Komissarları yanında Radio Verilişləri və Radiolaşdırma Komitəsi ("Azərradio") təşkil edilir". Qərarda həmçinin Radio Verilişləri və Radiolaşdırma Komitəsinin Tərkibi təsdiqləndi, onun vəzifələrinə daxil olan məsələlər, vəsaitinin necə yaranması müəyyənləşdirildi, "Azərradio"nun hüquqi səxs kimi əsas səlahiyyətləri göstərildi, ona özünün dövlət gerbi möhürünə malik olmaq hüququ verildi.

Komitə hüququ alan "Azərradio"-nun bütün bədii və texniki təminatı, kadr strukturu, fəaliyyət prinsipləri və məqsədləri tamamilə yenidən quruldu. Kollektiv özünün yaxın üç illik üçün yaradıcılıq layihə-planlarının əsas müddəalarını hazırladı və yüksək ruh yüksəkliyi, yaradıcılıq ehtirası ilə işləməyə başladı. SSRİ miqyasında 7 noyabr 1928-ci ildə Moskvada keçirilən radiosəsləşmə tədbirlərində və müzakirələrində beş böyük şəhərlə birlikdə Bakı radiostansiyasının nümayəndələrinin iştirakı böyük hadisəyə çevrildi.

Bu hadisə milli radiomuzun böyük uğuru və inkişafı kimi qiymətləndirilib. Həmin il 1 dekabrda Azərbaycan radiostansiyasında ictimai-siyasi təbliğatı gücləndirmək məqsədilə fəhlə radiostansiyası təşkil edilib və ora xüsusi təbliğatçılar cəlb olunublar.



Radioda sosial-siyasi, ideoloji-maarifçi işlərin efirə verilməsi aşağıdakı sistemlə aparılırdı:

a) Radioqəzetlər, radio jurnallar, "İşçi günortası";

b) Müxtəlif mövzularda fəhlə radio universitetləri;

c) Əvvəlcədən hazırlanan və studiyadan yayımlanan müxtəlif mövzularda xüsusi məruzələrin oxunuşu:

ç) Gənclərin siyasi görüşlərini artırmaq üçün təbliğatı gücləndirmək, onlarla sosial-maarifləndirmə işləri aparmaq üçün "Komsomolçular saatı";

d) Rəsmi Dövlət və Hökumət, müxtəlif komissarlıq yığıncaqlarının translyasiyası. Həmçinin elmə, mədəniyyətə, kənd əməkçilərinə həsr olunan verilişlər şəbəkəsini daim genişləndirmək əvvəlcədən müəyyənləşdirilən vaxt daxilində efirə çıxırdı.

Bu materiallar, konsertlər də daxil olmaqla, radioda səslənən verilişlərin yarıdan çox faizini təşkil edirdi.

Təbliğata kütləvi xarakter vermək məqsədilə iri sənaye müəssisələrindən Leytenant Şmidt adına maşınqayırma, Montin və Vorovski zavodlarında, Lenin adına toxuculuq fabrikində, Böyük dəyirmanda, Bakı deposunda radiomitinqlər təşkil olunurdu. Həmin tədbirlərdə yüzlərlə, bəzən mindən çox adam iştirak edirdi.

Ölkədə savadsızlığı ləğv etmək istiqamətində aparılan müxtəlif məzmunlu tədbir və təbliğatı gücləndirmək məqsədilə ilin sonunda, dekabrın ilk günlərində fəhlə radio universitetləri yaradılmışdı. Burada məşhur alimlər, elm, təhsil mütəxəssisləri həm radio ilə mühazirələr oxuyurdular, həm də studiyanın nəzdində əməkdaşlara təcrübi məşğələlər keçirdilər.

1928-ci ildə Raya İmanzadə və Ənvər Həsənov da tam ştatda diktorluq fəaliyyətinə başladılar. Az sonra radionun uzunömürlü diktorlarından olan Soltan Nəcəfov da onlara qoşuldu. 1928 – 1932-ci ildə Azərbaycanda birinci beşillik yarandı. Beşillik ilk növbədə respublikanın iqtisadi, sənaye, aqrar sahələrinin sürətli inkişafının təkanı kimi nəzərdə tutulmuşdu.

**(ardı var)**

***İlham RƏHİMLİ,***
***sənətşünaslıq doktoru, professor,***
***Əməkdar incəsənət xadimi***

Günün sualı

**“Məktəbdə yaxşı oxuyurdum, amma özümü həmyaşıdlarımdan fərqli hiss edirdim. Dərsdə diqqətimi cəmləməkdə və imtahan suallarını başa düşməkdə çətinlik çəkirdim”.**

# Diqqətsizlik ötəri haldır, yoxsa xəstəlik?

## *Bu sual hələ də əhatəli və dəqiq cavabını gözləyir*

Bunu Türkiyədən olan 38 yaşlı Ayşən müəllim öz həyat hekayəsindən söz açarkən deyib. Yetkinlik həyatındakı çətinliklər onu diqqət çatışmazlığı hiperaktivlik pozuntusu (DEHB) yaşamağa gətirib çıxarıb. Həkimlərin fikrincə, Ayşən dünyada yuxarı yaşda bu xəstəliyə tutulan çox sayda qadınlardan biridir və onların sayı getdikcə artır.

Ayşən Böyük Britaniyada coğrafiya üzrə dissertasiya üzərində işlədiyi illərdə zehni gərgilik onu hədsiz dərəcədə yorur. O, diqqətini cəmləyə bilmir və emosiyaya qapılıb özünü tükənmiş hiss edir. Tez-tez işə gecikir, görüşlərin vaxtını, günləri qarışdırır, pul qabı və ya açar kimi əşyaları itirir

Nəticədə, özünə inamı tamamilə itirməsi səbəbindən Ayşən İngiltərədə təhsil almaq üçün çox böyük əziyyətlə qazandığı yüksək dövlət təqaüdündən məhrum olur və böyük bir borcla Türkiyəyə qayıtmaq məcburiyyətində qalır. Lakin ona diqqət çatışmazlığı hiperaktiv pozuntu – DÇHP (bu diaqnoz Türkiyədə DEHB – diqqət əksikliyi hiperaktiv pozuntu kimi tanınır) diaqnozu qoyulduqda, bu, həyatında əsl sıçrayış kimi özünü göstərib. Ayşə bildirib ki, bu diaqnozu eşitdikdə həyatında ilk dəfə düşüncələrini və hisslərini idarə edə bilən yetkin bir insan saymağa başlayıb.

### Bəs Ayşənin həyatını dəyişən nə olub?

Diqqət çatışmazlığı hiperaktivlik pozuntusu beyin inkişafı ilə əlaqəli bir vəziyyətdir. Əsas simptomlar hiperaktivlik, impulsiv davranış və konsentrasiya problemləridir. Xəstəliyin başqa bir əlaməti hiperfokusdur, yəni hansısa obyektə dərin fiksasiyadır. Psixiatrların fikrincə, yüz milyonlarla insan çox vaxt bunu bilmədən DEHB ilə yaşayır. Bu, dünyada ən çox rast gəlinən uşaqlıq pozuntularından biridir. Əvvəllər yalnız hiperaktiv oğlanlarla əlaqələndirilsə də, getdikcə bütün yaşlarda və fərqli cinslərdə bu diaqnoz qoyulur. Psixatrların fikrincə, böyüklər bu xəstəliyə tutulduqlarını çox gec öyrənirlər, xüsusən də uşaq ikən həkimlərə müraciət etməyən Ayşən kimi qadınlar.

### Böyüklərdə DEHB əlamətləri

Yaşlı insanlarda DEHB simptomları uşaqlarda müşahidə olunanlardan fərqli ola bilər. Milli Psixi Sağlamlıq İnstitutuna görə, böyüklərdə DEHB-nin ən çox görünən əlamətləri bunlardır: konsentrasiyanın tez-tez itirilməsi; qeyri-mütəşəkkillik və adi süründürməçilik; vaxtın zəif idarə edilməsi; əşyaların itirilməsi, gündəlik işlərdə unutqanlıq; başqalarının sözünü kəsmək və ümumiyyətlə, çox danışmaq vərdişi; layihə üzərində fikri toplamaq və onu tamamlamaqla bağlı problemlər; daimi fəaliyyət və ya stimullaşdırma ehtiyacı; gələcəkdə olan mükafatlardan daha çox indiki mükafatlara üstünlük vermək.

Düşünmək olar ki, belə hallar hər kəsdə müşahidə edilir. DEHB olan insanlarda bu davranışlar şiddətli, tez-tez və müntəzəm olaraq baş verir və onların gündəlik həyatına müdaxilə kimi özünü göstərir.

### Diaqnozda gender fərqi

Böyük Britaniyanın Kral Psixiatrlar Kollecində DEHB ilə bağlı araşdırmalar aparan psixatr Ulric Müller-Sedgvick deyib ki, düzgün diaqnozun qoyulması insanın həyatında böyük dəyişiklik yarada bilər: “Mən məhkəmələrdən keçərək övladlarının hiperaktivliyinə görə, onları uşaq xidməti müəssisələrinə verən anaları çox görmüşəm. Acınacaqlı odur ki, biz DEHB diaqnozunu qoyub müalicə etdikdən sonra da həmin anaların uşaqlarını geri götürmədiklərinin şahidi olmuşam”.

Hesablamalara görə, hər dörd oğlana orta hesabla bir qız nisbətində DEHB diaqnozu qoyulur, böyüklər arasında isə bu fərq 2:1-ə yaxınlaşaraq daralır.

Ümumdünya Səhiyyə Təşkilatının Beyin Sağlamlığı Bölməsinin sözçüsü Çiara Servilinin sözlərinə görə, diaqnoz dərəcələrinin “qızlarda simptomların necə təqdim edildiyi və tanındığına görə” fərqli olduğunu təsdiqləyən sübutlar var. Alimlər hesab edirlər ki, DEHB oğlanlarda qızlara nisbətən daha çox aşkarlanır, çünki onların simptomları daha qabarıq və diqqətçəkən olur.

Bir çox ekspertlər qeyd edirlər ki, valideynlər və müəllimlər də qızlarda DEHB əlamətlərinin oğlanlara nisbətən daha az müşahidə edildiyini bildirirlər: “DEHB olan stereotipik qız, sinifdə çox problem yaratmayan xəyalpərəst bir şagirddir və onun bu vəziyyəti tez aşkar edilmir. DEHB olan oğlanlar isə məktəb ətrafında qaçır, nizam-intizamı pozur, daha çox problem yaradır. Buna görə də onların davranış pozuntusu daha tez görünür və sınaqdan keçmək üçün müayinəyə göndərilir”.



Doktor Müller-Sedgvick bu məsələni belə izah edir: “Biz düşünürük ki, qızlar və qadınlar bu məsələdə “maskalana” bilirlər və ona görə də, “onlarda heç bir problemi yoxdur” kimi fikir formalaşır”. Çiara Servili isə bildirib ki, qızlarda DEHB diaqnozunun gec və ya ümumiyyətlə, qoyulmamasına səbəb olan digər mühüm amil sosial gender normaları və gözləntiləridir. Genetikanın, hormonal amillərin və yetkinliyin fərqli DEHB simptomlarına necə təsir etdiyinə dair daha çox araşdırmaya ehtiyac var. Çünki getdikcə daha çox qadın öz diaqnozunu öyrənmək istəyir?

Çoxsaylı tədqiqatlar göstərir ki, DEHB diaqnozunda gender fərqi yetkinlik dövründə daralır. Bunun əsas səbəblərindən biri qadınların “kişilərdən daha çox psixiatriya yardımına müraciət etmələridir”. Bu qənaətə DEHB olan insanların nisbətinin qlobal orta göstəricidən yüksək olduğu Türkiyədəki Səlcuq Universiteti Tibb fakültəsinin psixatrı Əli Qandəyər gəlib.



Digər türkiyəli psixiatr uzman Didəm Sücüllüoğlu Dikici isə bununla bağlı deyib ki, son illər onlarca qadında bu xəstəlik diaqnozunu təsdiqləyib. Onun xəstələri həkimin yanına depressiya və yorğunluqdan şikayət edərək gəlir və çox vaxt DEHB olduğunu bilmirlər. Onların arasında “işdə uğur qazanan və hər şeyi idarə etməyi sevən” qadınlar da var. Lakin uğur onların özlərinə qalib gəlmələri üçün yorucu vasitəyə çevrilir.

Doktor Müller-Sedgvick, həmçinin “DEHB diqnozunu tükənmişlik, böhran adlanan hal” yaşadıqdan sonra kömək axtaran bir çox qadına qoyduğunu bildirib. Əlavə edib ki, DEHB diaqnozu qoyulmuş bir çox qadın bu xəstəlikdən xəbərsizdir. Onun xəstələri arasında bəlli keçid dövründə olan əlamətləri yaşayan 40 yaşdan yuxarı qadınlar qrupu var. “Bu əlamətlərin bəziləri koqnitiv xarakter daşıyır. Onlarda DEHB ilə əlaqəli mövcud diqqət çatışmazlığı şiddətlənə bilər”.

### Statistika nə deyir?

Son illərdə bir çox ölkələrdə DEHB diaqnozu qoyulan insanlara daha çox rast gəlinir. Məsələn, İngiltərədə son 10 ildə DEHB müalicəsi üçün dərman təyin edilən xəstələrin sayı demək olar ki, üç dəfə artmışdır. Statistikaya görə, ABŞ-da 2022-ci ildə 2016-cı illə müqayisədə, müəyyən məqamlarda DEHB diaqnozu qoyulmuş 3–17 yaşlı uşaqların sayı bir milyon artıb. 2023-cü ildə aparılan bir araşdırma, koronavirus pandemiyası zamanı bütün dünyada həkimlər tərəfindən təyin olunan dərmanların sayında azalma, sonra isə kəskin artım aşkarladı.

İnsanları bu sual daha çox düşündürür: DEHB insanların texnologiyaya–gadjetlərə nə qədər vaxt sərf etmələri ilə əlaqədardırmı? Bir çoxları bu gün uşaqların və böyüklərin kompüter və telefonlara sərf etdiyi həddən artıq vaxtdan getdikcə daha çox narahat olur və bununla DEHB-nin artması arasında əlaqənin olub-olmaması ilə maraqlanır.

DEHB olan və olmayan uşaqların ekran qarşısında nə qədər vaxt keçirdiklərini araşdıran tədqiqatlar var. Onlar ümumiyyətlə, DEHB olan uşaqların ekranda daha çox vaxt keçirdiklərini göstərir. Amma doktor Müller-Sedgvick deyir ki, bu, bir növ tam təsdiqlənməmiş sualdır. Amma tədqiqatlar göstərir ki, ekranda uzun müddət qalmaq DEHB olan uşaqlarda simptomları artırır. O izah edir ki, sosial media və video oyunları DEHB olan insanları dopaminlə təmin edir. Dopamin öz növbəsində beyinin fəaliyyətini saxlayır. Tədqiqatlar göstərir ki, ekran vaxtının DEHB-yə gətirib çıxara biləcəyini tam qiymətləndirmək çətindir və hələlik bunu təsdiqləyən ciddi dəlil yoxdur.

### DEHB necə müalicə olunur?

DEHB diaqnozu qoymaq üçün xəstənin həyat tərzini ətraflı öyrənmək lazımdır. Həkimlər həmçinin uşaqlıqda ortaya çıxan xəstəliyin əlamətlərini də axtarmalıdırlar. Məsələn, Böyük Britaniyada həkimlər dərman təyin etməzdən əvvəl ilk olaraq “məqbul uyğunlaşma” və “ətraf mühitin dəyişdirilməsi”ni təklif edirlər.

Dərmanlar adətən stimulyantlar, amfetaminlər və ya metilfenidatlardır ki, beyində müəyyən kimyəvi maddələrin səviyyəsini artıraraq DEHB simptomlarını azaldır. Yanlış istifadə olunarsa, bu dərmanlar asılılıq yarada bilər. DEHB dərmanları düzgün istifadə edilməlidir. Dərman qəbul edə bilməyənlər üçün həkimlər koqnitiv davranış terapiyası tövsiyə edirlər. Bu, simptomları daha dərindən başa düşməyi və xəstəliyin təzahürlərini daha yaxşı idarə etməyə imkan verən xüsusi bir rejimə riayət etməyi əhatə edir.

Psixiatr Əli Qandəyər də diqqəti indiki məqama yönəltməyə kömək etmək üçün fiziki fəaliyyət və zehinlilik məşqlərini tövsiyə edir: “Məsələn, yemək yeyiriksə, bu müddət ərzində telefonumuzda heç nəyə baxmamağa çalışmalıyıq. Və nəyisə izləyiriksə, prosesi sürətləndirməməyə çalışa bilərik. Sadəcə gəzdiyimiz, oturduğumuz və düşüncələrimizin öz-özünə axmasına icazə verdiyimiz anlara daha çox ehtiyacımız var”.



### Ölkəmizdə vəziyyət necədir?

**Uzman psixiatr Fuad Bəşirov deyir:**

– Diaqnoz DEHB, DÇHP, DÇHS (diqqət çatışmazlığı hiperaktivlik sindromu) kimi tanınan, psixoloji problemdir. Uşaqlar kiçik yaşlarda olanda, xüsusən, 4 yaşdan əvvəl müşahidə olunan həddindən artıq hərəkətlilik normal inkişaf xüsusiyyətlərindən hesab edilir. Diqqət əskikliyi hiperaktivlik sindromu diaqnozu, əsasən, məktəb dövrünün ilk illərində öz mənfi təsirlərini biruzə verdiyi vaxt qoyulur. Bu pozuntu adətən, yeniyetməliyin sonuna qədər qalır. Yeniyetməlik və gənclik dövründə həddindən artıq olan hərəkətlilik azalır. Plan qura bilməmək, dağınıqlıq, impulsivlik isə bir çox halda ömür boyu davam edir. Bu insanlar üçün problemləri qruplaşdırsaq, diqqət əskikliyini, impulsivlik və hiperaktivliyi xüsusilə qeyd edə bilərik.

Uşaqlarda olan davranış pozuntusu, böyük yaşda narkotik istifadəsi kimi hallarla da müşahidə oluna bilər. Bu vəziyyətə qarşı düzgün tədbirlər görülməzsə, diqqət əskikliyi hiperaktivlik sindromu olan insanın özgüvəni azalar. Həmin sindromla yaşayan, lakin bunu bilməyib, müalicə almayan uşaqlar yaşlananda depressiyaya düşdükdə və ya hər hansı bir asılılıqdan qurtulmaq üçün həkimə müraciət etdikdə, bu vəziyyətin arxasında diqqət əskikliyinin olduğu aşkarlanır.

DEHB olan fərdlərin müalicəsi üçün, ilk növbədə, ailə çox diqqətli olmalı, müəllim də məktəbdə lazımi qayğı göstərməlidir. Uşağın hiperaktivlik pozuntusunu düzəltmək üçün etdiyi bütün müsbət davranışlar təriflənməlidir. Belə olanda zaman keçdikcə, mənfi davranışlar azaldıla bilər. Uşağın özünə inamını artırmaq üçün uğur qazandığı fənlər prioritet seçilə bilər. Beləliklə, uşaq motivasiya ilə təhsilini davam etdirir və sadədən çətinə doğru bir yol izlənilir.

Müalicə üçün mütəxəssis tərəfindən verilən dərmanlar da çox əhəmiyyətlidir. Uşağın konsentrasiyasının artırılması onun təhsil həyatının yaxşılaşmasına və uşağın uğurdan həzz almasına kömək edir. Beləliklə, uşaq bu davranışları təkrar etməyə səy göstərir. Ailələr, müəllimlər və mütəxəssislər müalicə prosesini birlikdə idarə etməli və uşağın bu dövrü uğurla keçməsinə kömək etməlidir ki, xəstəlik özünü böyük yaşda, daha ciddi şəkildə göstərməsin.

# Qarın yağması virus infeksiyalarını azaldacaq

**Artıq neçə gündür ki, qarın ara vermədən yağması hər yeri ağ örpəyə bürüyüb. Uşaqların parklarda, həyətlərdə sevinc dolu səsləri aləmi başına götürüb. Onlar həsrət çəkdikləri qardan düzəltdikəri “qar adamın” ətrafına toplaşıb şənlənirlər. Arada böyükələrin səsi gəlir: “Şükür Allaha ki, qar yağdı. Xəstəlik-falan azalar”. Görəsən, doğrudanmı qar gəlişi ilə bəzi yoluxucu xəstəliklərə son qoyur? Bu sualla “XQ”nin eksperti, tibb elmləri doktoru, professor Musa Qəniyevə müraciət etdik. Həkim dedi:**

– Uzun illərdən bəri, ilk dəfədir ki, Bakıya, eləcə də Vətənimizin bütün bölgələrinə güclü qar yağır və biz arzusunda olduğumuz əsil qış həyatını yaşayırıq. El arasında qar yağması xeyir-bərəkət müjdəsi adlandırılır.

Qar həm də, virus infeksiyasının patogenlik və mutatik fəallığının süstləşməsi, reqressiv dönəmə qayıdışını şərtləndirən əsas təbiət hadisəsidir.

Tədqiqatlar virusların yüksək patogenlik və yoluxduruculuq əmsalını saxlanmasının həlledici şərtinin ətraf temperaturun –10 dərəcədən +10 dərəcə intervalında olduğunu təsdiq edir. –20 dərəcədən aşağı temperaturda isə, viral fəallıqda kəskin süstlük və respirator infeksiyaların statistik olaraq yüksək faiz nisbətində azalması da öz təsdiqini tapıb. Əslində, virusların aktivlik fəallığını xarakterizə edən bu temperatur intervalı, ekvatordan şimal qütbünə qədər olan məsafənin son 1/3 bölümündə olan yaşayış massivi və ölkə əraziləri üçün xarakterikdir.



***– Temperatun bu dərəcəsi bizim ölkə üçün də xarakterikdirmi?***

– Ekvatora yaxın və ilk 2/3 məsafədə olan ərazilərdə (o cümlədən, bizim ölkəmizdə) viruslarda susqunluq və nisbi inaktivlik, zaman və məlum məkan fərqliliyinə görə, –1 dərəcədən – 5 dərəcə temperatur intervalında baş verməlidir və baş verir. Odur ki, qarla müşahidə olunan temperaturun hazırkı enişi, istər viral, istərsə də yuxarı tənəffüs yolu infeksiyalarının, xüsusilə, uşaqlar arasında kəskin azalmasına səbəb olacaqdır.

Digər tərəfdən, qarla müşahidə olunan məlum temperatur fərqliliyi, ətraf mühitin havasında nicbi quruluğa səbəb olmaqla, aerozol şəkillı rütubətin əmələ gəlməsinin qarşısını aldığından, hava-damcı infeksiyalarına yoluxma riskini kəskin şəkildə aşağı salmalıdır.

Qarla müşahidə olunan soyuq hava şəraitində həm də insanlar evdə– ailə mühütündə qalmağı üstün tutduğundan, ictimai yerlərə toplaşmaq və yaxın kontakt minimuma enir. Yaxın ünsiyyətin olmaması viral infeksiyalara yoluxma riskini kəskin dərəcədə azaldır.

***– Demək, qar nədər çox yağsa, xəstəlik törədən infeksiyalar da azalacaq?***

– Doğrudur. Virus infeksiyalarına yoluxma prodromal dövrünün sonu, xüsusən aktiv klinik əlamətlərin sürəkli olduğu müddətdə (əsasən, 3–5 gün) baş verir. Ona görə deyə bilərəm ki, məlum qarlı hava şəraiti bu müddətə davam edərsə, ekvatordan söylədiyim məsafə fərqliliyi olan yerlərdə hətta epidemik vəziyyətdə olan viral infeksiyaların sporodikləşməsi belə mümkündür.

Odur ki, nə qədər çətinliklər gətirsə də, insanlar ehtiyatsızlıqdan yıxılsalar, müxtəlif xəsarətlər alsalar da, ölkəmizin bütün ərazilərinin hazırda qalın qar örtüyünə bürünməsini, təbiətin xalqımıza böyük lütfü bilib, bu təbiət hadisəsinə sevinməliyik. Çünki hər şeydən vacib insanların sağlam olmasıdır. İstər böyüklər, istərsə də uşaqlara tövsiyə edərdim ki, yol gedəndə əllərini cibdən çıxarsınlar. Belə vəziyyətdə baş verən ani sürüşmə daha ciddi xəsarətlərə – sınıq və çıxıqlara səbəb olur.

**Azərbaycanımızı bürüyən bu ilk qarımız mübarək olsun.**

**Xəstəliklərdən uzaq, sağlam, gümrah və xoşbəxt həyat yaşayın.**

*Səhifəni hazırladı:*
*Zərifə HÜSEYNOVA*
*XQ*

# Dövlət informasiyasının mötəbər tribunası

**Bu gün Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) 105 yaşı tamam olur. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən 1920-ci il martın 1-də yaradılan AZƏRTAC sonralar müxtəlif adlar altında fəaliyyət göstərib və Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra agentlik özünün tarixi adını qaytarıb. Hansı adı daşımasından asılı olmayaraq, bu qurum hər zaman respublikamızda rəsmi xəbər yayıcılığının flaqmanı olub.**

AZƏRTAC-ın yubileyi ilə əlaqədar reportaj hazırlamaq üçün oraya getməzdən əvvəl agentliyin şanlı tarixinə ekskurs etdik. Öyrəndik ki, Azərbaycan Teleqraf Agentliyinin təşkili barədə məsələ ilk olaraq 1919-cu il martın 3-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin iclasında müzakirəyə çıxarılıb. Nazirlər Şurasının sədri Fətəli Xan Xoyskinin bu barədə məruzəsi dinlənilib və agentliyin təşkili xalq maarif naziri Nəsib bəy Usubbəyova tapşırılıb. Sonradan bu səlahiyyət Poçt və Teleqraf Nazirliyinə həvalə edilib. 1919-cu ilin 2-ci yarısında AZƏRTAC-ın yaradılması haqqında qanun layihəsi və əsasnamə hazırlanıb. 1920-ci il fevralın 2-də agentliyin ştatlarının layihəsi və əsasnaməsi Milli Hökumətin iclasında müzakirə edilərək parlamentə təqdim olunub. Parlamentin fevralın 23-də keçirilən iclasında deputatlar Ağa Eminov və Ağa Aşurov AZƏRTAC-ın yaradılmasının zəruriliyini bir daha əsaslandırıblar.

Təşkilati işlər, texniki avadanlıq əldə olunması və kadr axtarışları xeyli vaxt aparıb. Nəhayət, 1920-ci il martın 1-də respublikamızın ilk milli xəbər agentliyi öz işinə start verib. Ertəsi gün "Azərbaycan" qəzetində "AZƏRTAC"ın mübarək imzası ilə ilk xəbərlər dərc olunub. Lakin o, müstəqil xəbər ünvanı kimi cəmi 58 gün fəaliyyət göstərə bilib. Həmin il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə AZƏRTAC-ın da çətin günləri başlanıb. Dövrün sərt küləkləri işi yenicə sürət yığmağa başlayan agentliyin də başı üzərində əsib və AZƏRTAC müstəqilliyini itirib. O, faktiki olaraq Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) yerli filialına çevrilib. Təbliğatı bütünlüklə sovet ideologiyası üzərində qurulub. Hətta 1922–1936-cı illərdə üç Cənubi Qafqaz respublikasının agentlikləri birlikdə ZaqTAQ adı ilə fəaliyyət göstərib, yəni səlahiyyətlər xeyli məhdudlaşdırılıb. Azərbaycanın keçmiş SSRİ-nin tərkibində olduğu 70 ildə agentliyin adı 7 dəfə dəyişdirilsə də, Moskvadan gələn tezislər çərçivəsinə sıxışdırılsa da, dövrün mürəkkəbliyinə və ziddiyyətlərinə baxmayaraq, AZƏRTAC bilavasitə Azərbaycanın salnaməsini yazmaqda davam edib.

Həmin illərdə burada bir çox ünlü jurnalistlər, sonrakı dövrlərin qələm sahibləri, publisistlər və digər sahələrin tanınmışları çalışıblar. Bu gün onlardan Qubad Qasımov, Xasay Vəzirov, Rafiq Zeynalov, Azad Şərifov, Natan Barski, Qoldşteyn, Şamil Şahməmmədov və başqalarının adları ehtiramla yad olunur.

Ulu öndər Heydər Əliyevin agentliyin 25 il əvvəl – AZƏRTAC-ın 80 illiyində imzaladığı təbrik məktubundan: "AzərTAc fəaliyyətə başladığı gündən xalqımızın azadlıq arzularının carçısına çevrilmiş, onun ictimai-siyasi amallarının, milli-mənəvi dəyərlərinin və müstəqil dövlətçilik qayğılarının yorulmaz təbliğatçısı missiyasını yerinə yetirmişdir. AzərTAc Xalq Cümhuriyyətinin süqutundan sonra da öz fəaliyyətini davam etdirmiş və sovet quruluşu çərçivəsində xalqımızın SSRİ və dünya səviyyəsində tanıdılmasında, Azərbaycanda həyata keçirilən quruculuq işlərinin işıqlandırılmasında öz önəmli rolunu oynamışdır... AzərTAc-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır. Bu gün Azərbaycan dövləti ölkə konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm prinsiplərinə sadiq qalaraq, kütləvi informasiya vasitələrinin inkişafı üçün hərtərəfli şərait yaratmış və bu sahədəki səylər bundan sonra da dönmədən davam etdiriləcəkdir".

Bəli, ötən onilliklərdə agentliyin kollektivi Azərbaycan həqiqətlərinin ölkə ictimaiyyətinə və beynəlxalq aləmə çevik və dolğun şəkildə çatdırılmasında yüksək peşəkarlıq nümunəsi göstərib, vətənimizə və xalqımıza sədaqətlə xidmət edib. Bu gün AZƏRTAC kollektivi öz müqəddəs və şərəfli missiyalarını layiqincə yerinə yetirir. AZƏRTAC rəsmi məlumatlarla bərabər, fasiləsiz olaraq 8 dildə – Azərbaycan, ingilis, rus, alman, fransız, ərəb, Çin və ispan dillərində ictimai-siyasi və iqtisadi mövzularda, habelə elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ətraf mühit və s. barədə dəqiq, operativ informasiya yayır.

AZƏRTAC-ın 105 illiyi ərəfəsində orada olarkən yaradıcı və texniki kollektivin adi qaydada gərgin və məhsuldar işlədiyinə şahidlik etdik. Üç il əvvəl istifadəyə verilmiş yeni binanın rahat və işıqlı guşələrində əsl yaradıcı mühit hökm sürürdü. Hansısa tədbirdən yenicə qayıtmış müxbirlər kompüter qarşısında isti-isti xəbər yazıb təhvil verməyə tələsir, tərcüməçilər mətnləri bir dildən digərinə çevirir, redaktorlar onlara ötürülən materialları nəzərdən keçirib düzəlişlərini edir, dizaynerlər estetik tərtibat üzərində çalışır, multimedia və videoxəbər xidməti isə texnoloji imkanlardan daha səmərəli yararlanmağa cəhd göstərirdilər. Ümumi işə mane olmadan, yubilyar kollektivin nümayəndələrinin bayram ovqatlı duyğu və düşüncələrini dinləmək istədik. Müsahiblərimizin fikirlərini oxuculara təqdim edirik.

**Abbasəli Yadigarov, Azərbaycan dilində informasiya baş redaksiyasının baş redaktoru:**



– Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra artıq hökumət anlayırdı ki, ölkədə milli informasiya agentliyinin yaradılması mütləq zərurətdir. Ona görə də, uzun müzakirələrdən sonra parlament bu barədə qərar qəbul etdi və beləliklə də 1920-ci ilin martın 1-dən AZƏRTAC fəaliyyətə başladı. Təəssüflə qeyd etməliyəm ki, AXC-nin süqutu ilə AZƏRTAC da tənəzzül mərhələsini yaşadı. 70 illik sovet rejimi dövründə AZƏRTAC-ın fəaliyyətini 2 yerə bölmək olar: 1969-cu ildə Ulu öndər Heydər Əliyev hakimiyyətə gələnə qədər olan və ondan sonrakı dövrlər. 1969-cu ilədək AZƏRTAC fərqli adlarla kiçik xəbər buraxılışları təqdim edib. Ulu öndərin hakimiyyətdə olduğu ilk dönəmdə isə AZƏRTAC-ın da həytında əsl dönüş başlandı. Agentlik artıq SİTA-nın Cənubi Qafqazada əsas informasiya buraxılışını həyata keçirməyə başladı. Bu dövrdə AZƏRTAC-ın texniki-təchizat məsələlərinə diqqət göstərildi. Agentlik kompüterlərlə təmin edilməyə başlanıldı.

Agentliyimizin daha da inkişaf etməsi Azərbaycanın müstəqillik qazanması və Ulu öndərin hakimiyyətə qayıdışına təsadüf etdi. Qurumun adı 1992-ci ildə bərpa edildi və biz, AZƏRTAC kimi fəaliyyətimizi davam etdirdik. Agentliyin inkişafı ilə əlaqədar müəyyən fərmanlar, sərəncamlar imzalandı. Beləliklə, dövlət informasiya agentliyi kimi AZƏRTAC beynəlxalq əlaqələrini də gücləndirməyə başladı. Məhz 2000-ci ildə AZƏRTAC-ın inkişafı beynəlxalq əlaqələrin genişlənməsi ilə əlamətdar oldu. 2004-cü ildə agentlik Asiya və Sakit Okean ölkələri təşkilatına (OANA), bundan 4 il sonra Avropa Xəbər Agentlikləri Alyansına (EANA) daxil oldu. Artıq AZƏRTAC xarici ölkələrlə daha operativ xəbər mübadiləsi aparmağa başladı.

Bunlardan əlavə, AZƏRTAC 2016-cı ildə Dünya Xəbər Agentliklərinin konqresində (NACO) evsahibliyi etdi. Eyni zamanda, OANA-nın baş assambleyası Bakıda keçirildi. AZƏRTAC hər iki quruma sədrliyi həyata keçirdi.

2017–2018-ci illərdən sonra ölkə iqtisadiyyatının sürətli yüksəliş dinamikası sayəsində müxtəlif sahələrə dair xəbərlər artmağa başladı. Vətən müharibəsi dövründə, 44 günlük Zəfər Yürüşü zamanı AZƏRTAC dünyaya haqq savaşımızla bağlı informasiyaların yayılmasında xüsusilə böyük rol oynadı.

Hazırda agentlik gün ərzində 8 dildə, 600-dən çox foto və videolu xəbər yayımlayır. AZƏRTAC 50-dən çox ölkənin 150-dən çox informasiya agentliyi ilə əlaqələr qurub, səmərəli xəbər mübadiləsi həyata keçirir. Ölkəmizin xəbərləri dünyanı ən müxtəlif guşələrinə gedib çıxır. Maddi-texniki təchizatımız günün tələbləri səviyyəsindədir, müasir, modern texniki avadanlıqlarımız var.

AZƏRTAC 2022-ci ildən bu yeni binaya köçürülüb. Köhnə binada da texniki baxımdan təchizatımız yaxşı olub, amma bura hər cəhətdən daha yaxşıdır. AZƏRTAC-da video informasiya bölməsi də fəaliyyət göstərir. Son 10 il ərzində inkişafımız xeyli artıb. Canlı bağlantılar, informasiyanın anında və düzgün çatdırılması istiqamətində nəzərəçarpan irəliləyişimiz var.

AZƏRTAC-dan Azərbaycan mətbuatının dahiləri keçib. Gənc işçilərimiz də nəsillərin estafetini layiqincə davam etdirirlər. Yazı elədir ki, burada redaktə məsələləri ön sırada gəlir. Odur ki, gənclərin təcrübəyə ehtiyacı var. Bu mənada yaşlı nəslin nümayəndələrinin sayəsində biz bu şərəfli peşənin bir çox sirlərini öyrənmişik. Gənclər bu gün də yaşlı nəslin nümayəndələrinin bilik və təcrübəsindən hərtərəfli bəhrələnirlər. Məsələn, Əməkdar jurnalist, ustad Dağbəyi İsmayılov bizdən ötrü əsl məktəbdir, AZƏRTAC-ın inkişafında böyük əməyi var. Digər ustadlardan Elman Qədirovun, Oqtay Məmmədovun, Yaşar Quluzadənin, Sevinc xanımın adlarını çəkə bilərəm, onlardan da çox şeyi öyrənmişik. Bəziləri yaşla əlaqədar işdən ayrılıblar. Mən Şamil Şahməmmədovu şəxsən görməsəm də, sırf peşəkar rəhbərlərdən söz düşəndə onun adını çox çəkirlər. Haqqında deyirlər ki, qəzeti əlinə alıb yuxarıdan aşağı baxan kimi bilirmiş ki, burada hansı səhvlər var. Bax, bu qədər peşəkarcasına, cəldliklə... Bu gün yubileyi nailiyyətlərlə qarşılamağımızda həm də və daha çox möhtərəm ustadlarımızın zəhmət payı danılmazdır.

**Nigar Hüseynova, Rus dilində informasiya baş redaksiyasının baş redaktoru:**



– İndiki Bakı Slavyan Universitetinin rus dili və ədəbiyyatı fakültəsini bitirmişəm. AZƏRTAC-da 21 ildir işləyirəm. Redaksiyamızın əhatə dairəsi təkcə rus dilində xəbər hazırlamaqla məhdudlaşmır, mədəniyyət redaksiyası, tərcüməçilər bölməsi də bizdədir. Redaksiyamızda 22 nəfər işçi çalışır. Bizim işimizin 80 faizi tərcüməyə aiddir. Buraya rəsmi xronika, ölkədə baş verən əsas hadisələrin Azərbaycan dilində yayımlanan xəbərlərinin tərcüməsi aiddir.

Mən hazırkı vəzifəni 2 ildir ki, tuturam, amma 12 il xaricdə – Pribaltika respublikaları, İspaniya, Finlandiya, Mərakeş, Portuqaliyada müxbir işləmişəm. Həyatda, peşə sahəmdə bütün uğurlarım, yüksəlişim məhz AZƏRTAC-la bağlıdır. Burada çalışmaq həm məsuliyyətlidir, həm də adama əvəzsiz zövq verir.

Bu gün AZƏRTAC-ın 105 illiyini qeyd edirik. Agentliyimiz möhtəşəm inkişaf yolu keçib. Fərəh doğuran böyük uğurlara imza atıb. Bu nailiyyətlərin təməlində Ulu öndər Heydər Əliyevin AZƏRTAC-a xüsusi diqqəti, qayğısı durur. Prezidentimiz İlham Əliyevin mediaya, KİV-lərə hərtərəfli dəstəyi durur. Ölkənin ən mötəbər rəsmi media məlumatları mənbəyi sayılan AZƏRTAC operativ, obyektiv informasiya təminatında aparıcı mövqeyini əzmlə qoruyur.

Hədəfimiz həm daxili, həm də rusdilli auditoriyaya bacardıqca geniş informasiya xidməti göstərməkdir. Müsahibələrə üstünlük veririk, eyni zamanda, bütün beynəlxalq sərgiləri işıqlandırırıq. "Azərbaycanın istedadları" adlı rubrika açmışıq və burada musiqi, incəsənət, rəsm sahələrində parlaq uğur qazanan, beynəlxalq müsabiqələrdə fərqlənən istedadlı azərbaycanlılar haqqında yazılar dərc edirik. Dövlət xətti ilə xaricdə oxuyan tələbələrə də yer ayırırıq. Yeni başlayan sahibkarlara dəstək üçün yaradılmış ABAD publik hüquqi şəxsdən yararlananlardan, ABAD xətti ilə Qarabağda təsərrüfat və istehsal sahəsində məşğul olanlardan da maraqlı reportajlar hazırlayırıq. Rus dilində video reportajlarımızın maraqla qarşılanması da bizə əlavə yaradıcılıq stimulu verir. Onu da deyim ki, ötən payız COP29-a əsasən AZƏRTAC informasiya nəfəsi verdi. Həmin günlər komandamız bir yumruq kimi birləşərək işlədi. Xəbərlərin tirajlanmasında məhsuldarlığa və operativliyə görə AZƏRTAC 1-ci yerdə qərarlaşdı. COP29-da gənclərimiz olduqca yüksək fəallıq göstərdilər. Ölkə rəhbərliyi onların zəhmətini yüksək qiymətləndirdi. Təşəkkürnamələr, mükafatlar verildi.




Yeri gəlmişkən, AZƏRTAC-a bacarıqlı cavanlar çox cəlb edilir, onlar üçün meydanımız genişdir. Bizdə universitetlərin jurnalistika fakültələrində təhsil alan bir neçə tələbə artıq sınaqdan uğurla keçərək rəsmi iş yeri qazanıb. AZƏRTAC-ın 21 ölkədə müxbiri var. Hər müxbir təkcə yerləşdiyi ölkənin deyil, həmin dövlətin sərhədlərinə yaxın 3-4 ölkənin xəbərlərini hazırlayır. Müxbirlərimizin xarici KİV-lərdə də məqalələri dərc olunur. Məqsədimiz əlaqələri daha da genişləndirmək, əməkdaşlığı daha işlək hala salmaqdır.

**Elşən Şahbalayev, AZƏRTAC-ın İdarə heyətinin üzvü, Qlobal kommunikasiya və informasiya idarəsinin müdiri:**



– AZƏRTAC-ın hazırda 54 xarici informasiya agentliyi və media subyekti ilə tərəfdaşlıq mübadiləsi var. Çinin Sinxua, Yaponiyanın Kioda agentlikləri, demək olar ki, bütün ölkələrin əsas milli xəbər agentlikləri ilə əməkdaşıq. Bu cür şəbəkənin formalaşması, əlbəttə ki, vaxt aparıb. Hər bir xarici agentlik digər ölkənin agentliyi ilə əməkdaşlıq qurursa, əsas xəbəri yayımlayana üstünlük verir. AZƏRTAC da Azərbaycanın aparıcı xəbər agentliyi olduğundan, daha çox bizimlə birbaşa əlaqələrə üstünlük verirlər. Məsələn, keçən il bizim 6 müqaviləmiz olub. Onun da 4-ü yeni xəbər agentliyidir. Hazırda istiqaməti Afrika ölkələrinin agentliyinə yönəltmişik. Məsələn, Senaqal, Əlcəzair. Mərakeşlə də layihə üzərində işləyirik. Asiya agentlikləri ilə oturuşmuş əlaqələrimiz var. Əlavə olaraq, Malayziyanın Bernama, İndoneziyanın Antara agentliklərini də misal çəkə bilərəm.

Avropa ölkələrində də xeyli tərəfdaşımız var. Onlarla təkcə müqavilə çərçivəsində yox, beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edirik. Məsələn, Avropa Xəbər Agentlikləri Alyansı – EANA-da 32 agentlik birləşir və biz də 2008-ci ildən onun üzvüyük. Skandinaviya ölkələrinin agentlikləri ilə birbaşa müqaviləmiz olmasa da, əməkdaşlığımız davam edir. İtaliyanın "AISE" agentliyi bizimlə müqaviləni yeniləyib ki, Azərbaycan haqqında informasiyanı "Reuters", "Associated Press" kimi beynəlxalq agentliklərdən yox, birbaşa bizim özümüzdən alsın. Agentliklər informasiyanı vasitəçisiz almaqda maraqlıdırlar. Çünki vasitəçi ilə xəbər ötürüləndə ilk mənbə ilə uyğunsuzluq yarana bilər, dezinformasiyalar yayılar.

Bu il də müqavilə layihələri imzalamaq, mövcud müqavilələri yeniləmək planlarımız var. Digər istiqamət AZƏRTAC-ın xarici müxbir şəbəkəsidir. 24 ölkədə 25 müxbirimiz var (Türkiyədə Ankara və İstanbul şəhərləri olmaqla, bizim 2 müxbirimiz çalışır). Çalışırıq ki, "freelance", yəni sərbəst müxbirlər də cəlb edək. Adətən öz ölkəmizin vətəndaşını xarici ölkəyə göndəririk. İstəyirik ki, xarici ölkənin vətəndaşı, yaxud orada yaşayan azərbaycanlı müxbirlə işləyək. Məsələn, Pakistanda müxbir məntəqəmiz yoxdur, lakin biz pakistanlı jurnalisti əməkdaşlığa cəlb etmişik. O elə Pakistanın milli xəbər agentliyinin işçisidir. Mərakeşli sərbəst müxbirimiz də var. Büdcə imkan verdikcə bu cür müxbirlərin də sayını genişləndirmək istəyirik.

Daha bir istiqamətimiz xarici dillərdə informasiyalardır. Azərbaycan haqqında informasiyaların dünya miqyasına çıxarılması üçün də təkcə xəbərləri hazırlayıb sayta qoymaq deyil, onun yayılmasını da təmin etməkdir. SEO optimallaşdırma, "Google" kimi axtarış sistemləri vasitəsilə, açar sözlərin köməyi ilə bu informasiyaları xarici auditoriyaya çatdırırıq. Bunun üçün də veb-saytın SEO mexanizmi elə vəziyyətdə olmalıdır ki, axtarış sistemlərinin tələblərinə cavab versin. Bu istiqamətdə də işlər aparırıq. Eyni zamanda, sosial şəbəkələrdəki hesablarımızı inkişaf etdiririk. Sosial şəbəkələrimizin Azərbaycandilli olanları təsdiqlənib.

Ümumilikdə, mediaya 3 texnoloji dalğa təsir edib. Birinci dalğa rəqəmsallaşma və mobil texnologiyalara keçid idi. İkinci dalğa sosial media, sosial şəbəkələrin yayılmasıdır. Bununla xəbərin təqdimatı və istehlak formaları dəyişdi. Məsələn, əvvəl videolar horizontal idisə, indi vertikal təqdim edilir ki, oxucu və izləyicilər onları sosial şəbəkə vasitəsilə daha rahat qəbul edə bilsinlər. Üçüncü dalğa isə süni intellektdir. Tətbiqinə 5 il bundan qabaq başlanıb. İlk olaraq bizdə özünü "Amazon"un proqramı üzrə videoların səsləndirilməsi ilə göstərdi. O vaxt robot olduğu hiss edilirdi, indi isə canlı insan səsindən, görüntüsündən fərlənmir. Süni intellektin imkanları, proqramları get-gedə daha da genişlənir. Bunun da mediaya güclü təsiri olacaq.

Biz kadr məsələləri ilə əlaqədar Bakı Dövlət, Bakı Slavyan, Dillər universitetləri ilə işləyirik. Hər il tələbə-jurnalistlər üçün 3 aylıq təlim proqramımız olur. Təlimlərdən keçən gənclərdən özünü doğruldanları işə götürürük. Artıq təlim proqramını uğurla bitirən 3 tələbə bizimlə işləyir.





Müsahiblərimizin dediklərinə əlavə olaraq bildirək ki, AZƏRTAC foto və yazılı informasiyalarla yanaşı, ölkənin sosial, siyasi, iqtisadi, idman həyatından beş dildə videoxəbərlər hazırlayır, onları azertag.az saytı, xəbər bülletenləri, həm də sosial şəbəkə hesabları (agentliyin müxtəlif dillərdə və fərqli profilli ümumilikdə 30 sosial şəbəkə səhifəsi var) vasitəsilə yayır. Burada "Gəzdim Azərbaycanı", "Abidələrimiz", "Dünya şəhərləri" və digər bir sıra layihələr də hazırlayır.

Son illərdə 50-yə yaxın xarici xəbər agentliyi ilə əməkdaşlıq müqaviləsi imzalayan, 5 qitədə fəaliyyət göstərən agentliklərlə informasiya mübadiləsi aparan AZƏRTAC həmçinin beynəlxalq və regional media təşkilatları çərçivəsində "Associated Press", "Reuters", "Press Association", DPA, "Sinxua" və bir sıra digər nüfuzlu xəbər yayımçıları ilə fəal əməkdaşlığını davam etdirir. Ötən il isə İstanbulda Türk Xəbər Agentlikləri Birliyinin (ATNA) təsis Baş Assambleyasında AZƏRTAC ATNA-nın baş katibi seçilib.

AZƏRTAC-da çalışan həmkarlarımızı 105 illik yubileyləri münasibətilə təbrik edir, yeni uğurlar arzulayırıq!

*Hazırladılar:*
*Əli NƏCƏFXANLI,*
*Elşən AĞALAR (foto)*
*XQ*

Beynəlxalq aləm

# Ermənistan Gürcüstana Qərbdən gizli qapı açır



**Ermənistanın indi də Qərbin forpostuna çevrilməsi çoxdan məlumdur. İrəvanın ABŞ, Fransa və bütövlükdə Avropa İttifaqı (Aİ) ilə yaxınlaşma kursunu kəskin şəkildə gücləndirməsi bu faktı təsdiqləyir. Bu yaxınlaşma hətta İrəvanın “vasitəçi” rolunun da artmasına rəvac verir. Söhbət Gürcüstanda keçirilən etiraz aksiyalarının Aİ tərəfindən maliyyələşdirilməsində Ermənistanın rolundan gedir. Aydındır ki, İrəvan Qərbə yarınmaq və “strateji əhəmiyyətini” artırmaq üçün özünü baha satmağa çalışır. Amma qonşu və “qardaş” hesab etdiyi Gürcüstan xalqının maraqlarına zidd olması amili də İrəvanı çəkindirmir. Ən əsası, ermənilərin bu “missiyası” regional təhlükəsizlik üçün də təhdiddir.**

Gürcüstan xalqının iqtidarı dəstəkləməsinə baxmayaraq rəsmi Tbilisiyə qarşı “Səlib yürüşü”nü davam etdirir. 2024-cü il oktyabrın 8-də Gürcüstanda parlament seçkiləri keçirildi və bunun nəticəsində hakim “Gürcü Arzusu” partiyası qalib elan edildi. Lakin müxalifət və sabiq prezident Salome Zurabişvili nəticələri tanımadı və vətəndaşları etiraza çağırdılar. Etiraz aksiyaları Tbilisidə başladı və küçələrə çıxan radikal müxalifət nümayəndələri və QHT-çilər seçkinin nəticələrinin ləğv edilməsini və yeni parlament seçkilərinin keçirilməsini tələb etdilər. Aİ də səsvermənin nəticələrini tanımaqdan imtina etdi, buna cavab olaraq hakim “Gürcü Arzusu” partiyası Avropaya inteqrasiya prosesini dayandırdı. Brüssel və ABŞ-ın sabiq prezidenti Co Bayden administrasiyası Gürcüstan hakimiyyətinə qarşı bir sıra sanksiyalar tətbiq etdi.

Təbii ki, gürcü xalqı avantüristlərin çağırışlarını dəstəkləmədi və ölkənin xaosa sürüklənməsinə, geosiyasi oyunların qurbanına çevrilməsinə imkan vermədi. Bununla belə, radikal müxalifət və onun tərəfdarları hələ də Gürcüstanda xalqın seçdiyi siyasi qüvvəni devirməyə çalışırlar. Zəif də olsa, hökumətə qarşı olan qüvvələr etirazlarını davam etdirməyə çalışırlar. Bəs etirazçılar gücü, daha doğrusu, maliyyəni hardan alırlar? Rusiya Xarici Kəşfiyyat Xidməti (XKX) xəbər verir ki, Gürcüstanda keçirilən etiraz aksiyalarının Avropa İttifaqı tərəfindən maliyyələşdirilməsi Aİ ölkələrinin Ermənistandakı səfirlikləri vasitəsilə həyata keçirilir. XKX bildirir ki, “Aİ-nin Gürcüstandakı nümayəndəliyi hökumət əleyhinə etiraz aksiyalarının hər bir iştirakçısına 120 avroya qədər pul ödəyir”.

Bundan başqa, Rusiya xüsusi xidmət orqanlarının fikrincə, “ümumilikdə Brüssel Gürcüstanda blogerlər, jurnalistlər, İT mütəxəssisləri və rusiyalı köçkünlər arasında hökumət əleyhinə əhval-ruhiyyə yaratmağa çalışır”. Bildirilir ki, “Bu məqsədlər üçün blogerlərə 50 min avroya qədər vəsait ayrılmağa hazırdırlar”. “Avropa rəsmiləri etirazları gücləndirmək və hakim “Gürcü Arzusu” partiyasına qarşı müxalifət partiyalarının “birləşmiş yumruğu” yaratmaq istəyirlər”, – bəyanatda deyilir. Bundan başqa, Rusiyanın XKX-yə daxil olan məlumata görə, Aİ-nin rəhbərliyi nəyin bahasına olursa olsun, Gürcüstanı “demokratiya və Avropaya inteqrasiya yoluna qaytarmaq” məqsədini güdür. Brüssel bürokratiyası “Qərb təsirinin Zaqafqaziyada mühüm qalası”nın itirilməsinə imkan verə bilməz”. Gürcüstanı “itirdiyini” anlayan Qərb dairələri pul ötürmə məntəqəsi kimi Ermənistandan istifadə edirlər.

Gürcüstan hökuməti də müxalifətin etiraz aksiyalarının, o cümlədən ABŞ-ın nəzarətində olan, ancaq tarixin arxivinə atılmağa çox yaxın olan ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) tərəfindən maliyyələşdirildiyini bəyan etmişdi. ABŞ hökuməti ForeignAssistance.gov portalının məlumatına görə, 2024-cü ildə USAID Gürcüstana seçki proseslərinin dəstəklənməsi, qanunun aliliyinin gücləndirilməsi və vətəndaş cəmiyyətinin inkişafı üçün 111,5 milyon dollar ayırmışdı. Bundan başqa, Gürcüstanda qeyri-hökumət təşkilatlarının maliyyələşdirilməsini digər Amerika fondları, o cümlədən ABŞ Demokratik Partiyası ilə əlaqəli olan Milli Demokratiyaya Yardım Fondu (NED) təmin edir.

Bununla əlaqədar Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirmişdi ki, ABŞ-ın yeni administrasiyasının inqilabi prosesləri, o cümlədən NED vasitəsilə ayırılan vəsaitləri məhdudlaşdırması vacibdir. Onun sözlərinə görə, bu fonda məhdudiyyətlər “Gürcüstan üçün vacibdir”: “Ölkəmizdə çox ciddi anti-dövlət fəaliyyətləri bu fond vasitəsilə maliyyələşdirilir və bu, nə qədər az olsa, Gürcüstan üçün bir o qədər yaxşıdır”.

Qərb mətbuatının yazdığına görə, NED dünya üzrə 2 mindən çox layihənin maliyyələşdirilməsini dayandırmalı olduğunu bildirdi. Amma Qərb Gürcüstan iqtidarını devirmək planlarından əl çəkmir və bu işdə Ermənistanın köməyindən yararlanır. Bunun üçün “qoca qitə” yenə proqramlar həyata keçirməyə hazırlaşır. Məsələn, fevralın 27-də Aİ-nin Gürcüstanda “vətəndaş cəmiyyətinə dəstək üçün” yeni proqram elan etdiyi məlum oldu. “Novosti-Qruziya” yazır ki, “Transformasiya üçün Davamlı, Maraqlı və Fəal Vətəndaş Cəmiyyəti (REACT) adlanan proqram iki illik müddəti əhatə edəcək. Layihə Konrad Adenauer Fondunun (KAS) dəstəyi ilə ölkənin 10 regionunda həyata keçiriləcək. Bundan başqa, REACT-ın 500 icma və xeyriyyə təşkilatı və təbliğat qruplarını əhatə edəcəyi gözlənilir. Layihədə fəallar, gənclər, müəllimlər və alimlər də daxil olmaqla 3000-ə qədər vətəndaş iştirak edəcək. Proqrama biznes nümayəndələri də qoşula biləcəklər.

Göründüyü kimi, Qərb Gürcüstanda yaranmış reallığı qəbul etmək istəmir və yeni qrantlar paylamaqla rəsmi Tbilisiyə təzyiqi artırmağa çalışır. Bir çox ölkədə fəaliyyəti qadağan olunmuş və Almaniyanın bir növ “yumşaq güc”ünə çevrilmiş Konrad Adenauer Fondunun vasitəçiliyilə Aİ Gürcüstanda radikal müxalifətə yeni nəfəs vermək istəyir. Bu “nəfəsliy”in də Ermənistan olduğu bildirilir. İndi ermənilər Qərbin forpostuna çevrilməyə can atır və geosiyasi xətt formalaşdırmağa çalışırlar. İrəvanın Gürcüstan məsələsində Qərbə kömək etməsi barədə kəşfiyyat məlumatları onu göstərir ki, Ermənistan pul ötürmə məntəqəsi rolunu oynayır və bununla da qonşusuna xəyanət edir. Ən əsası, belə “vasitəçilik” həm də regional təhlükəsizliyə təhdid yaradır və bu da İrəvanın odla oynadığını bir daha təsdiqləyir.

***S.ELAY***
***XQ***

Rəşid Faxralı – 70

**Dünən Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda “Borçalı” İctimai Birliyinin təşkilatçılığı ilə şair-publisist, Qarabağ müharibəsi veteranı Rəşid Faxralının (Hüseynov) 70 illiyi ilə bağlı toplantı keçirildi. Rəşidi yubileyi münasibətilə təbrikə gələnlər arasında onun yazıçı, şair, hərbçi dostlar və qələmdaşları var idi.**

# Borçalı ətirli poeziya

Məclisi giriş sözü ilə açan “Borçalı” İB-nin sədri, şair Dəyanət Osmanlı Rəşid Faxralının həyat və yaradıcılığı haqqında qısa məlumat verərək bildirdi ki, Rəşid Faxralı poeziyasının özəyini böyük Türk coğrafiyasının, böyük Vətənin, eləcə də Borçalı torpağının müqəddəsliyi, bərəkəti, sarsılmaz qüruru təşkil edir. O şeirlərin hər biri milli ruhla yoğrulub, şairin humanist, epik düşüncəsini çox dürüst ifadə edir. Rəşidin hər yeni şeiri, yazısı, kitabı millətə, Vətənə, tariximizə xidmət nümunəsi hesab oluna bilər.

Onun sözlərinə görə, Rəşid milli kimliyini yetərincə yaxşı bilən və bununla fəxr duyan, məsləkini yaradıcılıq prinsipinə çevirən şairdir. Rəşidin poetik mətnləri yüksək ictimai məzmun daşıyır. Şairin “Araz boyu şimşək çaxa!..” poeması ulu tariximizin dərslərindən nəticə çıxararaq dünyaya milli haqqını eşitdirmək iddiası kimi səslənir. Burada ümumi türkçülük ideyasından irəli gələn milli-ideoloji maraq, estetik poetik zövq əsərin aparıcı funksiyası olaraq açıq-aydın görünür.

Sonra Dəyanət Osmanlı təmsil etdiyi ictimai təşkilatın adından “Borçalının fəxri” diplomunu yubilyara təqdim etdi.

Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli Rəşid Faxralını öz adından və təmsil etdiyi qurumun rəhbərliyi adından 70 illiyi münasibətilə təbrik etdi, şairin yaradıcılığı ilə bağlı səmimi fikirlərini bildirdi. AYB-nin şairə təbrikində isə deyilirdi: “Siz Birinci və İkinci Qarabağ müharibəsi iştirakçısısınız. İkinci Qarabağ müharibəsindən əvvəl və sonra yazdığınız məqalələr müharibə tariximizin ədəbi-publisistik salnaməsi kimi dəyərləndirilir, Vətən müharibəsində tarixi Zəfərin birinci ildönümünə həsr etdiyiniz “Əsgər nəfəsi” kitabınız Azərbaycan əsgərinin döyüş əzminin, qələbə ruhunun, Zəfərinin kitabıdır.

... “Zaman, biz və kişiliyimiz”, “Goranboy əməliyyatı”, “Ömrün üfüqləri”, “Səngərdən əbədiyyətə”, “Ömür düsturu”, “Salam, ruhumuzun şəhəri Şuşam!” və sair publisistik kitabların, “Gözümdə hönkürür bir dəli sevda”, “Könlüm cənnət qapısıdı”, “Ömrümün üç nöqtəsi”, “Müharibə” və s. şeirlər, poemalar kitablarının müəllifisiniz. Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin, Gürcüstan Yazıçılar Akademiyasının üzvüsünüz. “Qızıl kələmə”, “Altun media”, “Həsən bəy Zərdabi”, “Rəsul Rza”, “Mikayıl Müşfiq” ədəbi mükafatları laureatısınız”.

Rəşid Faxralınn hərbçi həmkarı, Müdafiə Nazirliyinin əməkdaşı, tanınmış şair Abdulla Qurbani onunla birgə hərbi xidmət dövrü xatirələrini söylədi. Onun sözlərinə görə, Rəşid Qarabağ müharibəsinin ilk illərindən vətənpərvər bir insan kimi hərbi xidmətə gəlib, “Xalq Ordusu” (sonradan “Azərbaycan Ordusu”) qəzetində, Müdafiə Nazirliyinin Sənədli Filmlər Kinostudiyasında çalışıb. Ömrünün çox illərini cəbhədə əsgərlərin yanında keçirib. Məqalələrinin, şeirlərinin çoxunu döyüş meydanlarında, Murovda, digər cəbhələrdə qələmə alıb.



Abdulla Qurbani həmkarını 70 illik yubileyi münasibətilə təbrik etdi, ona Müdafiə Nazirliyinin hədiyyələrini təqdim edərək yaradıcılıq uğurları arzuladı.

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov çıxışında Rəşidlə eyni orta məktəbdə təhsil aldığını, ibtidai siniflərdə onun atasından dərs aldığını bildirdi. Eyni zamanda, o illərdə özündən bir neçə yaş böyük olan Rəşidin yaradıcılığa meyl etdiyini, şeirlər yazdığını bilib. Onun fikrincə, Rəşid Faxralı Azərbaycan ədəbiyyatına hərbi vətənpərvərlik mövzusunda sanballı töhfələr verib. Rəşidin “Xalq qəzeti”ndə dərc edilmiş cəbhə ətirli, əsgər nəfəsli yazılar da oxucular tərəfindən maraqla qarşılanıb.

Məşhur publisistlər Şəmistan Nəzirli və Mehman Süleymanov Rəşidlə birgə keçdikləri hərbi yolla bağlı xatirələrini dilə gətirdilər. Müdafiə Nazirliyinin Sənədli Filmlər Kinostudiyasının əməkdaşı olmuş, bir sıra mahnılar, eləcə də Rəşid Faxralının sözlərinə mahnı yazmış bəstəkar Şahin Musaoğlu da şairi yubileyi münasibətilə təbrik etdi, onunla bağlı maraqlı xatirələrini söylədi. Keçmiş hərbçi Zöhrab İmamquliyev cəbhə yollarında dost olduğu Rəşid Faxralı yaradıcılığını yüksək qiymətləndirdi.

Digər çıxış edənlər də Rəşidin Azərbaycan ədəbiyyatı və jurnalistikasında hərbi vətənpərvərlik mövzusunu geniş işıqlandıran qələm adamı olduğunu qeyd etdilər.

Sonra şair Rəşid Faxralı yaradıcılığına dəyər verərək yubileyinə toplaşanlara, eləcə də AYB-yə və “Borşçalı” İB-yə təşəkkürünü bildirdi.

***Paşa ƏMİRCANOV***
***XQ***

## “Zəyəm Texnologiyalar Parkı” ASC-nin səhmdarlarının illik ümumi yığıncağının çağırılması barədə bildiriş

**Hörmətli Səhmdarlar!**

28 aprel 2025-ci il saat 11.00-da Şəmkir rayonu, Zəyəm ŞTQ, S. Vurğun küçəsi 24 (AZ5730) nömrəli ünvanda "Zəyəm Texnologiyalar Parkı" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların illik ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

1. “Zəyəm Texnologiyalar Parkı” ASC-nin 2024-cü il üçün maliyyə hesabatı.
2. “Zəyəm Texnologiyalar Parkı” ASC-nin Müşahidə Şurasının tərkibinin seçilməsi.
3. Digər cari məsələlər.

**Qeyd:**

• Səhmdarlar illik ümumi yığıncağın gündəliyinin materialları ilə ümumi yığıncaq zamanı tanış ola bilərlər.

• Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, hər bir səhmdar ümumi yığıncaqda iştirak hüququnu özü və ya nümayəndəsi vasitəsi ilə həyata keçirə bilər. Sonuncu halda nümayəndənin səlahiyyəti qanunvericiliklə müəyyənləşdirilmiş formada tərtib olunmuş etibarnamə ilə təsdiq edilməlidir.

***“Zəyəm Texnologiyalar Parkı” ASC***

## “Gözəllik” ASC səhmdarlarının nəzərinə!

“Gözəllik” ASC səhmdarlarının növbəti ümumi yığıncağı 18 aprel 2025-ci il saat 14.00-da keçiriləcəkdir.

***Ümumi yığıncağın gündəliyi:***

1. 2024-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Cəmiyyətin ləğv edilməsi.
3. Ləğvetmə komissiyasının yaradılması.
4. Ləğvetmə komissiyasının səlahiyyətlərinin müəyyənləşdirilməsi.
5. Cəmiyyətin müşahidə şurasının və icra orqanının səlahiyyətlərinə xitam verilməsi.
6. Digər məsələlər.

Ümumi yığıncaq aşağıdakı ünvanda keçiriləcəkdir: Bakı şəhəri, Yasamal rayonu, M.Əliyev küçəsi 130.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər. Əlaqə nömrəsi: +99470-306-66-98.

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun Dəniz Nəqliyyat Donanmasının inzibati binasına tələb olunan laminat və plintusların satın alınması məqsədilə*

## Müsabiqə Elan Edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 7 mart 2025-ci il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1263.**

**Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.**

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan kimyəvi məhlulların satın alınması məqsədilə*

## Müsabiqə Elan Edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 7 mart 2025-ci il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1263.**

**Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 46 (30740) 1 mart 2025-ci il, şənbə



# Xoş gəldin, Ramazan!

## "11 ayın sultanı" yenidən həyatımızda

**Qurani-Kərimdə Ramazanın Allaha yaxınlaşma, günahlardan təmizlənmə, mərhəmət və ibadət ayı olduğu bildirilir. Allah-Təala möminlərə bu ayda daha çox ibadət etməyi, onlara verilən fürsətdən bəhrələnməyi tövsiyə etdi.**

...Mübarək Ramazan ayını digər aylardan iki əsas cəhət fərqləndirir. Birincisi, Qurani-Kərim bu ayda nazil olub. Digəri isə oruc tutmaq müsəlmanlara bu ayda vacib buyurulub. Oruc tutmaq İslamın beş vacib şərtindən biridir. Oruc təkcə İslam dinində deyil, həm də bütün səmavi dinlərdə Allah tərəfindən göndərilən sabit hökmdür. Qurani-Kərimdə bu hökm belə açıqlanır: "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib buyurulduğu kimi, sizə də vacib buyuruldu ki, (bunun vasitəsilə pis əməllərdən) çəkinəsiniz!" ("Əl-Bəqərə" surəsi, 183-ci ayə).

"Ramazan ayı insanlara doğru yolu göstərən, doğru yolu və haqqı batildən ayırmağı açıq-aşkar dəlillərlə bəyan edən Quranın nazil olunduğu aydır. Sizdən hər kim o aya yetişsə (Ramazan hilalını görsə) oruc tutsun. Xəstələnənlər, yaxud səfərdə olanlar isə (tutmadığı günlərin sayı qədər) başqa günlərdə tutsunlar. ("Əl-Bəqərə" surəsi, 185-ci ayə).

... Oruc insana sevgi, mərhəmət, qayğıkeşlik kimi ülvi hissləri aşılayır. Bu ibadət insanın özünü yeməkdən məhrum etmək məqsədilə deyil, imkansızlara yardım əlini uzatmaq, ilin on bir ayında onların yaşadıqları hissləri duymaq məqsədilə vacib buyurulub. Varlı müsəlman müvəqqəti də olsa kasıblığın, aclığın halını dadır. Bu isə onlarda şəfqət və mərhəmət hisslərinin oyanmasına təkan verir. Qarşıdan sağlamlıq və xoşbəxtliyin sadəcə mədəni doldurmaq olmadığını öyrədən, ruhu paklaşdıran və yüksəldən günlər gəlir. Ramazan bədənə şəfa, könülə səfa bəxş edən, rəhmət, bərəkət və müjdələrlə dolu bir aydır. Bu ayda hətta mələklər də insanlara qiptə edirlər.

...Vətən sevgisi imandandır, – deyiblər. Şükürlər olsun ki, artıq beşinci Ramazanı alnıaçıq, üzüağ, böyük Zəfər muradına çatmış xalq kimi qarşılayırıq. Azad, bütöv və suveren yurdumuza bu müqəddəs ayın öz fəzilətlərini armağan edəcəyinə inanırıq.

İnsanı ayaqda tutan, uğurlara aparan ən böyük güc onun inancıdır. Ramazan ayı hər şeyin Haqdan gəldiyinə tərəddüdsüz inandığımızı təsdiqləyən mübarək aydır. Ramazan ayı Qurani-Kərimin nazil olduğu, eyni zamanda, min aydan daha xeyirli Qədr gecəsini özündə gizlətdiyi aydır. Bu gecə Allahın rəhm qapısı taybatay bəndələrinin üzünə açılar. Ramazan ayında möminlərin üzərinə qoyulan vəzifə oruc tutmaq, mübarək ayın sonunda fidyə verib, bayramqabağı imkansız dindaşlarını sevindirməkdir. İbadətlər arasında orucun xüsusi yeri var. Axı, kimin oruc tutub-tutmadığını Allahdan başqa kimsə bilməz. Yəni, oruc tutmaq göstərişlə yerinə yetirilməsi mümkün olmayan, bəndənin Tanrının hüzurunda ibadətidir. İbadətin birinci şərti isə insan qəlbini qırmamaqdır. Bu mənada Ramazan günahların bağışlanması üçün ən münasib ay sayılır. Oruc tutan bu ayda yaşadığı aclıq və susuzluqla Qiyaməti yada salır. Bundan daha vacibi isə kasıblara sədəqə verir, qocalara ehtiram, uşaqlara mərhəmət, yetimlərə isə nəvaziş göstərir.

...Oxuculara xatırladaq ki, həddi-buluğa çatmayan uşaqların oruc tutması vacib deyil. Qızların 9 yaşından, oğlanların isə 15 yaşından etibarən, sağlamlıqları imkan verirsə, bu ibadətə əməl etmələri caiz sayılır. Onlar üçün ilahi sevgi ilə oruc tutmaq, Ramazanın aşıladığı bəşəri duyğuları hiss etmək ayrı aləmdir. Bəndənin Yer üzündəki maddi nemətlərdən əlini çəkdiyi, Göydəkinin mənəvi ruzisi ilə can süfrələrinin açıldığı aydır Ramazan. İnsan xislətindəki nəfsin əl-qolunun bağlandığı, İlahi eşqin və iman ordusunun nəfsə qarşı cihada qalxdığı, möminlərin Eşq və İman Sahibinin bayrağının altında səf düzüldüyü aydır Ramazan. İslam Peyğəmbərimiz (s.ə.s.) kəlamlarından birində buyurur: "Səbr xoş bir buluddur, ondan hikmət və mənəvi lütf yağar". Məhz bu səbəbdəndir ki, Quran səbr ayında nazil olub. Bəli, bəndəni günah işləməyə təşviq edən nəfs də hər zaman saflaşmağa möhtacdır.

...Ramazan həm də düşüncəyə yardımlaşmanın, kasıba əl tutmaq, zəkat vermək savabının hakim kəsildiyi aydır. Dinimizə görə, bu müqəddəs ayda edilən ibadətlərin birə on, birə yetmiş, hətta birə yeddi yüz qat savab gətirdiyini bilən müsəlmanlar zəkatlarını Ramazanda verirlər. Bu zaman onlar həm rəhmət xəzinəsindən yararlanmağı, həm də ehtiyacı olan insanları Ramazanda sevindirməyi düşünürlər.

...Bu dünyada rəhmət və mərhəmətin, o dünyada Cənnətin yolunu müjdələyən mübarək Ramazan ayında Allah-Təala Onun rizası üçün oruc tutan bütün müsəlmanların ibadətini Öz dərgahında qəbul eləsin! Yerin, Göyün Tanrısı saf niyyətli, savab əməl sahiblərini layiq olduqları mərtəbəyə qovuşdursun! Amin!

***İ.HƏSƏNQALA***
***XQ***

İdman

## Cüdoçumuz "Böyük dəbilqə"də gümüş medal qazanıb



**Azərbaycan komandası Özbəkistanın paytaxtı Daşkənddə keçirilən "Böyük Dəbilqə" turnirində iştirak edir.**

Yarışın ilk günündə Azərbaycan cüdoçusu Turan Bayramov (60 kq) ilk görüşündə çinli Yuantao Vangı, yarımfinalda yerli idmançı Bakhrom Boturova qalib gələrək finala çıxıb. Qızıl medal uğrunda Beynəlxalq Cüdo Federasiyası adından çıxış edən Ayub Bliyevə məğlub olaraq gümüş medalla kifayətlənib.

Qeyd edək ki, "Böyük Dəbilqə" martın 2-də başa çatacaq.

## Dünya çempionatında 4 mükafat



**Azərbaycan idmançıları Hindistanın paytaxtı Delhidə keçirilən koreş üzrə dünya çempionatında 4 bürünc medal qazanıb.**

Bu barədə Gənclər və İdman Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Eyvaz Baxşiyev (60 kq), Şəhanə Alməmmədova (70 kq), Hacalı Qasımov (74 kq), Abdulla Abdullayev (82 kq) üçüncü olublar.

## AFFA 4 klubu cəzalandırıb




**AFFA Misli Premyer Liqasının XXIV turunda qeydə alınan qayda pozuntularına hüquqi qiymət verib.**

"Neftçi"–"Sumqayıt" oyununda qonaqların 4, "Araz-Naxçıvan"–"Səbail" matçında meydan sahiblərinin 5 futbolçusu sarı vərəqə aldığına görə hər iki klub ayrı-ayrılıqda 700 manat cərimə edilib.

"Şamaxı"–"Turan Tovuz" matçında Şamaxı klubu 4 futbolçusu sarı vərəqə ilə cəzalandırıldığına görə 700 manat cərimə olunub.

"Qarabağ" isə "Sabah"la matçda Əsasnamənin tələbləri pozulduğuna görə 500 manat ziyana düşüb.

***L.QURBANOVA***
***XQ***

*✓ Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Heydərov Kamran Meyludşah oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

## YARAT-da Nəsimi ruhu

**YARAT Müasir İncəsənət Məkanında yerli və xarici rəssamların əsərlərindən ibarət "Mən və gəmi, mən və böyük daşqın" adlı sərgi açılıb.**





Salonda dahi Nəsimi fəlsəfəsindən bəhrələnən bir qrup istedadlı rəssamın əsərləri nümayiş olunur. Qrupun üzvləri arasında Tərlan Qorçu, Orxan Hüseynov, Əli bəy Hüseynzadə, Səlim Turan, Elturan Məmmədov (Azərbaycan), Mladen Milyanoviç (Bosniya və Herseqovina), Pavla Nikitina (Çexiya), Mixailo Alekseyenko, Volodimir Budnikov, Vlada Ralko (Ukrayna) və başqa ölkələrdən olan istedadlı fırça ustaları var.

Məqsəd təkcə Nəsimini bəşər tarixinin ən böyük mütəfəkkirlərindən biri kimi yad etmək deyil, həm də şairin həyatın mənası haqqındakı dərin və fəlsəfi düşüncələrini göstərməkdir.

Sərginin kuratoru ukraynalı incəsənət tənqidçisi Konstantin Vladirimoviç Doroşenko ekspozisiyalar haqqında danışarkən deyib:

– Nəsiminin mətnlərini diqqətlə oxusanız, özünüzü necə inkişaf etdirmək və dünyanı dəyişmək barədə çoxlu işarələr tapa bilərsiniz. Onun dili müasir səslənməsə də, ideyalarının mahiyyəti aktual olaraq qalır. Nəsimi, daxili harmoniyanın əhəmiyyətindən və insanın dünya qarşısında məsuliyyətindən danışarkən deyirdi ki, dünyada hər şey insandır və bu, mütləq həqiqətdir. Axı bizim hər birimiz ayrı bir dünyayıq.

Ekspozisiyada, həmçinin klassik muğam ənənələrini təbiətin xoş sədaları ilə birləşdirən nadir audiovizual instalyasiya da təqdim olunur.

Qeyd edək ki, sərgi bu il oktyabrın 26-dək davam edəcək.

***S.FİDAN***
***XQ***

## Əsəbləşmisən – 1 stəkan su iç!



**İşdən sonra evə gedərkən tıxaclarda, yaxud hər hansı problemin həlli zamanı əsəbləşib ikiqat yorulanlar da olur. Mütəxəssislərin fikrincə, belə yorğunluğu və əsəbi yalnız bəzi bitki çayları və bitki tərkibli içkilərlə aradan qaldırmaq mümkündür.**

Dietoloq Darya Rusakova hansı içkilərin sakitləşmək üçün təsirli ola biləcəyini açıqlayıb:

– Yalnız əsəbi vaxtlarda deyil, ümumiyyətlə, yorğunluğu aradan qaldırmaq, ruhən dincəlmək üçün kofeinsiz içkilər, məsələn, çobanyastığı, nanə, lavandalı çaylar, eləcə də apteklərdən əldə edilə bilən bitki mənşəli içkilər içmək məsləhətdir.

Əgər bir insan isteriya keçirirsə, bir stəkan soyuq su ona kömək edəcək. Bir tərəfdən bu, psixoloji səviyyədə bir hərəkətdir ki, insanı narahat edən amildən yayınmağa imkan verir. Digər tərəfdən, həzm sisteminin damar şəbəkəsi olduğundan və həm soyuq, həm də isti içkilər içərkən, damarların reaksiyası olduğu



üçün bu, qan axınının daha yaxşı paylanmasına kömək edir.

Bu gerçəyi dərk edən müdriklərimiz də deyiblər: "Əsəbləşmisən, 1 stəkan su iç!"

***Z.HÜSEYNLİ***
***XQ***

HAVA

## Bu gün də qar və şaxta

Ekologiya və Təbii Sərvətlər Nazirli Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, martın 1-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir qar yağacağı gözlənilir. Gecə və səhər yarımadanın bəzi yerlərində intensiv olacağı ehtimalı var.

Axşam tədricən kəsiləcək. Arabir güclənən şimal-qərb küləyi əsəcək, axşam mülayimləşəcək. Gecə 3-5°, gündüz 0-3° şaxta olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunundan 773 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Bəzi yollar buz bağlayacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Axşam bəzi yerlərdə tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq.

Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5° şaxta,



gündüz 1-5° isti, dağlarda gecə 10-15°, yüksək dağlıq ərazilərdə 16-21°, gündüz 2-7° şaxta olacaq. Bəzi yollar buz bağlayacaq.

***Q.QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azər Kərimov Arif Qaraşova nəvəsi

**AYXAN QASIMOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3225
SİFARİŞ 430
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00